Əfsanəvi
kəşfiyyatçı:



Orxan Əkbərov

ŞƏHİDLİK – QƏHRƏMANLIQ-İGİDLİK

ASİF MƏRZİLİ



Əfsanəvi kəşfiyyatçı:

Orxan Əkbərov

QANUN NƏŞRİYYATI

Kitabdakı xatirələri tərtib etdi: Asif Mərzili,
Avropa Mətbuat Federasiyasının üzvü, "Təzadlar"
qəzetinin və "Tezadlar TV"nin təsisçisi və baş redaktoru,
Türkiyənin "Anadoluyakasihaber.com" saytının köşə yazarı

Asif Mərzili. Əfsanəvi kəşfiyyatçı: Orxan Əkbərov
Bakı, "Qanun" nəşriyyatı, 2022, 160 səh.

Ölçü: 130x200 mm
Cild: qalın
Çapa imzalandı: 11.11.2022

Korrektor: Əyyar Tahir
Texniki redaktor: Asifə Əfəndiyeva
Mətn dizaynı: Aytac Abdul
Qapaq dizaynı: Rafael Qasım

"Qanun" nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-393-5

© Asif Mərzili, 2022
© "Qanun" nəşriyyatı, 2022

GİRİŞ

Kitab 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatında iştirak edərək son nəfəsinədək döyüşüb qəhrəmancasına həlak olan, İkinci Qarabağ müharibəsində qanı ilə tarix yazan oğullarımızdan biri – şəhid polkovnik-leytenant Əkbərov Orxan Nadir oğlunun döyüş yolundan bəhs edir.

Xatırladırıq ki, 2016-cı ilin Aprel döyüşlərində və 2020-ci ildə Tovuz istiqamətində gedən döyüşlərdə fəal iştirak edən, 2020-ci ilin sentyabr ayında torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaətlər göstərən Orxan Əkbərov düşmənin 200-dən çox əsgərini və bir neçə silah dolu maşınını məhv etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə Orxan Əkbərova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" Fəxri adı verilmişdir.

Eyni zamanda Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda gedən qanlı döyüş əməliyyatlarındakı igidlik və şücaət nümayiş etdirdiyinə görə, Orxan Əkbərov Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Azərbaycan Nazirlər Kabinetinin qərarına əsasən, Biləsuvar şəhəri Uşaq İncəsənət Məktəbinə Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun adı verilmişdir.

Kitabda şəhid qəhrəman Orxan Əkbərovun döyüş yoldaşlarının, komandir və əsgərlərinin, eləcə də dostlarının, ailə üzvlərinin, ona orta məktəbdə dərs demiş müəllimlərin və s. xatirələri toplanmışdır.



ÖN SÖZ

ŞƏHİDLİK – QƏHRƏMANLIQ-İGİDLİK

...Sovetlər dönəmində orta məktəbin birinci sinfində tədris edilən "Ana dili" kitabında hər bir şagirdin dillər əzbəri olan bir atalar sözü-aforizm vardı: "İgid ölər, adı qalar!"

Azərbaycanın Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun barəsində yazılmış və qarşınızda olan bu kitaba xatirələr toplayanda, eləcə də igid komandir haqqında digər mənbələrdən materiallar əldə edəndə bir daha şahidi oldum ki, Orxan şəhid olsa da, özündən sonra gələcək nəslə ərməğan olan bir qəhrəmanlıq nümunəsi qoyub gedib. O, ölməyib, şəhid olub!!!

Bəli, hər kəsin qismətində yaşayacaq bir ömrün aylarla, illərlə ölçülə bilən ömür yolu, həyat kredosu var. Bu ömür fiziki baxımdan konkret ölçüyə sığır, sonsuz deyil. Bu, hər bir kəsin yaşadığı həyatın fəlsəfəsidir. Bir gün hər birimiz bu dünyadan köçəcəyik. Və yaşadığımız ömürdən nə qalacaqsa, həyatımızın dəyəri də onunla bilinəcək.

Orxan Əkbərov torpağı Vətən edən, döyüşkənliyi-igidliyi və cəsarəti ilə Azərbaycanın qüdrətini düşmənə sübut edən əfsanəvi qəhrəmanlardandır. O, özündən sonra işğaldan azad edilmiş Vətən torpaqlarını Azərbaycana yadigar-əmanət qoyub getdi. Orxan bu torpağı qanı ilə suvardı, canı ilə qorudu, adı ilə göylərə ucaltdı!

* * *

Orxan Əkbərov Qarabağ şəhidi – Vətən qəhrəmanı, Azərbaycan igididir! O, digər şəhid qəhrəmanlar kimi, həm də 20 Yanvar qurbanlarının, Xocalıda həlak olan dinc insanların, erməni əsirliyində min bir işgəncələrə məruz qalmış, iniltisi ərşə dirənmiş əsir və girovların qisasını aldı. O, Azərbaycanın qədim tarixi torpağı Qarabağa 1828-ci ildən köçüb gəlmiş ermənilərin fürsətdən istifadə edərək bu müqəddəs torpaqda ikinci saxta erməni dövləti yaratmaq istəyinə "Yox!" – deyən, nöqtə qoyan igidlərimizdən biridir, əfsanəvi qəhrəmanımızdır. O, bir evdə, bir ocaqda, bir ailədə dünyaya göz açdı, amma Azərbaycana doğulan qəhrəman oldu! Bu igidliyin-şəhidliyin fəlsəfəsini türk ədəbiyyatında tanınan imza olan Nihal Atsız belə verib:

Qəhrəmanlıq nə yalnız
bir yüksəliş deməkdir.
Nə də yıldızlar kibi
parlayıb sönməməkdir.
Sızlarsa da könüllər
Şəhidlərin yasından,
Qoşar adım getməli
onların arxasından.
Qəhrəmanlıq – içərək
acı ölüm tasından,
irəliyə atılmaq və
sonra dönməməkdir!

...Ermənistanın Azərbaycana qarşı işğalçılığı hər birimizin yaddaşında kədərli iz buraxıb. Ötən əsrin 90-cı illərindən başlanan bu işğal siyasəti Azərbaycan torpaqlarının 20 faizinin zəbt olunması və ələ keçirilməsi ilə nəticələndi. 2020-ci ilin 27 sentyabrında bu işğala qarşı ayağa qalxan Azərbaycan oğulları düşmənə kimliyini sübut etmək üçün silaha sarıldı. O oğullar ki, ermənilərin işğal siyasətinin qurbanı olan kənd və şəhərlərimiz ələ keçiriləndə o yurdları görməmişdilər, yaxud bəziləri körpə idi, bir çoxu uşaq idi, yaxud anadan olmamışdı. Təsəvvür edin, Orxanın doğum tarixi 1982-ci ildir. Yəni, düşmən yurdlarımızın işğalına göz qoyanda Orxanın cəmi səkkiz yaşı var idi. Xocalı, Şuşa, Laçın... işğal ediləndə Orxanın 10, Ağdam, Kəlbəcər, Füzuli, Zəngilan, Ağdərə, Xocavənd, Qubadlı, Cəbrayıl... işğal olunanda isə 11 yaşı tamam olmuşdu... Və mən jurnalist həmkarlarımla Orxan Əkbərov haqqında onun ailə üzvlərindən, ona orta məktəbdə dərs demiş müəllimlərindən, kursant yoldaşlarından... söylədikləri xatirələri dinləyəndə inanılmaz faktları söyləyirdilər. Hətta orta məktəbin sinif müəlliməsi ürəyimizi dağa döndərən bir fikri dilə gətirdi: "...Yadımdadır, Orxan 6-cı sinifdə oxuyurdu. Uşaqlar arasında gələcəkdə nə olmaq istədikləri barədə söhbət edirdim, fikirlərini dinləyirdim... Kimi gələcəkdə həkim olacağını, kimi polis, kimi müəllim... olmaq istədiyini deyirdi. Növbə Orxana çatdı, dedim, Orxan, bəs sən gələcəkdə nə olmaq istəyirsən? Fikirləşmədən dedi, müəllim, mən torpağımızı işğal edən ermənilər öldürən olmaq istəyirəm..."

Bəli, hələ uşaq ikən düşmənə qarşı içində nifrət hissi bəslənən Orxan böyüyəndə elə bu niyyətə könül ver-

di, Ali Hərbi Akademiyaya daxil oldu, zabit oldu, hərbi sahəni seçdi. Vətən də onu seçmişdi!

Onun yolu torpaqlarımızda viranəliklə məşğul olan düşmənə qan uddurmaqdan, düşmənin işğal etdiyi ərazilərdən birdəfəlik rədd edilməsinə nail olmaqdan keçdi... Və bu müqəddəs yolun şəhidi oldu, qəhrəmanlıq zirvəsinə ucaldı!

Orxan Əkbərov anadan ailəsinə övlad, Vətənə isə qəhrəman-igid əsgər, komandir doğulmuşdu!

Mərhum şairimiz, yurd həsrətli Məmməd Aslan elə bil bu şeirini Orxan üçün yazmışdı:

Qərənfil – şəhid qanı;
Ağla, qərənfil ağla!
Ağla, inlət dünyanı;
Ağla, qərənfil, ağla!

Bu səngiməz ağrıya,
Bu qan sızan sarğıya,
Bu allahsız qurğuya
Ağla, qərənfil, ağla!

Xalq şairi Məmməd Arazın "Dur ayağa, Azərbaycan!" hayqırtılı bu şeiri də elə bil Orxan Əkbərovun nitqinə – döyüş yoluna yazılıb:

Ayağa dur, Azərbaycan!
Sənin üçün.
Səndən qeyri biz hər şeyi
Bölə billik
Səndən qeyri biz hamımız
Ölə billik.

Ayağa dur, Azərbaycan!
Bunu bizə zaman deyir,
Məzarından baş qaldıran
Baban deyir...

Ruhu şad olsun Vətən Müharibəsi Qəhrəmanımızın! Mən həm də bu kitabda toplanmış şirin və kövrək, tarixə çevrilmiş xatirələrin baş qəhrəmanı olan Orxan Əkbərovu nəzərdə tutub deyirəm...



Sonda: Qəhrəmanımızın qızının dilindən yazılmış aşağıdakı şeir, sanki bütün şəhidlərimiz üçün deyilib:

DARIXMIŞAM

(Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun məktəbli qızı Sevil Orxan qızının dilindən)

Ata, sənsiz ad günümdə,
Əhvalımı bilməz oldum.
Bəs hanı "Şahzadə" tortun,
Söz vermişdin, gəlməz oldun!

Vətən üçün qıydın cana,
Düşməni bələdin qana.
Mən ağladım yana-yana,
Göz yaşımı silməz oldun!

Darıxanda bilməmisən,
Gözləsəm də, gəlməmisən.
Deyirlər ki, ölməmisən,
Şəhid olub ölməz oldun!!!

Adil Cəmil,
Prezident təqaüdçüsü, Əməkdar jurnalist



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

09 dekabr 2020-ci il

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və

mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adı verilsin:

...Əkbərov Orxan Nadir oğlu – polkovnik-leytenant (ölümündən sonra)

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 9 dekabr 2020-ci il

* * *

Orxan Əkbərovun tərcümeyi-halı:

Orxan Nadir oğlu Əkbərov.
Şəxsi məlumatlar:
Doğum tarixi: 12 dekabr 1982-ci il.
Doğum yeri: Saatlı, Azərbaycan SSR
Şəhid olduğu tarix: 2 oktyabr 2020-ci il (37 yaşında)
Şəhid olduğu yer: Füzuli rayonu, Azərbaycan
Dəfn olunduğu yer: Biləsuvar, Azərbaycan
Hərbi fəaliyyəti:
Mənsubiyyəti: Azərbaycan Silahlı Qüvvələri
Qoşun növü: Quru Qoşunları
Xidmət illəri: 2000-2020-ci illər
Hərbi rütbəsi:
Polkovnik-leytenant
Döyüşləri:
– 2016-cı ilin Aprel döyüşləri
– Vətən müharibəsi
– Füzuli döyüşləri
Təltifləri:
– "Vətən Müharibəsi Qəhrəmanı" medalı;

– "Vətən uğrunda" medalı (2020-ci il);
– "Füzulinin azad olunmasına görə" medalı (2020-ci il);
– "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı;
– "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı;
– "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı;
– "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı;
– "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı.

Ailəli olan şəhidimizin vətənə əmanət iki övladı yadigar qalıb.




Rəsmi arayış:

– Ailədə dörd qardaş olan Orxan Əkbərov 1982-ci ilin 12 dekabrında ziyalı ailəsində anadan olub. Orta məktəbi Biləsuvar şəhəri, 1 saylı tam orta məktəbdə başa vurub. Uşaq yaşlarından hərbçi olmaq istəyən O.Əkbərov idman sahəsində peşəkar boksçu kimi dəfələrlə rayon çempionu olub. Hərbi xidmət illərində isə hərbçilər arasında peşəkar boks üzrə keçirilən yarışların qalibi olaraq mükafatlandırılıb.

Orxan Əkbərov 2000-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olaraq təhsilini leytenant rütbəsi ilə başa vurub. 2005-ci ildə Təlim Tədris Mərkəzində təhsilini artıran bacarıqlı kəşfiyyatçı Füzulidəki "N" saylı həbi hissədə tağım komandiri, sonra bölük komandiri olub. Şəhid olduğu günədək hərbi xidmətini ön cəbhədə yerinə yetirib. İgid kəşfiyyatçı Orxan Əkbərovun qorxmazlığı, hərbi bilik və bacarığı komandanlıq tərəfindən həmişə diqqətdə saxlanılıb, yüksək qiymətləndirilib. Bu xidmətləri fəxri fərman və diplomlarla qiymətləndirilib. Beyləqan və Ağdam rayonlarındakı "N" saylı hərbi hissələrdə kəşfiyyat rəisi olub. Xidmət illərində də nizam-intizamı, qorxmazlığı, peşəkarlığı ilə seçilib. Və qarşıya qoyulan ən mürəkkəb tapşırıqları yüksək səviyyədə və dəqiqliklə yerinə yetirib.

Orxan Əkbərov 2019-cu ildən başlayaraq, Azərbaycanın işğal altında qalmış cəbhə bölgəsində, "N" saylı hərbi kəşfiyyat hissəsinə komandir təyin edilib. Orxan Əkbərov komandanlığın bu etimadını ləyaqətlə yerinə yetirib və düşmənin cəbhədə törətdiyi təxribatların qar-

şının alınmasında yaxından iştirak edib. Vətən uğrunda döyüşlərə atılanda da əsgərlərindən öndə olub. "Torpaq – əgər uğrunda ölən varsa, Vətəndir!" fəlsəfəsinə həm də bunu əlavə edib: torpaq – uğrunda düşməni öldürən və ölməyə hazır olan varsa, Vətəndir! Orxan Əkbərov öldürməyi, düşmənə qan uddurmağı da bacardı, ölməyi – şəhid olmağı da!



ORXAN ƏKBƏROVLA BAĞLI KÖVRƏK XATİRƏLƏR



Mais Bərxudarov,
General-leytenant, Vətən Müharibəsi Qəhrəmanı:

– Orxan Əkbərov 12 dekabr 1982-ci ildə Saatlı rayonunda anadan olmuşdur. Orxan hələ gənc zabit olduğu müddətdə, yəni 2005-2007-ci illərdə "N" saylı hərbi hissədə xidmət etdiyi vaxt mən onu şəxsən tanımışam. Belə ki, Orxan öz üzərində çalışmaqla, bilik və bacarığını artırmaqla, təlimlərdə şəxsi nümunə göstərməklə tərəfimdən hələ tağım və bölük komandiri olduğu müddətdə dəfələrlə təltif edilmiş, daima diqqət mərkəzində olmuşdur... 2016-cı il Aprel döyüşlərində Lələtəpənin azad edilməsində fəal iştirakı ilə özünü komandir kimi sübut etmişdir. 218 saylı hərbi hissəyə komandir təyin olunandan sonra Orxan şəxsi heyətin daima qeydinə qalmış, tabeliyində olanların xidmətlə bağlı, hətta on-

ların şəxsi problemlərini belə həll etməkdə yaxından köməklik göstərmişdir.

2020-ci ilin sentyabr ayında düşmən təcavüzünün qarşısının alınması məqsədilə başlanan Vətən müharibəsində Orxan artıq 218 saylı əlahiddə kəşfiyyat taborunun komandiri idi. O, artıq peşəkar kəşfiyyatçı kimi yetişmişdi... Düşmən bölmələri əsasən bizim bölmələrimizin hərəkətini izləməyə imkan verən "Yastı təpə" yüksəkliyində yerləşirdi. Ona görə də bu yüksəklik demək olar ki, bizim üçün əsl təhlükə mənbəyinə, düşmən üçün isə atəş, hücum, istehkam və müşahidə qalasına çevrilmişdi. Mənim tərəfimdən Orxana vəziyyətin ciddiliyini qiymətləndirmək, "Yastı təpə" yüksəkliyini ələ keçirmək, müqəddəs torpaqları düşmən tapdağından azad etmək tapşırığı verildi. Bu istiqamətdə Orxan tabeliyində olan kəşfiyyat qrupları ilə birgə şəxsən özü döyüşə qatıldı.

Orxanın şəxsən döyüşlərə qatılması, şəxsi nümunə göstərməsi, vətənpərvərlik hissinin onda yaratdığı ruh yüksəkliyi tabeliyində olanlara güc-qüvvət verirdi. Bu istiqamətdə qarşıya qoyulmuş tapşırıqların icra olunması onlar üçün müqəddəs vəzifə borcu olaraq qəbul edilmişdi. Bəli, bu mühüm tapşırıq uğurla yerinə yetirildi. "Yastı təpə" yüksəkliyi ələ keçirildikdən sonra Orxan növbəti tapşırıqların icrası üçün Horadiz istiqamətində hücumu davam etdirdi. 2020-ci ilin oktyabrın 2-də qarşıya qoyulmuş tapşırığın məsuliyyətini və ciddiliyini başa düşən Orxan və onun tabeliyində olan dəmir iradəli şəxsi heyəti düşmənə ard-arda ağır zərbələr vurdu. Ordumuzun irəliləməsi yönündə o, mütləq nəticələr əldə etməyə davam edirdi... Və müharibənin qızğın və həlledici məqamlarında Orxan mənimlə daim rabitə əlaqəsindəydi. Hər danışığında da "Komandir, hər şey yaxşıdır, uğurla irəliləyirik...", – deyirdi. Hətta

dəfələrlə mənə "Komandir, əlavə qüvvə göndərin, qarşıdakı əlverişli təpələri qısa müddətdə azad edim", – də deyirdi. İndiyə qədər onun qətiyyətli, inamlı sözləri xatirimdədir... Tabeliyində olan şəxsi heyət onu çox sevirdi və onunla tərəddüd etmədən döyüşə getməyə razı olurdu.

Orxan Allaha çox inanclı, ibadətini vaxtında edən bir insan idi. Şəhidliyin müqəddəsliyini və yüksək zirvə olduğunu bilirdi. Məhz buna görə də qorxmadan əsl qəhrəman kimi irəliləyirdi... Lakin düşmən də bunu hiss edirdi ki, qarşısındakı peşəkar kəşfiyyatçıdır, bunun üçün xüsusi hazırlıqlı snayperlərdən istifadə edərək Orxanı hədəf alırdı.

Orxan mənfur düşmənə layiqli cavab verdiyi döyüşdə – oktyabrın 2-də Horadiz istiqamətində Şəhidlik zirvəsinə yüksəldi. Onun göstərdiyi qəhrəmanlıqlar və onun adı əbədi olaraq bizim qəlbimizdə və tariximizin şanlı səhifəsində həkk olunacaq və heç vaxt yadımızdan çıxmayacaq. Allah bütün Şəhidlərimizə rəhmət eləsin, Vətən yolunda sağlamlığını itirmiş Qazilərimizə isə şəfa versin!

Vətən müharibəsi zamanı Orxan Əkbərov Silahlı Qüvvələrin Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevin 09 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" Fəxri adı ilə, 15 dekabr 2020-ci ildə "Vətən uğrunda", 25 dekabr 2020-ci ildə isə "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur...

Qələmə aldı: Asif Mərzili



Əfqan Nağıyev,
Dövlət Sərhəd Xidməti rəisinin müavini,
general-leytenant:

Yazıya giriş əvəzi:

...Şəhid Orxan Əkbərovun qardaşı, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin dron bölməsinin komandiri, mayor Ənvər Əkbərov bizimlə söhbətində belə bir maraqlı faktı danışmışdı ki, qardaşı Orxan 2020-ci il sentyabrın 27-də başlayan ikinci Qarabağ müharibəsinin ilk günlərində rəhbəri olduğu kəşfiyyat taborunun üzvləri ilə birlikdə mühasirəyə düşmüşlər. Özü tamam başqa bölgədə olduğundan həmin anda qardaşının köməyinə çatmağa imkanı olmur. Dərhal vaxtilə hərbi məktəbdə bir yerdə oxuduqları və sərhəd qoşunlarında dron komandiri olan, hazırda general-mayor, Vətən Müharibəsi Qəhrəmanı Babək Qurbanova müraciət edir. Bundan sonra dronlar havaya qaldırılır, düşmənin hədəfləri məhv

edilir və Orxan Əkbərov silahdaşları ilə birlikdə mühasirədən çıxırlar…

Bu məqam olduqca maraqlı gəldi və araşdırma apardıq ki, Orxan Əkbərov kimi kəşfiyyatçını və silahdaşlarını mühasirədən çıxaran kim olub? Bu barədə Ənvər Əkbərovun özünün də dəqiq məlumatı yox idi. O, yalnız Babək Qurbanova məlumat verməyini bilirdi. Araşdırmamız nəticəsində müəyyən etdik ki, Orxan Əkbərovu və silahdaşlarını çox qısa zamanda, özü də operativ şəkildə əməliyyat planı hazırlayıb mühasirədən çıxaran DSX-nın rəis müavini, general-leytenant Əfqan Nağıyevdir. Bir çox çətinlikdən sonra Əfqan Nağıyevlə görüşüb onu dinləyə bildik. İndi ikinci Qarabağ müharibəsində göstərdiyi şücaətlərə görə "Qarabağ" ordeni və bir neçə rayonun azad olunmasına görə medalları ilə təltif edilmiş, Sərhəd Qoşunları bütün dronların İdarə Edilmə Mərkəzinin rəisi, general-leytenant Əfqan Nağıyevlə olan söhbəti təqdim edirik:



– Əfqan müəllim, aldığımız məlumata görə, Siz Müdafiə Nazirliyinin kəşfiyyatçılardan ibarət hərbi hissənin komandiri, polkovnik-leytenant şəhid Orxan Əkbərovu birinci dəfə mühasirəyə düşəndə xilas etmisiniz. Mümkünsə, deyərdiniz, bu, necə baş verdi?

– O məsələ əlbəttə ki, mənim yadımdan çıxa bilməz. Müharibənin başladığı ilk günlər idi. Bizim tabeliyimizdə olan hərbi hissələrin birində dron komandiri olan, hərbi məktəbdə Orxan Əkbərovla bir yerdə oxumuş, hazırda general-mayor Babək Qurbanov mənə məlumat verdi ki, bəs Orxan Əkbərov bir neçə nəfərlə mühasirəyə düşüb. Cavab verdim ki, elə təzəlikcə, səndən əvvəl general Mais Bərxudarov artıq mənə məlumat verib. Mən dərhal bu barədə Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyevə məruzə elədim. O göstəriş verdi ki, təcili əməliyyat planı hazırlansın və kəşfiyyatçılarımız xilas edilsin. Həmin anda bizim dronlarımız düşmənin başqa hədəflərini vurmalı idi. Amma biz onların istiqamətini dəyişib, Orxan Əkbərovun mühasirədə olduğu yerə yönəltdik. Həmin vaxt bizim dronlar ermənilərin bir tankını, silah-sursat dolu bir "Kam.AZ"-nı və piyadaların döyüş maşınını məhv etdi. Ermənilər bunu gözləmirdilər və şoka düşdülər. Mühasirəni yaradan da məhz bu texnikalar idi. Onlar məhv edilən kimi, Orxan Əkbərov və onun tabeliyindəki kəşfiyyatçılar mühasirədən çıxdılar. Onu da deyim ki, bu əməliyyat operativ, özü də uğurlu şəkildə yerinə yetirilməndən sonra, dronlar yenidən əvvəlki mövqeyə qaytarıldı və əvvəlcədən planlaşdırdığımız düşmən hədəflərini də məhv etdik…

– Əfqan müəllim, bundan sonra Orxan Əkbərovla görüşüb-danışmaq imkanınız olubmu?

– Olub. Elə həmin gün Komanda İdarəetmə Mərkəzindən mənə dedilər ki, bir polkovnik sənlə danışmaq istəyir, dedim buyurun, calaşdırın. Bir də gördüm Orxan Əkbərov özü danışır. Özü də mühasirədən çıxan kimi, birbaşa mənimlə danışmağa gəlmişdi. Hiss etdim ki, təngnəfəs, tərli-tərli gəlib və mənə bunları dedi: "Cənab general, mən Sizə bütün həyatım boyu borcluyam. Siz bu gün məni və silahdaşlarımı ölümdən qurtardınız. Sizə hədsiz minnətdarlığımı bildirirəm".

Mən də cavab verdim ki, biz bir amal uğrunda vuruşuruq. Torpaqlarımızın azadlığı bizim üçün hər şeydən əzizdir. Ona görə də təşəkkür etməyə ehtiyac yoxdur, bu, bizim borcumuzdur. Beləcə Orxan Əkbərovla mühasirədən çıxan kimi söhbətimiz oldu. Sonda ona uğurlar dilədim. Amma sonradan şəhid olmağını eşidəndə çox kədərləndim. Belə igid oğullarımız yaşamalı idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

– Əfqan müəllim, Orxan Əkbərov haqqında danışdığınız bu xatirəyə görə sizə hədsiz dərəcədə minnətdarlığımızı bildiririk.

P. S. Onu da qeyd edim ki, Orxan Əkbərovun qardaşı Ənvər Əkbərov bu əməliyyat barədə xəbərsiz olub. Ona bu barədə məlumat verdim və olduqca təəccübləndi. Bildirdi ki, mən o vaxt dron komandiri olsam da, tamam başqa istiqamətdə idim. Ona görə də kömək üçün hərbi məktəbdə birgə oxuduğumuz, Orxanın qrup yoldaşı olmuş Babək Qurbanova müraciət etmişdim. Onun isə kiminlə əlaqə yaratdığından məlumatım olmayıb. Bircə onu bilirəm ki, Orxangili çox tez mühasirədən çıxartdılar. Kim və necə çıxartdı, daha onu bilmədim. İndi siz deyəndən sonra bildim ki, qardaşımı ilk dəfə mühasirədən çıxaran general-leytenant Əfqan Nağıyev olub. Mə-

nim və ailəmiz adından cənab generala sonsuz təşəkkürümü çatdırın…

Mən də təşəkkürü, təbii ki, ünvanına çatdırdım.

Elçin Məmmədli







Babək Qurbanov,
Dövlət Sərhəd Xidmətinin general-mayoru,
Vətən Müharibəsi Qəhrəmanı:

(Şəhid polkovnik-leytenant Orxan Əkbərovun tələbə yoldaşı):

Babək Qurbanov: "Ümumiyyətlə, hərbçi nədir? Biz bu formanı nə üçün geyinmişik? – Ona görə ki, biz sabah Vətən darda olanda, ərazi bütövlüyümüzə təhlükə yarananda vətən üçün, xalqımızın təhlükəsizliyi üçün döyüş tapşırığını icra etməliyik..."

– Cənab general, sizi şəhid, Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun tələbə yoldaşı olmusunuz. İnsanın tələbəlik yoldaşı həmişə əziz və unudulmaz olur. Ona görə də biz bilmək istərdik, tələbə yoldaşı kimi Orxan Əkbərovu necə xatırlayırsınız?

– Çox sağ olun, minnətdaram ki, şəhid tələbə yoldaşımı yad edirsiniz. Orxan Əkbərovla 2000– 2004-cü illərdə Heydər Əliyev adına Ali Hərbi Akademiyada bir qrupda oxumuşuq. Və bir sinifdə, qrupda olmağımızla yanaşı, sözün əsl mənasında çox yaxın dost olmuşuq. Unudulmaz gözəl xatirələrimiz, yaxşı günlərimizlə bərabər, ağrılı-acılı günlərimiz də olub. Təlimlərdə çox əziyyətli, zəhmətli günlər yaşamışıq. Və həmişə də bu çətin, şərəfli işimizdə bir yerdə olmuşuq. Qrupda 5-10 faiz dözümlü olanlar var idisə, onlardan biri də Orxan idi. Həm idmançı, həm bir boksçu kimi çox yaxşı iradəyə, fiziki gücə, xüsusi xarakterə malik bir hərbçi idi.

– Deyirsiniz ki, təlimlərdə çətinliklər olub. Ona görə də maraqlıdır, heç olubmu bir tələbə yoldaşı kimi Orxanın dilindən nə vaxtsa eşidəsiniz ki, biz niyə bu yolu seçdik?

– Əksinə, tam əksinə. Bəlkə də uşaqlardan kimsə elə deyə bilərdi ki, doğrudan da çətindir, yorulduq, gəlin bir az dincələk, qoy bir az kölgədə oturaq, sonra davam edərik və s. Amma Orxan o uşaqlardan idi ki, deyirdi, "Yox, biz bu gün bu təlimi mütləq yerinə yetirməliyik". Sözün həqiqi mənasında iradəli, səbrli, fiziki dözümlü idi. Orxan bizim nümunəvi bir kursant yoldaşımız olub və bütün kursant yoldaşlarımız onunla həmişə fəxr edib, qürur duyurdu. Hamı çox gözəl bilirdi ki, Orxan gələcəyin çox gözəl zabitlərindən olacaq. Elə də oldu.

– Bəs onun müəllim-tələbə münasibəti necə idi o dövrdə sizə dərs deyən müəllimlərlə?

– Yüksək səviyyədə. Ümumiyyətlə, Orxan idmançı kimi, yaxşı bədən forması var idi, idmanın boks növü ilə məşğul olmuşdu. Baxmayaraq ki, idmançılar kənardan kobud təsir bağışlayır, Orxanda isə tam əksinə idi. Orxanın

zərif, incə bir qəlbi vardı. Bir neçə gün bundan qabaq da tələbə yoldaşlarımızla yığışanda mütləq şəhidimiz, qəhrəmanımız Orxan haqqında həmişəki kimi xatirələr yada düşdü, onun barəsində danışdıq. Hamının dediyi bir söz olur, elə tələbə yoldaşımız Fariz də o günü belə bir söz dedi: "Onun özünəməxsus incə bir xarakteri, xüsusiyyəti var idi. O xarakter, xüsusiyyət həmişə onu irəliyə aparırdı".

Dostlarının, kollektivin, xüsusilə də müəllim heyətinin yanında Orxana xüsusi rəğbət bəslənirdi, hamının yanında yaxşı hörməti var idi. Ona görə də Orxanla həm tələbəlik illərində – istər xoş günlərimizdə, istər dərslərdən sonra boş vaxtlarda da, həmişə bir yerdə olardıq, həmişə bir yerdə oturardıq. Ondan sonra elə hərbi xidmət dövründə də bir-birimizdən ayrılmazdıq.

– Tələbəlik illəri başa çatandan sonra, hərbi xidmət dövrü başladı. Yəqin xidmət dövründə ayrı-ayrı yerlərə düşmüsünüz. Əlaqəniz necə olurdu?

– Deməli, ikinci kursdan sonra ixtisas seçimi oldu. İxtisas seçimində kəşfiyyat və xüsusi təyinatlı qüvvələrə seçilən heyətlər hamısı könüllüydü. Digərləri hansısa bir formada yazırdı, kompüterdən keçirdi, ehtiyac olduğu qədər kompüterdə seçilirdi. Amma kəşfiyyat və xüsusi təyinatlı qüvvələrə seçilən heyətlər hamısı könüllülər idi. Bir gün kursun rəhbəri çıxdı sıranın qarşısına ki, biz bir azdan seçim edəcəyik. Seçim müddətində kəşfiyyat və xüsusi təyinatlı qüvvələr ixtisasına kursantlar seçməliyik. Bu ixtisas üzrə seçim könüllü olacaq... Orxanla həmin vaxtı bir sırada yan-yana oturmuşduq. Orxanın içində qəribə bir sevinc vardı. O, sevincindən özündən asılı olmayaraq sırada tərpəndi. Sevinirdi ki, gözlədiyi an gəlib. Buna görə də qarşıda duran bölük komandiri onu tanıdığına görə Orxanın niyyətini duyub belə dedi: "Əkbərov, darıxma, bir azdan çıxarsan".



Bəli, belə oğul idi, belə bir kursant idi Orxan. Çıxdı sıranın qarşısına, hamı kimi getdi könüllü olaraq kəşfiyyatı seçdi. Sonra hərbi tibbi komissiyadan keçdilər və qruplarımız ayrılmağa başladı. 3-4-cü kursu onlar başqa qruplarda oxudular, mən isə Hərbi Hava Qüvvələrinə aid olan ixtisaslar üzrə təhsilimi davam etdirdim. Amma Orxan və digər kəşfiyyatçılar kimi, xüsusi təyinatlı kəşfiyyatçılar da təhsillərini öz qruplarına məxsus yerlərdə davam edirdilər. Buna baxmayaraq, eyni korpusda, eyni ərazidə idik. Mütəmadi olaraq görüşürdük, danışırdıq, dərdləşirdik. Xüsusi təyinatlıya aid olan mövzuları axşam dərsdən sonra bizə o qədər həyəcanla danışırdı ki, bax belə bir mövzu keçdik, belə bir həmlələr öyrəndik və s. Hətta deyirdi ki, çox istəyirəm bircə bu təlim vaxtı gəlib çatsın və biz bunları praktikada yerinə yetirək.

– Cənab general, 44 günlük müharibə barədə... Ayrı-ayrı hərbi hissələrdə qulluq etmisiniz və vətənə, torpa-

ğa, dövlətə xidmət etmək yolunu seçmisiniz. Bu 44 günlük müharibə də bir şans oldu, deyək ki, bir meydan oldu – kimin nəyi var, göstərsin. Orxan Əkbərov da təbii ki, müharibə yoluna o vaxta qədər keçdiyi təcrübə sayəsində hazır olmuşdu. Elə siz də müharibəyə qədər çoxsaylı təlimlər nəticəsində bu sınağa tam hazır olmusunuz. Nahaqdan sizə də "Vətən Müharibəsi Qəhrəmanı" Fəxri adı verilməyib axı. Deməli, böyük şücaətiniz olub, Orxanla bir yerdə olmasanız da, başqa döyüş cəbhəsində düşmənə ciddi zərbələr vurmusunuz. Bu səbəbdən Orxan da Vətən Müharibəsi Qəhrəmanıdır, siz də. Sizlər adınızı Azərbaycanın qəhrəmanlıq tarixinə igidliyinizlə yazmısınız. Ona görə də bilmək istərdim ki, döyüşlər zamanı bir-birinizlə necə əlaqə yaradırdınız? Siz axı ayrı-ayrı döyüş cəbhələrində idiniz...

– Deməli, müharibə öncəsi ciddi hazırlığımız oldu. Hazırlıq dövründə də biz bir neçə dəfə görüşdük. Əslində, hazırlıq dövrünün planına uyğun olaraq tez-tez görüşürdük. Biz işlə əlaqədar həm hərbçi, həm də dostcasına, yoldaşcasına görüşürdük. Birgə keçirdiyimiz o günləri danışıb yada salırdıq, deyib-gülürdük. Bir gün Orxan soruşdu ki, qardaş, gələcəkdə birdən hər hansı bir döyüş tapşırığı olarsa, bizim sənlə əlaqəmiz necə olacaq? Dedim ki, Orxan, narahat olma, telefonumuz var, daim bir-birimizlə əlaqə saxlayacağıq. Sözsüz ki, bu zarafat idi. Amma döyüş tapşırıqlarının icrası zamanı xüsusi rabitə əlaqəsi yaradılmışdı ki, onunla da əlaqə saxlayırdıq. Baxmayaraq ki, o Beyləqan istiqamətində ikinci korpusun nəzdindəki 218 nömrəli kəşfiyyat taborunun komandiri seçilmişdi. Hansı ki, elə-belə, adi bir tabor deyildi. Böyük bir əraziyə cavabdeh olan korpusun kəşfiyyat taborunun komandiri idi.

Orxanın Horadiz kəndi istiqamətində bir ciddi əməliyyatı var idi. Orxan o qədər ürəkli yanaşırdı bu məsələlərə, daha deyiləsi deyil. O, aldığı tapşırıqları çox yüksək səviyyədə yerinə yetirmək, yaxşı nəticələr əldə etmək üçün heç nə düşünmədən, fikirləşmədən tam irəli gedirdi. Qətiyyən heç bir qorxu hissi yox idi.

Sizə bir məqamı danışım. Döyüşün təzə başlayan vaxtı idi. Kəşfiyyatçılar Horadiz kəndi istiqamətində bir mühüm tapşırığı yerinə yetirirdi. Tapşırıq zamanı onlar bir çətinliyə düşdülər. Çox çətin bir situasiya yaranmışdı. Elə oldu ki, aidiyyəti üzrə komanda məntəqəsindən mənimlə əlaqə yaratdılar ki, orada kəşfiyyatçılar mühasirəyə düşüb, təcili dəstək lazımdır. Mən bunu eşidəndə dəhşətə gəldim. Dedim Orxan Əkbərovun heyətidi? Dedilər, nəinki heyəti, özü də oradadı. Bizim dronlara cənab generalımız rəhbərlik edirdi. Onunla əlaqə yaratdıq. Onun rəhbərliyi ilə dərhal əməliyyat planı hazırlandı və yüksək səviyyədə həyata keçirildi, mühasirədəki kəşfiyyatçılar, Orxanqarışıq hamısı mühasirədən qurtardı. Sonra o, gəlib komanda məntəqəsinə və oradan mənə də, onları mühasirədən çıxaran general-leytenant Əfqan Nağıyevə də təşəkkür etmişdi ki, çox sağ olun, bizi yenidən həyata qaytardınız. Dedim biz kimik ki, səni həyata qaytaraq? Dedi ki, mən və kəşfiyyatçılarım orada mühasirədəydik, düşmən tanklarını sizin dronlar məhv etdikdən sonra biz tapşırığı yerinə yetirib, sağ-salamat geri qayıda bildik. Fürsət düşmüşkən, bir az da başqa mövzularda danışıb güldük.

Sözsüz ki, nə qədər deyib-gülsək də, müharibə dövrü idi, bu da bir ovqat üçün bizə lazım idi. Amma Orxanda bir inadkarlıq var idi və bir yerdə dayanan deyildi. Hərbi

hissə komandiri idi, özü qabaqda olmalı deyildi. Amma heyətlə birlikdə şəxsən kəşfiyyata gedirdi. Oktyabr ayını 1-i idi, indiyə qədər yadımdan çıxmır. Zəng elədi, dedi Babək, necədi vəziyyət? Salamatçılıqdı? Mən sərhəd qoşunlarında dron bölməsinin komandiri idim, o isə Müdafiə Nazirliyinin tabeliyində idi. Dedim hə, bizdə hər şey qaydasındadır, döyüşlər yüksək səviyyədə gedir, sərhəd qoşunlarının əsgərləri bir çox yaşayış məntəqələrini azad ediblər. Bu xəbərə çox sevindi. Sonra mən də soruşdum sizdə necədir vəziyyət? Cavab verdi ki, hər şey yaxşıdır, sabah ciddi bir tapşırığım var. Biz birlikdə işləməliyik. Dedim, əlbəttə, elə olmalıdır, başqa cür ola da bilməz. Hələ bir az da zarafat edərək dedim ki, istəyirsən dronun birini hava ilə yox, elə verim özün apar. Bir az da belə deyib-güldük. Səhərisi günü keçirilən əməliyyatlarda doğrudan da çox nəticəli bir əməliyyat olmuşdu. Amma nə qədər yüksək nəticəsi olsa da, Orxan bu əməliyyat zamanı qəhrəmancasına şəhid oldu.



– Cənab general, əlbəttə, Orxan kimi dostu itirmək çox ağırdır. Bir az təsəllimiz budur ki, Orxan vətən yolunda qurban gedib. Bir dost, tələbə yoldaşı kimi, onun şəhid olmaq xəbərini necə eşitdiniz?

– Orxanın Ənvər adlı qardaşı var. Hələ kursant illərindən tanıyırdım və dostluq edirdik. Bizdən iki kurs aşağıda oxuyurdu. Biz 3-cü kursda olanda, o 1-ci kursda idi. İki kurs balaca olduğundan, darıxanda, Orxanın yanına gəlib-gedirdi. Biz də onu tanıyıb, dostlaşmışdıq. Ənvər də elə Orxan qədər şücaət göstərən, qəhrəmancasına tapşırığı icra edən hərbi qulluqçu idi. O da döyüş vaxtı dron bölməsinə rəhbərlik edirdi. Orxanın şəhid olması xəbərini də mənə Ənvər çatdırdı. Ümumiyyətlə, müharibə gedirdi deyə, döyüş tapşırıqları yerinə yetirilsə də, nə qədər uğur əldə etsək də, eyni zamanda da yaralılar və itkilər təbii ki, olmalı idi. Amma Orxan kimi qəhrəman bir oğulun şəhid olma xəbəri cəmi 20 dəqiqə ərzində bütün kursant yoldaşlarına çatdı. Hamı bildi ki, Orxan artıq şəhid olub. Baxmayaraq ki, hər kəs ayrı-ayrı bölgələrdə döyüşürdü. Bununla belə, bu acı xəbəri qısa müddətdə bildilər.

Çox, həddindən artıq çox sarsıldıq. Döyüşlər hələ təzə başlamışdı, Orxan hələ öz potensialını tam ortaya qoya bilməmişdi. Bu döyüşlərdə Orxanın bilik və bacarığı, peşəkarlığı ordumuza hələ çox fayda verəcəkdi. Orxanın itkisi ordumuz və xalqımız üçün çox ağır idi. Orxan elə bir dəyərli yoldaş, elə bir dost olub ki, onu itirmək hər birimiz üçün çox çətin oldu... Sözsüz ki, birinci mən Ənvərə zəng etdim, telefonu açdı.

Soruşdum, Ənvər, necəsən? Dedi, qardaş, heç yaxşı deyiləm. Mən məsələni dərhal başa düşdüm və Ənvərə daha danışmağa imkan vermədim. Elə telefonda, özü də ucadan, az qala qışqıra-qışqıra dedim: "Mən eşidəm ki, sən ağlamısan, sənin lə əlaqəni kəsəcəm. Sənin qardaşın, bizim dostumuz Orxan qəhrəmancasına şəhid olub. Torpaq uğrunda döyüş tapşırığını yerinə yetirən zaman həyatını itirib. O hər hansı bir avtomobil qəzasında, hər hansı bir fövqəladə hallar nəticəsində dünyasını dəyişməyib. O, torpaq uğrunda döyüşərkən şəhid olub. Ağlamamalısan, başını dik tutmalısan. Alnın həmişə açıq olmalıdır".

Orxan həqiqətən elə bir oğuldu ki, onun qəhrəmanlığı, dövlət, vətən, torpaq uğrunda göstərdiyi misilsiz xidmətləri bundan sonra da, yəni Azərbaycan durduqca, yaşadıqca həmişə dillərdə dastan olacaq. Sağ olsun cənab Ali Baş Komandanımız İlham Əliyev, onun qəhrəmanlığını yüksək səviyyədə qiymətləndirdi. O, dövlətin ən ali mükafatına – Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü. Orxan qəhrəman kimi həmişə bizim qəlbimizdə, xatirələrimizdə yaşayacaq. Ailəsi ilə daima əlaqə saxlayırıq. Ənvərdən mütəmadi ailəsi, uşaqları haqda soruşuruq. Nə cür maddi və mənəvi dəstək lazım olduğu ilə həmişə maraqlanırıq.

– Bəli, şəhid ailəsinə mənəvi dəstək daha çox lazım olur. Yurdunda Çingiz adlı oğlu böyüyür. O da görəcək ki, onun atasını dostları necə yad edirlər? O da gələcəyin bir əsgəri, bəlkə də bir zabitidir. Ona görə də sizin bu mənəvi dəstəyiniz nəinki Orxana, hesab edək

ki, bütün şəhidlərə göstərilən bir dəstəkdir. Orxan da o şəhidlərin biridir. Allah bütün şəhidlərimizə rəhmət eləsin...

– Orxan haqqında deyiləsi sözlər çoxdur... Orxan bütün danışıqlarında Qarabağdan, torpaqlarımızın işğalda olmasından söhbət açardı. Sanki həmişə döyüş hünəri, cəsarət, şücaət göstərmək üçün bir zaman, vaxt axtarırdı. Amma Orxanın kənardan çox sakit görünməsinə baxmayaraq, içində xüsusi bir coşqu, bir vulkan var idi ki, onu üzə çıxarmaq üçün sanki şərait, məqam gözləyirdi. Nəhayət, bu məqam, şərait yetişdi və bizim xidmətimiz dövründə Vətən müharibəsi başladı. Bir hərbçi kimi qürur duyuruq və fəxr edirik ki, nə yaxşı öz xidmət dövrümüzdə belə bir müharibəni yaşadıq. Sevinirik ki, qazanılan qələbədə, az da olsa, bizim də payımız oldu...

Orxan 2000-ci illərdə xidmətə başlamış hərbi qulluqçu idi. O, 2020-ci ildə artıq lazım olan xidmətini başa vurub, təqaüdə çıxa bilərdi. Ümumiyyətlə, hərbçi nədir? Biz bu formanı nə üçün geyinmişik? Biz lazım gələndə, ehtiyac duyulanda döyüş tapşırığını yerinə yetirmək üçün kursant olaraq oxumuşuq, hazırlaşmışıq. Ona görə ki, biz sabah Vətən darda olanda, ərazi bütövlüyümüzə təhlükə yarananda vətən üçün, xalqımızın təhlükəsizliyi üçün döyüş tapşırığını icra etməliyik.

Sizə dərin təşəkkürümü bildirirəm ki, bu cür qəhrəmanların adını, əməllərini əbədiləşdirmək üçün məlumatları toplayıb arxivləşdirirsiniz...

Elçin Məmmədli



Telman Hüseynov,
II Korpus komandirinin müavini,
Vətən Müharibəsi Qəhrəmanı:

Telman Hüseynov: "Mən onsuz da yaralanmışdım, Orxan Əkbərovun şəhid olması xəbərindən sonra isə, sanki yenidən, özü də bu dəfə lap ağır yara aldım..."

– Cənab polkovnik, sizinlə görüşümüzün məqsədini bilirsiniz. Şəhid polkovnik-leytenant Orxan Əkbərov haqqında kitab hazırlayırıq. Bilirik ki, siz də onu yaxın-

dan tanıyan, bir yerdə xidmət edən kəşfiyyatçı olmusunuz. İstərdim əvvəlcə Orxanla necə tanış olmağınızı deyərdiniz.

– Orxan Əkbərov mənimlə eyni ixtisasda oxuduğundan, yəni hər ikimiz kəşfiyyatçı olduğumuz üçün 2012-2013-cü illərdən onu tanıyırdım. O zaman bölük komandiri vəzifəsində xidmət edirdi, mən də başqa bir qurumda, başqa bir yerdə kəşfiyyat rəisi vəzifəsində xidmətdəydim. Zamanla toplanışlarda, dərs yerlərində görüşərdik. Onun növbəti vəzifəsi kəşfiyyat rəisi oldu, mən kəşfiyyat rəisi olmasam da, aramızda bir pillə fərqlə əməliyyat rəisi oldum. 2019-cu ilin əvvəllərində Beyləqan korpusuna kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə təyin olundum. Həmin korpusun tabeliyində olan briqadaların birində kəşfiyyat bölməsinin rəisi də Orxan idi. Mən Orxanı özündən xəbərsiz təxminən bir aya qədər izlədim və onun necə peşəkar olmağını qiymətləndirdim. Xidmətini tam nəzarətə götürdüm, Orxan bu sınaqlardan çox uğurla çıxdı, əsl peşəkar kəşfiyyatçı olduğunu sübut etdi. Özünün də xəbəri olmadan qərar qəbul etdim və ordu korpus komandirinə təklif verərək əlahiddə kəşfiyyat taborunun komandiri vəzifəsinə Orxan Əkbərovu təyin etdik. Ordu korpus komandiri onu çağırdı, söhbət etdi, dərindən tanış oldu. Əvvəldən tanışlıqları var idi, amma lap yaxından tanış oldu. Mənə də bir az suallar verdi və nəhayət, Orxan Əkbərovu 218 nömrəli hərbi hissəyə komandir vəzifəsinə təyin etdi. Bu hərbi hissə əlahiddə kəşfiyyat taboru idi. Ordu korpusu üçün bu, çox vacib struktur idi. Oranın komandiri mütləq yüksək dərəcədə peşəkar hərbçi olmalı idi. Orada təkcə Orxan deyildi, bir neçə zabiti təyinat üçün mən hazırlamışdım, içində ən yaxşı, nümunəvi zabit kimi Orxan qiymətləndirildi.

Orxan tabora təyin olundu. O, taborda yeni vəzifəyə başladığı andan bir az yenidənqurma apardı, şəxsi heyəti yenidən komplektləşdirməyə başladı. Başqa yerlərdə olan yaxşı kəşfiyyatçıları tabora cəlb eləməyə çalışdı. Mən də ona əlimdən gələn dəstəyi verirdim. Orxanın vəzifəsi həm əlahiddə kəşfiyyat taborunun komandiri, həm də Korpusda kəşfiyyat üzrə şöbə rəisinin müavini idi. Mən kəşfiyyat şöbəsinin rəisi olduğum üçün, Orxan həm də mənim müavinim sayılırdı. Bilavasitə mənim tabeliyimdə olan vəzifəli şəxs kimi, bütün iş fəaliyyətini nəzarətə götürdüm və nə köməyə ehtiyacı olsaydı, mənim vasitəmlə rəhbərliyə çatdırılırdı. Məlumat üçün deyim ki, Ordu korpus komandiri, general Mais Bərxudarov özü də ixtisasca kəşfiyyatçı idi. Müəyyən vəzifələri kəşfiyyatda keçib, çox sayda kəşfiyyat tapşırıqları yerinə yetirib və kəşfiyyatı bilən peşəkar bir zabit kimi tanınırdı. Komandir, mən və Orxan Əkbərov bir yerdə çox şeyləri analiz eləmişik, qiymətləndirmişik.

Orxan peşəkar kəşfiyyatçılardan ibarət çox gözəl tabor komplektləşdirmişdi. Əslində, tabor əvvəlcədən döyüşçü taboru kimi mövcud idi. Orada çox uğurlar olub. Aprel döyüşlərində uğurun bir qismi demək olar bu taborla bağlı idi. Taborun əvvəlki illərdə də uğurları olub və çoxsaylı döyüş tapşırıqlarını yerinə yetirib. Ancaq tək snayper müharibəsi dövründə, o hərbi hissədə adamlar vardı ki, düşmənin 4-5 hərbi qulluqçusunu məhv etmişdilər. Mən deyərdim ki, ən yaxşı hərbi hissələrdən biriydi. O taborun tərkibində Xüsusi Təyinatlı bölük də var idi. Onların isə özünəməxsus döyüş dəst-xətti formalaşmışdı. Orxan onları bir az da təkmilləşdirdi, başqa hərbi hissələrdən daha yaxşı peşəkar kadrları seçib tabora gətirdi. Hərbi hissədə tədris bazasının yaxşılaşdırılmasında müəyyən işlər gördü. Sistemi qurdu, tam döyüş qabiliyyətli bir tabor yarandı

və özü də komandir kimi özünə inandı. Ordu korpus komandiri də bu vəziyyəti gördü, bildi, tam arxayın oldu ki, bizim əlahiddə kəşfiyyat taboru həqiqətən də döyüş tapşırığının öhdəsindən layiqincə gələ bilər.

Bizim ordu korpusunun qarşısına çox böyük tapşırıqlar qoyulmuşdu. Düşmənin vətən müharibəsindən əvvəlki intensiv fəaliyyəti, ön xəttə yaxınlaşması, onların fəxrlə dedikləri "Ohanyan səddi"nin yerinin müəyyən edilməsi və ona qarşı maneələr, sahələrin qurulması, artilleriya bölmələrini, qoşun ehtiyatlarını ön xəttə çəkməsi, bəzi komanda məntəqələrinin açılması, kəşfiyyat bölmələrinin gücləndirilmiş şəkildə fəaliyyət göstərməsi, komanda-müşahidə məntəqələri üçün yerlərin təyin edilməsi, artilleriyanın atəş mövqelərinin açılması və s.-ə tam hazır idik. Yəni, düşməndən hər dəqiqə, hər an istənilən təxribatı gözləyirdik deyə, hazırlaşırdıq.

– Qarşınıza hansı tapşırıq qoyulmuşdu?



– Əks-hücuma hazırlıq dövründə bizim qarşımıza iki əsas istiqamətdə tapşırıq qoyulmuşdu. Tapşırığı alarıqsa, biz əsasən Horadiz, Cəbrayıl, digəri isə Alxanlı, Füzuli istiqamətində əks-hücuma keçəcəkdik. Ordu Korpus Komandanlığı əsas istiqamətin rəhbəri idi, qərargah rəisi isə digər istiqamətin rəhbəri. Əsas istiqamətin özü də üç yerə bölünürdü. Birinci, kənd Horadizin yaxınlığında, "Yastı təpə" deyilən ərazinin ələ keçirilməsi, ikinci, yaşayış məntəqəsinin yaxınlığında digər bir təpənin ələ keçirilməsi, üçüncüsü isə Lələtəpə kimi məşhur olan bir dağın qarşısında da əlavə bir təpə var, onun ələ keçirilməsi planlaşdırılmışdı. Əsasən Cəbrayıl yolunu kəsəndən, təpələri ələ keçirəndən sonra avtomobil texnikasının hərəkətini təmin etməliydik. Həqiqətən çox ağır bir tapşırıq idi…

– Cənab polkovnik, bu dediklərinizdən görünür ki, ordumuz döyüş başlamazdan əvvəl düşmən təxribatlarının qarşısını almağa tam hazır olub. Ona görə də mənim üçün maraqlıdır, Orxanla siz bir yerdə olmusunuz və döyüş zamanı əlaqələrinizi necə qurmuşdunuz? Döyüşdən əvvəl qurduğunuz taktikanı döyüş başlayandan sonra necə həyata keçirdiniz?

– Mənim bayaqdan danışdığımın hamısı düşmənin fəaliyyətdə intensiv olması, önə çəkilməsi, güclü vasitələrin ön xəttə gətirilməsi kəşfiyyat gücünün vasitəsilə radio-kəşfiyyat məlumatlarının əldə edilməsi, texniki məlumatların əldə olunması, düşmən hər hansısa bir əməliyyatın yerinə yetirilməsinə hazırlaşır kimi qiymətləndirmə əsasında aparılıb. Bizim qarşımıza bu vəzifə qoyulmuşdu ki, 27 sentyabrdan əvvəl düşmən hər hansı bir addım atardısa, hücum edərsə, biz əks-hücuma keç-

məli idik. Biz əsas hazırlıq işlərini görmüşdük. Ümumiyyətlə, general Mais Bərxudarov korpus komandiri kimi Ağdamın Yusifcanlı kəndindən başlayaraq Cəbrayılın Cocuq Mərcanlı kəndinə qədər olan bütün zonalara cavabdeh idi. Onun içində də əsas istiqamət Horadiz-Cəbrayıl istiqaməti olduğu üçün bu istiqamətin də əlavə rəhbəri və cavabdehi özü idi. Mən Korpusun kəşfiyyat rəisi olaraq, bütün sahələri idarə etsəm də, bilavasitə Mais Bərxudarovun yanındaydım. Ən ağır istiqamətdə post komandiri də orda idi, mən də. Yarım ağır hesab olunan üç istiqamətin ən ağırı Orxan Əkbərova tapşırılmışdı.

Kənd Horadiz yaxınlığındakı "Yastı təpə"də düşmənin vacib və sayca çoxluq təşkil etdiyini, həmçinin iri çaplı silahlarının olduğunu bilirdik. Həmin ərazilərə bizim vizual müşahidə etmək imkanımız olduğu üçün dəqiq bilmək istəyirdik ki, düşmənin əsas səngərinin, atəş mövqeyinin harada olması, maneələrin hansı sahələrdə qurulması və s. hansı səviyyədədir. Post komandiri kimi bunu, ancaq kəşfiyyatçılar öyrənə bilərdi. Məhz Orxan Əkbərov tərəddüd etmədən fərdi mənbələrin olduğu yerə gedirdi və təbii ki, burada onun qarşısına tapşırıq qoyulurdu ki, o ərazilər dəqiqləşdirilsin, incələnsin. İki gün müddətində o ərazilər incələndi, bütün istiqamətlərdə zirehli maşınların, qrupların yataqlar üzərində qurulması müəyyən edildi. Bu istiqamət elə bir ərazi idi ki, orada tankla və digər hərbi texnika ilə hərəkət etmək mümkün deyildi. Ona görə də Orxan Əkbərovun tabeliyində olan xüsusi təyinatlı üç bölükdən qrup halında ikisi, bir qrup da ehtiyatda olmaqla, həmin yerə əks-hücum etdilər və həmin yerləri uğurla ələ keçirtdilər.

Əməliyyat mənim rəhbərliyim altında həyata keçirilirdi. Bütün qiymətləndirməni doğru apardıq. Orxan Ək-

bərov öz bölməsini yaxşı qiymətləndirdi. Onun tabeliyində olan bölmələr yaxşı, real döyüş nümayiş etdirdilər və düşmənin bir qismini məhv edərək, bir qismini də həmişə olduğu kimi, qaçmağa məcbur etdilər. Nəticədə mövqelər tamam boşaldıldı və strateji əhəmiyyəti olan həmin yerlərdə bizim qruplar yerləşdi. Bizim taktiki qaydalara görə, mövqeyi ələ keçirdikdən sonra orada qalmaq olmazdı. Bu mövqedən mümkün qədər irəli getmək lazım idi. Çünki əgər niyyətimiz hücumu davam etdirmək olmasa da, düşmən öz mövqeyini dəqiq bildiyi üçün artilleriya vasitəsilə oranı məhv edə bilərdi. Bu səbəbdən biz kənarlarda yenidən müdafiə xətti qurmalıydıq.

Orxan Əkbərov bir komandir kimi qərar verdi və silsilə zonasını görərək, oranın sonuna qədər gedib müdafiə xəttini qurdu. Ordumuzun bütün cəbhə boyu əks-hücum əməliyyatını yerinə yetirdiyini nəzərə alaraq, mümkün qədər biz eyni xətlə getməyi nəzərə aldıq. Ancaq nəzərə alsaq ki, Orxan Əkbərov bu qrupla həmin xətt boyu gedə bilərdi. Hətta bu qrupla günün sonunda Hadruta qədər gedib çıxmaq imkanı vardı. Sadəcə günün sonunda yaxşı vəziyyət yaranmazdı, həm cəbhədə pozuntu əmələ gələrdi, həm də artilleriya atəşində özümüzünkülərə xəsarət yetirə bilərdik deyə, yaxın Üçtəpədə müdafiəni qurdu. Bunun da nəticəsində qoşunlarımızın əks-hücum xəttində pozuntu olmadan Füzulinin Horadiz kəndi və Nüzgər yaşayış məntəqəsi arasında bir neçə ən vacib təpələrin hamısını işğaldan azad etdik. Amma çox təəssüf ki, Orxan özü də həmin ərazidə qəhrəmancasına şəhid oldu.

Mən gözlərimə inana bilmirdim ki, Orxan daha yoxdur. Orxan Əkbərovun yetişdirdiyi kəşfiyyat qrupları, onun şəhid olması ilə fəaliyyətini dayandırdı. Onlar həmin ərazilərdən çıxarıldılar, Orxan Əkbərovun vəzifəsi

başqa vəzifəli şəxsin icrasına buraxıldı. Onlar yenə də Cəbrayıl şəhəri istiqamətində hücumu davam etdirdilər və şəhər işğaldan azad edildi. Cəbrayıl şəhəri bilirsiniz ki, çökəklikdə yerləşir və şəhərin ətrafında çoxlu təpələr var. Düşmən bu təpələrdə müdafiə mövqeyi tutmuşdu. Orxan Əkbərovun rəhbərlik etdiyi tabor onun şəhid olmasından sonra daha böyük cəsarətlə və qisas hissilə bütün Cəbrayıl şəhərinin ətrafında olan təpələri bir-bir işğaldan azad etdi. Ağtəpə yüksəkliyi və Ağtəpə kəndi, Daşveysəlli, Böyük və Kiçik Minbaşılı kəndləri Orxan Əkbərovun yetişdirdiyi tabor tərəfindən, amma Orxan Əkbərovsuz, işğaldan azad edildi. Orxanın qisasını artıqlaması ilə aldılar. 44 günlük müharibənin sonuna qədər o hərbi hissənin komandiri üç dəfə dəyişilib və hər üçü də qəhrəmancasına şəhid olub. Hər yeni təyin edilən komandir ilk növbədə Orxanın qisasını almağı qarşısına məqsəd qoyurdu. Onların hər biri çox böyük qəhrəmanlıqlar göstərib. Nəticədə Qubadlının kəndlərinin, düzünün və Qubadlıdan sonrakı kəndlərin azad edilməsində çox böyük hünərə imza atıblar.

– Sizin tabeliyinizdə olmuş belə əhəmiyyətli bir döyüşçü-kəşfiyyatçının şəhid olma xəbərini necə qarşıladınız?

– Əks-hücum əməliyyatının başlaması ilə mən də bilavasitə Orxan Əkbərovun istiqamətinə deyil, yəni əsas istiqamətdə olmaqla üç yarım istiqamətin üçünün də bölük post komandiri ilə birlikdə idarə edilməsinə qatılırdıq. Ən vacib cəbhə xətti yarıldı və Azərbaycan ordusunun ilk qələbəsi təmin edildi. Həmin istiqamətdə post komandiri ilə hücuma müdaxilə edərkən mən yaralandım. Sentyabrın 27-si, saat 15 radələrində yaralandım və məni döyüş meydanından çıxartdılar, təxliyə etdilər, nə baş verdiyini o qədər də xatırlamıram. Amma mən bir az özümə gələndə gördüm Füzuli rayon Mərkəzi Xəstəxanasında-

yam. Həkimlərdən öyrəndim ki, yaram o qədər də ağır deyil. Ona görə də sentyabrın 29-u yenidən, yaralı vəziyyətdə döyüşü idarə edə bilərəm düşüncəsi ilə, həkimlərin təkidinə baxmayaraq, döyüş mövqeyimə qayıtdım. Fikirləşdim, çox məlumatlı olduğuma görə kəşfiyyatçılara dəstək verərəm, dayaq olaram. Yenidən qayıtdım komanda məntəqəsinə və Orxan Əkbərovla danışdım. O, mənim müavinim olduğuna görə, bildirdim ki, "Mən döyüş meydanını sənin qədər görə bilməyəcəyəm və bu səbəbdən yalnız öz tabeliyində olanları yox, bütün kəşfiyyat bölmələrini idarə etməyə çalış". O, mənim müavinim, eyni vaxtda da kəşfiyyat taborunun komandiri idi. Orxan bu işin də öhdəsindən layiqincə gəldi. Oktyabrın 1-də mən özümə gəlmişdim və normal hərəkət də edə bilirdim, yəni artıq tam fəaliyyət göstərə bilərdim. Ona görə də Orxan Əkbərovun döyüşdüyü istiqamətə gəldim. Orxan Əkbərovu və onun ətrafında olan bir qrupu orada görmədim. Amma taborun bütün qrupları və digər kəşfiyyat bölmələri ilə görüşdüm. Başqa bir yerdə olan kəşfiyyat bölmələrini Orxangilə dəstək vermələri üçün təklif etdim və onları həmin əraziyə çağırdım. Orxan Əkbərovun şəhid olma xəbərini də elə orada eşitdim.

Mən Cəbrayıl rayonunun Şəybəy və Quycaq yaşayış məntəqələri istiqamətində olarkən məlumat verdilər ki, Orxan Əkbərov şəhid olub. Mən onsuz da yaralanmışdım, Orxan Əkbərovun şəhid olması xəbərindən sonra, sanki yenidən, özü də bu dəfə lap ağır yaralandım... Ona görə ki, Orxan Əkbərov həqiqətən çox bacarıqlı zabit idi, çox yaxşı komandir idi. O, öz bölməsini çox yaxşı idarə edirdi. Mənim yaralı olmağımı nəzərə alaraq, Orxan digər kəşfiyyat bölmələrini də çox böyük məharətlə idarə edirdi. Həm onun şəhid olması məni sarsıtdı, həm də fikirləşdim ki, döyüş gedə-gedə bu bölməni görəsən, kim

idarə edəcək, necə olacaq? İkinci ən böyük məsələ o idi ki, hamımız fikrə dalmışdıq ki, kimi tapacağıq ki, Orxanı əvəz edə bilsin. Düzdür, əvəzedilməz şəxs yoxdur, amma o, mənim üçün əvəzedilməz insana çevrilmişdi. Fikirləşirdim, bunu kim əvəz edə biləcək ki, yaralı olduğumu nəzərə alaraq, həm müavin kimi mənim işimi də görsün, həm də komandir kimi taboru idarə etsin. Sanki mən yenidən yaralandım. Hərbi hissə başsız qaldı və hardasa öz işini davam etdirə bilməyəcək kimi düşüncəyə gəldim.

Sonradan gördüm ki, yox, hərbi hissə öz işini davam etdirməlidir. O metoddan da istifadə edib, yəni mənim yoxluğumda da bölmə yaxşı fəaliyyət göstərməlidir.



Orxan bir yoldaş kimi də, bir komandir, bir zabit kimi də çox yaxşı təsir bağışlayırdı. Orxan kifayət qədər tabeliyində olan adamları sıxardı, amma zərurət yarananda onlarla zarafat da edərdi, onlara qayğı göstərərdi. Bu, onda elə bir adi vəziyyətə çevrilmişdi və tabeliyindəkilər Orxana yaxın dost olmuşdular. Tabeliyində olanlar açıq etiraf edirdilər ki, indiyə qədər belə yaxşı komandir görməmişik. Yəni, Orxanın həqiqətən çox yaxşı komandirliyi, yoldaşlığı var idi. Ona görə də Orxanın itkisi mənim çox böyük üzüntümə səbəb oldu.

Bu dərdlər o vaxtı heç kimə deyilə bilməzdi. Biz torpaqları işğaldan azad edirdik. Orduda belə bir fikir formalaşmışdı ki, biz silahsız da ermənin üstünə gedə bilərdik. Biz o fikirdəydik. Hərbi qulluqçular görürdü ki, döyüşçülər yaralı halda qaçıb hardasa gizlənmək yox, düşmənin üzərinə qışqıra-qışqıra gedib, onu parçalamaq fikri ilə şəhid olurdular. Yəni, normalda döyüş səhnəsində bunu görməyəndə adam onu təsəvvür edə bilməz və Orxanın şəhid olması həqiqətən kəşfiyyatda böyük bir itki oldu. Xüsusən də nəzərə alsaq ki, Orxan ikinci korpusda kəşfiyyatın ikinci adamıydı, onda bu itkinin nə qədər təsirli olduğunu hiss edərik. Orxandan sonra onun bölməsinin bir az toparlanıb yenidən döyüşə atılması bir az zaman aldı və yenidən onun adını qoruyaraq, qisasını almaq fikriylə döyüşü qələbəyə qədər davam etdirdilər. Mən özüm qalan döyüşlər zamanı daha iki dəfə yaralandım. Gördüyünüz kimi, taleyin lütfündən sağ qaldım.

– Doğrudan da Allah sizi qoruyub. Elə yaralı-yaralı yenidən döyüşlərə qatılmağınız əsl qəhrəmanlıqdır. Bu

və döyüşlərdə göstərdiyiniz digər şücaətlərə gərə Ali Baş Komandan, Prezident cənab İlham Əliyev tərəfindən Siz özünüz də ən ali mükafata – Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüsünüz.

– Bizim 2-ci Korpusun istiqamətində bütün bölmələr döyüş əməliyyatlarının hamısında iştirak edib. Kəşfiyyat bölmələri çox yüksək döyüş bacarığı nümayiş etdirib. Onların xidmətini Ordu korpusunun komandiri və daha yüksək vəzifəli şəxslər də qiymətləndirib. Təkcə əlahiddə kəşfiyyat taborunun yox, məsələn, 181 nömrəli hərbi hissənin kəşfiyyat bölüyü də əvvəl Orxana tabe olub və döyüşlərdə böyük şücaət göstəriblər. Orxanla mənim və digər zabitlərlə birlikdə döyüş tapşırıqlarının yüksək səviyyədə yerinə yetirilməsi üçün yetişdirdiyimiz kəşfiyyat bölmələri həqiqətən çox böyük uğura imza atıblar. Nəticə olaraq da kəşfiyyatın rəisi və kəşfiyyatın ən böyük taborunun komandiri, yəni mən və Orxan Əkbərov Ali Baş Komandan tərəfindən Vətən Müharibəsi Qəhrəmanı kimi fəxri adla qiymətləndirildik. Bu fəxri ad bütün kəşfiyyatçılara verilən qiymət deməkdir. Kəşfiyyatçılardan şəhidlərimiz də, yaralılarımız da oldu. Biz məhz bu şəhidlərin, bu qazilərin və sağ qalan veteranların sayəsində göstərdik ki, kəşfiyyat nədir, kəşfiyyatçı kimdir, kəşfiyyatçı necə olmalıdır?

İkinci korpusun komandiri, general Mais Bərxudarovun özü də döyüşlərdə göstərdiyi şücaətlərə görə bir çox orden və medallarla yanaşı, Ali Baş Komandan tərəfindən Vətən Müharibəsi Qəhrəmanı kimi yüksək

adla mükafatlandırılıb. Vətən müharibəsində ikinci korpusun bütün şəxsi heyətinin çox böyük əməyi, çox böyük uğuru var. Qələbəmizdə əsas pay sahiblərindən biri də 2-ci korpusdur, korpusun da əsas gücü kəşfiyyat idi. Çünki bütün bölmələri döyüşlərdə uğurla fəaliyyət göstərib. Elə bu amilə görə də kəşfiyyatçılardan iki nəfər ən ali mükafata – Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Mən Orxan haqqında birinci dəfədir bəlkə də belə sərbəst danışıram. Orxan haqqında heç vaxt belə sərbəst danışa bilməmişəm. Hətta Orxan Əkbərovun məzarını ziyarət edərkən çalışıram ya tək gedim, ya da 2-3 kəşfiyyatçıyla. Dəfələrlə gedib ziyarət eləmişəm. Amma heç bir tədbir vaxtı gedib iştirak etməmişəm. Düşünürəm, mən tədbir vaxtı gedib orda iştirak edə bilmərəm, çox təsirlənərəm... Amma çox təəssüflənirəm ki, Orxan Əkbərov kaş şəhid olmayaydı, biz müharibənin axırına qədər gedəydik və qələbəni görəydi. Bizim kimi qələbənin sevincini yaşayaydı, bunlar insana tamam ayrı bir zövq verir. İkimiz bir yerdə döyüşü axıra qədər aparmış olsaydıq, mən düşünürəm ki, meydanda fərqli döyüşlər nümayiş etdirərdik. Bu həqiqətdir, bunu mən bəlkə də söz ilə heç kimə isbat edə bilmərəm.

Orxan Əkbərovla həqiqətən sözümüz, fəaliyyətimiz üst-üstə düşməklə, eyni zamanda həm yoldaş, həm rəhbərlik davranışını müsbət şəkildə təşkil edə bilirdik. Məsələn, bir məsələ barədə qiymətləndirmə aparardıq ki, bu, necə olmalıdır? Deyirdim, Orxan, sən bunu necə edərdin? Mən belə fikirləşirəm, sən

necə fikirləşirsən? Sonra məlum olurdu ki, məntiqlə ikimiz də eyni cür fikirləşmişik. Amma Orxanla kaş Cəbrayıldan sonra da döyüş yolumuzu bir yerdə davam etdirəydik. Neyləyək, Allahın işidir, qismət belə imiş. Allah rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin və veteranlarımızın da ömrü uzun olsun.

– Cənab polkovnik, sizə bir daha çox böyük təşəkkür edirəm, Orxan Əkbərov haqqında doğrudan da gözəl xatirələr danışdınız. Bir daha məlum oldu ki, Orxan Əkbərov da, Siz də bizim gözümüzdə elə adınıza layiq qəhrəmansınız. Allah sizin kimi qəhrəman oğullarımızı qorusun!

– Sağ olun!

Elçin Məmmədli





Toğrul Şamxalov,
Vətən Müharibəsi Qəhrəmanı, polkovnik:

– Toğrul müəllim, çox istəyirdim Sizinlə Şuşada görüşək. Qismət Bakıda oldu... Azərbaycanın Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovla həm döyüşdə, həm də hərbi xidmət dövründə dostluq münasibətində olduğunuzu dedilər. Onu necə xatırlaya bilərsiniz? Böyük ustad Bəxtiyar Vahabzadənin bir sözü var: "İnsan göydə ay kimidir, görünməyən tərəfi var!" Qəhrəmanlar da elə... Onların da görünməyən tərəfləri olur. Həyatda olduqca sakit bir insan döyüş anında qəhrəmana çevrilə bilir... Orxan Əkbərovun görünməyən tərəfi nə idi?

– Mən 2017-ci ildən 2-ci Ordu Korpusunun Hərbi əks-kəşfiyyat üzrə şöbə rəisinin müavini, sonra rəisi oldum. Bundan əvvəl 181-ci hərbi hissənin rəisi olmuşdum. Orxan Əkbərov əvvəl mənimlə eyni hissədə xidmət etmişdi, sonra keçmişdi 181-ə. Düzü, orda onun haqqında çox eşitmişdim ki, xətir-hörməti var, peşəkar zabitdir... Mən belə zabitləri həmişə yüksək qiymətləndirmişəm. 2-ci Ordu Korpusunun rəisi idim. Bir gün general Mais Bərxudarov 2-ci Ordu Korpusuna namizədləri seçirdi. Dedi ki, Orxanı 218-ci hərbi hissəyə təyin etmək istəyirəm. Mənim o vaxt Orxanla elə də yaxın münasibətim yox idi. O zaman 218-də bəzi problemlər var idi, cənab general istəyirdi ki, orda vəziyyət dəyişsin, problem aradan qaldırılsın. Dedi, Orxan ciddi zabitdir, istəyirəm oranı düzəltsin. Dedim, cənab general, mən Orxanı qiyabi tanıyıram, yaxın münasibətim yoxdur, amma eşitmişəm ki, əla komandirdir. Beləliklə, Orxan 218-ə komandir təyin edildi. İlk dəfə bu təyinatdan sonra yaxından görüşdük. Bilirsiniz, yaxından tanış olub görüşəndə insanın səmimiliyi dərhal bilinir. Gördüm ki, o, qeyri-adi bir insandır. Həm çox şən, gülərüz, həm də qorxusuz insandır. Allah haqqı, onun elə bir cəsarəti var idi, sözlə ifadə etmək mənim üçün çox çətindir. Bir var insan gözünü yumub dəlilikdən, bir də var ağıllı şəkildə inanılmaz cəsarətə imza atır... O, ağıllı və cəsur zabit idi.


Mən Hərbi əks-kəşfiyyatda idim, bütün hərbi hissə komandirləri ilə təmasda olurdum, məxfi işimiz olurdu. Orxanın cəsarətli, inanılmaz risklərini eşidəndə, yaxud görəndə dəli olurdum ki, o, bunu necə edə bilir??? O bilirdi ki, bu əməliyyatda ölüm var, amma bunu düşünmürdü. Bilirdi ki, burda dövlətin tapşırığı var, vəssalam! Ölümün üstünə gedən adama nə deyəsən?! Dəfələrlə şa-

hidəm, ölümün üstünə gedirdi. Hansı ki, o riski başqa kimsə etməzdi. Onunla belə məsələlərdə mübahisələrimiz olurdu, ciddi mübahisə edirdik. Amma görürdüm ki, o, xarakterdi, başqa cür ola bilməzdi... Və biz ailəvi dost olduq. İmkan olduqca onu evimizə aparırdım. Atamla yaxın dost olmuşdular.

Kaş bircə dəfə onunla təmasda olaydınız, görərdiniz ki, Orxan necə səmimi və zarafatcıl idi. Ən kədərli vaxtında onun bir-iki sözü səni o vəziyyətdən çıxarardı. Qeyri-adiliyi vardı. Xidmətində son dərəcə ciddi idi. Biz informasiya mübadiləsi edirdik. Məsələn, mən əldə etdiyim məlumatı ona deyirdim və bildirirdim ki, səndə belə bir problemli hərbçi var, onunla "işləmək" lazımdır. Orxan deyilən məlumatın kökünə qədər gedib aydınlaşdırırdı. O adamı islah etməyənədək əl çəkmirdi. Yəni, dərhal cəza tətbiq etmək olardı, amma bunu etmirdi... Bununla belə, onun daxilində güclü bir yumşaqlıq, zarafatcıllıq, yumor hissi var idi. Məsələn, axşam saat 11-12-dək işləyirdik. Deyirdim, Orxan, yorulmuşam, gəl bir çay içək. Ayın azı 10 gününü gedirdim yanına, çay içib söhbət edirdik, deyib-gülürdük. O, həm idmançı, peşəkar zabit idi, həm də adi və sadə bir insan! İnanmaq olmurdu ki, o sərtliyin sonunda qarşında belə bir səmimi və sadə insan dayanıb...

Cəsarətinə söz ola bilməzdi. Məsələn, bir dəfə bizim ermənilərə qarşı bir məxfi əməliyyatımız oldu. Ermənilər bizi atəşə tutdu. Orxan bunu bildi. Mənə dedi ki, sən niyə ora getmisən? Dedim, komandanlığın tapşırığı idi... Dedi, bir də elə əməliyyata getsən, mənə de, sənə atəş dəstəyi verim... Dedim, sən bu işin mahiyyətini dərk edirsən? Dedi, sən məni uşaq bilirsən? Deyirəm, Orxan, sən əlinə qanunsuz olaraq silah alıb karyeranı zərbə altına

qoyaraq mənimlə gedərsən, atəş açacaqsan??? Deməli, hələ 3-4 zabit də götürüb mənə atəş dəstəyi verəcəksən? Başa saldım ki, rəhbərlik bilər, sənin başın ağrıyar. Deyir, bunu sənə görə etməyib kimə etməliyəm?! Təsəvvür edirsinizmi, bu adam dostuna görə həyatını belə qurban verməyə hazır idi...





– Çox maraqlı dostluq münasibətiniz olub…

– Rəhmətliklə atamın ad günündə oturduq… Söhbət elədik, işğal olunmuş ərazilərdən danışdıq. Atamın ad günü 2019-da sentyabrın 29-da idi, müharibədən bir il əvvəl. Bizdə yığışmışdıq. Zabit dostlarımız gəlmişdi. Orxan çıxış elədi, dedi, müharibə başlayacaq tezliklə, siz Şuşaya çatacaqsınız, mən Füzulidə şəhid olacağam… İnanın, məni gülmək tutdu, dedim, Orxan, sən elə psixologiyaya köklənmə, sən niyə şəhid olmalısan? Qoy müharibə başlasın, baxarıq kim birinci şəhid olacaq… Dedi, Toğrul, yox, siz Şuşanı görəcəksiniz, amma bilirəm ki, mən görməyəcəyəm.

Allaha and olsun, hamı onun bu sözlərinə bir az da güldü, zarafat elədik ki, bu nə danışır???

– Ermənilərin əlindən gör nə qədər yığıbmış…

– İnsanların xasiyyətində təzadlar ola bilir. Cəsarət və yalançılıq, qorxaqlıq… Onun içindəki sərtlik ilə mülayimliyi arasında bir təzad var idi. Bəzən hərbi hissədə elə nərə çəkirdi ki, yer-göy titrəyirdi. Əsgərlər qaçıb gizlənirdi ki, Orxan Əkbərov əsəbiləşib, nəsə düzgün iş görülməyib və s. Bir dəqiqədən sonra isə onun elə bir mülayimliyini görürdük, təəccüblü idi. Hamı öz atası, komandiri, qardaşı kimi onun başına toplaşırdı. Bilirdilər ki, o, düz edir… Rəhbərlik də onun bu xarakterini bəyənirdi. Məsələn, biz Müdafiə Nazirliyinin strukturlarına nəzarət edən qurum idik. Mən rəis idim, hər bir hərbi hissədə kuratorlarımız var idi. Hamısı Orxanın xətrini dağlar qədər istəyirdi. Adətən bizim strukturla hərbçilər yola getmir. Amma onun elə bir xarakteri var idi, kim onun yanına gedirdi, narazı qala bilməzdi.

O, xarakter idi. Hamı istəyirdi onunla dostluq eləsin… Döyüş dostlarım arasında çoxsaylı istəklilərim var

idi. Onların arasında neçəsi şəhid olub. Amma Orxanı unuda bilmirəm. O, oktyabrın 6-sı şəhid olmuşdur. Mənim Qurban adında bir qohumum vardı, ayın 5-də şəhid olmuşdu. Neytraldan meyitini çıxarmışdılar, cənazəsini gətirməli idilər. Atam dedi, gəl, aparıb dəfn edək. Döyüşün qızğın vaxtı idi. Orxandan səhər-səhər zəng gəldi… Dedim, qaqa, necəsən? Həmin vaxtlarda o, düşmənin arxasına keçərək xeyli ermənini və onların döyüş sursatını darmadağın etmişdi. Hansı ki, həmin əməliyyata o getməməli idi, döyüşçüləri göndərib əməliyyata rəhbərlik etməli idi…

– Mən anası Sevil xanımla görüşəndə telefonunda şəhid olduqları anı gördüm…

– Hə, orda da şəxsi heyəti sola buraxıb düşmənlə döyüşə girmişdi, snayperlə vurulmuşdu… Və mənimlə danışanda dedim, Orxan, hərəkətin təqdirəlayiqdir, Vətən üçündür, amma özün getmə. Komandanlıq elə, özünü odun içinə vurursan. Hətta ona dedim ki, müharibədi, sən bizə lazımsan, ehtiyatlı ol, səninlə bağlı narahat yuxu görmüşəm… Qorxmaz idi, bu qorxmazlıq onu irəli aparırdı, güllə qabağına verirdi. Allah haqqı, mən hiss etmişdim ki, o, şəhid olacaq. Çünki özünü güllənin qabağına verirdi. Qohumların yanında sərt danışa bilmirdim, kənara çəkilib onunla bir də ətraflı danışdım. Təkrarən dedim, Orxan, qurban olum, ehtiyatlı ol… O, təxminən iki dəqiqə məni sakitcə dinlədi… Soruşdum ki, elə-belə zəng etmişdin? Dedi, hə, zəng etdim ki, səsini eşidim… Həmin vaxtlarda ermənilərin müqaviməti hələ tam qırılmamışdı. Orxanın isə tapşırıq əməliyyatı çox çətin və mürəkkəb idi. O, bir neçə bölmə ilə getdi və üstündən

3-4 saat keçdi, mən həmin ərazi üzrə rəis idim, mənə zəng gəldi. Dedilər ki, Orxana zəng çatmır... İnanmaq istəmirdim ki, şəhid ola bilər. Dedim, ola bilər düşmən arxasındadır deyə, telefonun "zaryadka"sı bitib, yəqin tezliklə əlaqə saxlayar. Özüm ratsiya aparatına, telefonuna zəng çaldım, gördüm həqiqətən də zəng çatmır. Komandirə – general Mais Bərxudarova zəng vurdum, dedim, Orxana zəng çatmır, deyəsən, şəhid olub... Qardaşı Ənvər ilə danışdım. Müharibənin elə vaxtı idi ki, mən Ənvərlə gedə bilmədim...

– Şəhid olması barədə məlumatınız necə idi?

– Orxan döyüşçüləri ilə düşmənin arxasına keçmişdi və düşməni ağır itkilərə məruz qoymuşdu... O, bilib ki, pusquya düşə biləcək, bütün şəxsi heyətini sola buraxıb özü bir neçə zabitlə başqa səmtə çıxmaq istəmişdir, bu zaman qarşıda gizlənmiş 20-dək snayperin güllələsinə tuş gəlmişdilər... Yanında da dostları idi. O necə adam idi, deyim sizə: əvvəllər müharibə barədə elə-belə danışırdıq. Dedim, Orxan, pensiya vaxtındır, gəl çıx pensiyaya, dostum var, işə götürər, 2-3 min maaş alacaqsan... Başını yırğaladı, dedi: "Yox, mən neçə ildir müharibəyə görə qalmışam. Müharibənin iyi gəlir, tezliklə olmalıdır... Mən indi pensiyaya çıxsam, deyəcəklər, yəqin nəsə bilirdi deyə aradan çıxdı... Və general Mais Bərxudarov da deyəcək, bu da bizim Orxan, müharibə başlayır deyə, Orxan aradan çıxdı..." O, birbaş dedi ki, müharibə başlasın, mən onu gözləyirəm, sonra baxarıq...

Bilirsiniz, o vaxt Prezident İlham Əliyevin danışıqları, komandirlərin xüsusi tapşırıqları və s. onun əlaməti idi ki, müharibə tezliklə başlamalıdır, çünki ermənilər təxribatlar törədirdilər. Orxan da bunu hiss edirdi. O,

əsl qəhrəman idi! Dostlarım arasında 4-5 Vətən Müharibəsi Qəhrəmanı var, mən də Vətən Müharibəsi Qəhrəmanıyam, yəni hərənin öz xidməti olub. Amma Orxanın etdiyini heç kim edə bilməyib. Qəhrəmanlıq – etdiyini edib geri dönməməkdir! Orxan bilirdi ki, bu müharibədə elə bir düşmənlə üz-üzəyik ki, burda Vətənə can qurban məsələsidir! Anası Sevil xanımın üzünə baxa bilmirəm! Biz bəlkə də Orxanı qoruya, o risklərdən çəkindirə bilmədik... Amma o da hara getdiyini gözəl bilirdi...

– Şeyx Şamilin bir sözü var: "Aqibətini düşünən əsgərdən igid çıxmaz!"

– Bəli, Orxan aqibətini düşünməyib. O, Vətəni düşünürdü, özünü yox... Orxanla şəhid olanlardan biri onun qərargah rəisidir, biri siyasi məsələlər üzrə komandir müavini və özünün radistidir, giziri var, biri də odur. Bütün idarə heyəti yanındadır. Onları özü aparmayıb, elə son anda o birilər onu tək buraxmayıb. Yəni, özü də, ətrafı da canavar kimi idi, əsl qəhrəmanlar idilər. General Mais Bərxudarov igid və cəsur döyüşçüdür, igid komandirdir. Mən onunla döyüş yoldaşı olduğumdan qürur duyuram, fəxr edirəm. Mais müəllim bir igid döyüşçümüz Şükür şəhid olanda doluxsundu, bir də Orxan şəhid olanda dəhşətli dərəcədə pis olmuşdu. "Orxan bizim müharibənin kisəsindən getdi", – deyirdi...

– Amma onun qanı yerdə qalmadı, qisası yüz qat alındı...

– Bəli, düşmən layiqli cavabını aldı, özü də artıqlaması ilə... Orxanın meyiti gəlməyənədək elə bilirdim ki, o sağdır. Ölməli oğlan deyildi... İşğalda olan torpaqlarımız məhz cənab Prezident İlham Əliyevin sərkərdəliyi altında, Orxan Əkbərov kimi oğullarımızın şəhidliyi ilə azad

edildi. Müharibədir, çətin məqama düşən və yaxın dostlarını, əsgərlərini itirən komandirlərin necə təsirləndiyini görmüşəm. Çünki özüm də döyüşün ən gərgin məqamlarında olmuşam, döyüşçü kimi. Amma Orxanın ən çətin məqamda belə ölümün gözünə düz baxdığının şahidi olmuşam. Hətta psixoloji məqamlara tab gətirməyənlərə Orxanın sözü bu idi ki, Vətən anadır, biz ana-bacımızı, ailəmizi qoruyuruq, bu yolda öldürməli, lazım gəlsə, ölməliyik də. Üç min şəhidin hamısı baş tacımızdır, amma Orxan hər yerdə öndə idi. Allah haqqı, bunu onunla olan münasibətə və ya bu müsahibəyə görə demirəm. Orxan ləyaqətini sonadək qorumağı bacaran, döyüşkən komandir idi…

Mən iki yaxın qohumu şəhid vermişəm, ikisi də Füzulidəndir, mənim qucağımda böyüyüblər. Eyni akademiyanı bitirmişdilər və mən onların hərbi xidmətdə rəisi olmuşam. Hansı ki, mən onları daha rahat hərbi hissəyə göndərə bilərdim və s. Amma müharibədə hamı Vətən əsgəridir. Onlar döyüş bölgəsində döyüşüb şəhid oldular. Orxanın ölümü məni daha çox yandırdı. Orxanı bütün Ordumuz itirdi. Onun kimi qorxmaz və hərtərəfli peşəkar zabit bəlkə də azdır. Onun yeri həmişə görünəcək. Mən beş il Hərbi əks-kəşfiyyatda olmuşam. Hərbçilərlə ünsiyyətim və onların fəaliyyətini qiymətləndirmə baxımından imkanım daha çox idi. Mən açıq deyim, Orxan kimi zabitləri az görmüşəm.

Müharibə başlamağa sanılı günlər vardı. Orxan dedi, maşın göndərim, gəl uşaqları ikimiz də göndərək döyüş bölgəsindən aralıya – bizə, Biləsuvara, evimiz çox böyükdür. Sən çıxma… Dedim, Orxan, bizim həyət elədir ki, səkkiz ailə yaşayır. Yerli adamlardır, mənim ora köçməyim xidmətlə bağlıdır. Onların hamısının gözü mənim

qapımdadır, görsələr mən uşaqları apardım, o ətrafda bir adam qalmaz. Yəni, mənə yaraşmaz. Dedi, "Yox ey, Böyük Vətən Müharibəsi illərində də mülki əhalinin əl-ayağa dolaşanını təhlükəsiz əraziyə köçürürdülər. Burda nə var ki! Sürücüm gecə ikən aparıb düşürüb gələcək…" Evimiz "N" saylı hərbi hissənin yanı idi, ermənilər oranı mütləq qaydada vura bilərdi… Sonra maraqlı söhbət etdi, zarafata saldı, amma mən razı olmadım… Yəni, Orxan müharibə qanunları ilə düz deyirdi, amma mən də kəşfiyyatçı kimi bildirdim ki, ölürüksə, burda öləcəyik, təki əhali psixoloji həyəcan keçirməsin. O, dost kimi ailəmin qayğısına qaldığını belə ifadə edirdi…



Onun aurası elə idi ki, ən dilxor vaxtımda belə, gedirdim onun yanına. Təvazökarlıqdan uzaq, bütün hərbi hissə komandirləri istəyərdi ki, mənimlə oturub-dursunlar, çay içsinlər. Amma mən yalnız Orxanla yaxın olurdum, az qala iki gündənbir özüm onun yanına gedirdim… Atam da onu çox sevirdi. Atam onun şəhidliyini eşidəndə elə köv-rəldi ki! Özünə gələ bilmirdi. Təkcə Sevil xalagilin deyil, həm də özümüzün ailəmizə bir itki idi Orxan.

Onu da deyim, Orxan hər riskə gedən idi. Ölümün də üstünə birbaşa getdi və şəhid oldu. O, sözün böyük mənasında bir cəsur KİŞİ idi! Orxan bir məktəb qoyub getdi. Cəsarətlilik, mərdlik, şəhidlik məktəbi. Ondan sonra neçə-neçə oğullarımız o yolun davamçıları olacaq. Siz də sağ olun ki, o cür qəhrəmanlığı tarixə yazırsınız. Allah haqqı, mən sizə bəzi şeyi sözlə ifadə edə bilmirəm…

– Mən sizi başa düşürəm…

– Evdə bir problem olanda dilxor olardı. Bilirdim ki, ailədə nəsə olub… O qədər yaxın idik ki, zəng edirdim Sevil xalaya, anasına, danışırdım… Bu anda Orxan tamamilə başqa adam olurdu. Mən hər bir insanın valideynə münasibəti ilə onun kimliyini müəyyən edə bilirəm. Orxanın valideynlərinə qarşı münasibəti səmimi idi. Belə insanların qəlbi təmiz olur. Sevil xalaya Qurban bayramında zəng etdim, bayramdı da, necə təbrik etməyəm?! O qədər ağladı, deyir, Orxandan sonra bizim bayramımız yoxdur… Bizim ailə üçün də elədir, inanın…

– Bilirsiz, 30 il işğalda qalan torpaq belə oğulların şəhidliyi və qəhrəmanlığı ilə Vətən oldu…

– Bəli… Xocalıdan, işğalda qalmış yurdlarımızdan söhbət düşəndə Orxan havalanırdı. İnanın, neçə dəfə

istəyirdi icazəsiz hücum edib qisasını alsın, deyirdim ki, səhv etmə, Ali Baş Komandanın əmri olanda gedərik… Allah Prezidentimizin canını sağ eləsin, tarix yazıldı. Bizim başımız indi dikdir. Orxan bilirdi ki, getdiyi yolda öləcək, amma getdi. 30 illik qisası almaq üçün getmişdi. Getdi və qayıtmadı.

– Allah torpağı vətən edən şəhidlərimizə rəhmət, qazilərimizə, döyüşçülərimizə can sağlığı versin!

– Bu müharibədə xalqın tamlığı oldu… Oktyabrın 19-da dostum Polad Rzayev minaya düşdü, ayağının ikisini də itirdi. Yanımızda şəhid olan, yaralanan çox oldu. Ermənilər bütün gücü ilə qarşımıza çıxmışdı. Hücum edən çox itki verə bilir, bu müharibənin qaydasıdır… Çox pis müqavimətə rast gəldik. Biz Ağasultanlıya çatmışdıq, sonra Mahmudlu, Qubadlı idi. Qubadlıya lap az qalmışdı. Bu zaman dostum mənə mesaj yazdı ki, vəziyyət necədir, yazdım ki, şəhid olmaq istəyirəm… Yəni, ona hiss etdirmədim, amma hiss edirdim ki, hər an mərmi, yaxud raket zərbəsi qaçılmazdır… 20-30 metrliyimizdə isə güllə yağış kimi yağırdı. Deyirdim, ay Allah, qarşıma təkbətək çıxa ermənilər, durub onların hamısını qıram və məsələ bitsin! Hava da çox soyuq və yağmurlu idi. Yolda bizə bir maşın gəlib çatdı. Mais Bərxudarov mənə bir papaq verdi. Özümünkü islanmış, çirklənmişdi. Bir də əlcək verdi...

Səhər saat 6 olardı. Soyuq sümüyə işləyirdi… Papağı başıma qoyanda gördüm içində bir kağız var. Oxudum. Bir məktəbli uşağın əl yazılı məktubu vardı. O vaxt məktəblilərdən əsgərlərə məktublar gələrdi. Yazmışdı ki, "Əsgər, biz səninləyik, möhkəm ol!" İndi də yadıma

düşəndə tüklərim biz-biz olur. Elə bil mənə güc gəldi, ani olaraq öz-özümə dedim ki, axı mən niyə şəhid olmalıyam? Mən düşməni öldürüb Qubadlıya, ordan da Şuşaya çatmalı, bayrağımızı ora sancmalıyam. Əmr belə idi… Elə də oldu. Və hərdən belə çətin məqamlarda Prezidentin məlum çıxışlarını açıb baxırdım və mənə güc gəlirdi, özümü daha güclü bilirdim. Müharibədə hər bir belə an bizə ruh verirdi. Orxan kimi şəhidlərin sayəsində Vətən qələbə çaldı. Orxan kimi şəhidlər əbədiyaşardır. Biz hamımız Allahın verdiyi ömrü yaşayıb ölüb gedəcəyik. Amma şəhidlər əbədiyaşardır! Nə qədər ki, Vətənimiz, Azərbaycanımız, xalqımız var, onlar ürəklərdə əbədi yaşayacaq. Siz də sağ olun ki, o qəhrəmanların adını əbədiləşdirməkdə dəstək olursunuz…

Asif Mərzili





Ənvər Əkbərov,
Müdafiə Nazirliyinin mayoru
(Orxan Əkbərovun qardaşı):

Ənvər Əkbərov: "Orxanın döyüşünü həm rabitə ilə, həm də havadan təyyarələr vasitəsilə izləyirdim"

Qısa arayış: Ənvər Əkbərov "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

– Siz Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant şəhid Orxan Əkbərovun qardaşısınız. Nəinki qardaşı, həm də hərbçi kimi döyüş yoldaşınız. Eyni cəbhədə olmasa da, ayrı-ayrı cəbhələrdə birgə döyüş əməliyyatlarında iştirak etmisiniz. Ona görə də Sizin üçün danışmaq bilirəm həm asan, həm də çətindir. Asandır ona görə ki, Siz o döyüşü görmüsünüz. Çətindir ona görə ki, Siz qardaş itirmisiniz, bir qəhrəman itirmisiniz. Şəhid də ki, bizim hamımızındır. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Əvvəlcə Orxanın necə hərbçi olmağından danışardınız. O da maraqlıdır ki, siz də hərbçisiniz. Necə oldu ki, ikiniz də hərbçi oldunuz? Bunları bilmək istəyərdim.

– Ümumiyyətlə, mənim hərbiyə getmək həvəsim, marağım Orxanla bağlıdır. Orxan məndən iki il əvvəl, məktəbi bitirdikdən sonra H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə 2000-ci ildə qəbul oldu. Onda mən məktəbdə 10-cu sinifdə oxuyurdum. Orxan hərdən evə gələndə əynindəki formanın ona necə yaraşdığını görməyim məndə hərbiyə maraq, o sahəyə həvəs yaratdı. 2002-ci ildə mən də həmin hərbi məktəbə qəbul oldum. Birlikdə təhsilimizi davam etdirdik. 2004-cü ildə Orxan məktəbi bitirdi. 2004-2005-ci illərdə Azərbaycan Respublikası H.Əliyev adına Ali Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində birillik təkmilləşdirmə kursu keçdikdən sonra Orxan "N" saylı hərbi hissəyə – Füzuli istiqamətində xidmətini davam etdirmək üçün getdi. Mən də 2006-cı ildə məktəbi bitirdim. Və eyni qaydada 2007-ci ildə Təlim-Tədris Mərkəzini bitirdikdən sonra Naftalan istiqamətində yerləşən "N" saylı hərbi hissəyə xidmətimi davam etdirməyə getdim. Mütəmadi olaraq telefonla əlaqə saxlayırdıq, bir-birimizin

xidməti ilə maraqlanırdıq. Nə çətinliyim olanda Orxandan müəyyən tövsiyələr, məlumatlar alırdım, mənəvi dəstək olurdu. 2016-cı ilin Aprel döyüşlərində Orxan "N" saylı hərbi hissənin kəşfiyyat üzrə rəisi idi. Ümumiyyətlə, Orxan hansı hərbi hissədə olubsa, kəşfiyyatın rəisi kimi hörmət və nüfuz qazanıb. Son il yarımda da belə deyək ki, hərbi hissə komandiri kimi fəaliyyət göstərmişdir. Orxan harada kəşfiyyat bölməsinin komandiri və ya rəisi olmuşdursa, həqiqətən də onun bölmələri, həmişə seçilib, fərqlənmişdir. İstər fiziki hazırlığı, dözümlüyü, savadı, istərsə də intuisiyası, bacarığı ilə Orxan əsl kəşfiyyatçılardan sayılırdı. Orxanın keçidləri, yəni düşmənin arxasına keçib əldə etdiyi mühüm kəşfiyyat məlumatları saysız-hesabsızdır. Orxan demək olar ki, bütün keçidlərdə özü iştirak edib. Heç vaxt kəşfiyyata göndəriləcək və ya aparılacaq qrupu tək qoymazdı. Onun özündə məsuliyyət, eyni zamanda vətənpərvərlik hissi var idi ki, əməliyyatlarda şəxsən iştirak etsin... Orxan 20 ildən artıq xidmətinin 15 ilini ön xətdə keçib. 15 il ön xətdə xidmətdə olmaq asan məsələ deyil. 15 il ön xətdə, birbaşa səngərdə yaşamaq, bunu ancaq səngər həyatını yaşayan insanlar, o həyatın ağrı-acısını, riskini, həyatının hər an tükdən asılı olduğunu yaşayan insanlar, hərbçilər bilər.

"2020-ci ildə müharibənin başlayacağını biz əvvəlcədən bilirdik"

– Qardaşı olaraq, bir hərbçi kimi deyərdin, Orxanın müharibə ilə bağlı fikirləri necə idi?

– Orxan döyüşdən altı ay qabaq qruplarını ayırmışdı. Biz hər zaman bölmələrimizi yüksək döyüş hazırlığı səviyyəsində saxlayırıq ki, döyüşün nə vaxt başlayacağını

heç kəs deyə bilməz. Orxan şərti olaraq düşmən postlarını da yaratmışdı. Beyləqanın Dünyamalılar deyilən bir kəndi var. Orada döyüş məşqləri keçirdi. Mən pilotsuz uçan kəşfiyyat dronlarından ibarət dəstənin komandiri idim. Komandiri olduğum dəstəni hazırlamışdım. Hiss olunurdu ki, cənab Ali Baş Komandanın artıq səbri tükənmişdir. Düşmənin kiçik və tez-tez törətdiyi təxribatlar artıq müharibənin başlanmasına zəmin yaratmışdı. Biz də hazırlığımızı gücləndirmişdik. Hər axşam görüşüb, fikirlərimizi bölüşürdük.

"Hərbçi olduğumuz üçün danışdığımız mövzular da hərbi ilə əlaqədar olurdu"

Sentyabrın 25-də mən artıq qruplarımı düzərkən Füzulinin Arayatlı kəndindən Qarqara kimi elə birinci qrupu yerləşdirmişdim. Orxana zəng elədim, görüşdük. Ratsiya nömrələrimiz, çətinlik olarsa, əlaqə saxlamaq üçün bir-birimizdə var idi. Sentyabrın 27-si məlum olan vaxtda döyüş əməliyyatları başladı. Orxanın döyüşünü həm rabitə ilə, həm də havadan dronlarla izləyirdim.

– Sizin ixtisasınız nə idi?

– Pilotsuz hava kəşfiyyat təyyarələrinin dəstə komandiriyəm. Hansı ki, döyüş zamanı fəaliyyət göstərən bütün "dron"ların məsuliyyətini mən daşıyırdım. Qrupları lazım olan qoşun bölmələrinə mən bölmüşdüm. Təchizatı, onların topladığı analizlərin vaxtında lazımi hərbi hissələrin qərargahlarına çatdırılması və digər bu kimi işlərlə məşğul idim. Yuxarı rəhbərlik tərəfindən göstərilən qaydada, on iki-on üç qrup artıq bu istiqamətlər üzrə bölünmüşdü. İki istiqaməti dinləmək və izləmək qabiliyyə-

tində idim. Orxan sol istiqamətdə idi. Orxan ratsiyada öz ləqəbini, yəni "Ulduzlar" adını özü seçmişdi. Bu adı bir rus kinosunda olan "Zvezdo" sözündən götürmüşdü. Bütün çağırış qruplarının adları "ulduzlar" idi. "Ulduzlar"ın adı 21-ə kimi gedib çıxırdı. Bu, o demək idi ki, Orxanın tabeliyində 20 kəşfiyyat qrupu var idi.

Heç yadımdan çıxmır: ayın 29-u kənd Horadizin qarşısındakı meşə istiqamətində Orxangil düşmənin xüsusi təyinatlı bölməsi ilə qabaq-qabağa gəldilər. Orada mənə zəng edərək havadan kömək lazım olduğunu bildirdi. Həmin vaxt bizim "iti qovan"larımız, yəni bizim, belə deyək, komikadzemiz tamam başqa istiqamətdə idi. Biz onları yönləndirə bilmirdik. Həmin vaxt mən Orxanın yaxın bir dostu vardı, hansı ki, o da mənim kimi, eyni qaydada həmin işlə məşğuldur. Dərhal ona məlumat və koordinatları verdim. Onun vasitəsilə Orxangilin qarşısında olan düşmənin iki zirehli texnikası vuruldu. Düşmənin qalan qüvvələrini isə Orxangil darmadağın etdi. Oradan düşmənin çoxlu sayda silah-sursatı qənimət olaraq götürüldü. Ermənilərin silah dolu iki "Ural" maşını biz tərəfə keçirildi. Döyüşün ilk günündə Orxanın rəhbərlik etdiyi hərbi hissə ön xətdə yerləşən Füzuli istiqamətində bütün postların alınmasında fəal iştirak etdi, düşmənin iki bölməsini sıradan çıxartdı. Döyüşün birinci həftəsinə kimi bizim Xüsusi Təyinatlı Qüvvələr Kəlbəcər istiqamətində döyüşdüyü üçün, Füzuli istiqamətində əsas döyüşü ancaq Orxanın rəhbərlik etdiyi Xüsusi Təyinatlı Kəşfiyyatı nəticəsində yerinə yetirildi. Orxan xüsusi tapşırıq almışdı.

– Orxanla sonuncu danışığınız nə vaxt olub? Bilirik ki, oktyabrın 2-də şəhid olub. Həyat yoldaşı Nuranə xanım bizimlə söhbətində dedi ki, oktyabrın 1-də axşam zəng edərək özü və uşaqlarla danışıb. Bəs sizinlə sonuncu dəfə nə vaxt danışdığı yadınızdadırmı?

– Oktyabrın 1-də Orxanla sonuncu dəfə danışdıq. Bu zaman gördüm ki, səsi həqiqətən də çox çətin eşidilir. O qədər qışqırmışdı ki, səsi tutulmuşdu. Bircə onu dedi ki, anamgil qabaqda fəaliyyət göstərdiyimi bilməsin. Həmişə sirrimizi bir-birimizlə bölüşürdük. Bəzi şeyləri ailə üzvlərimizə bildirməməyə çalışırdıq. Çünki biz bu yolu seçərkən əynimizə geyindiyimiz hərbi formanın kəfənimiz olacağına əvvəldən razılaşmışdıq. Öz torpaqlarını işğaldan azad etmək, dövlətinin suverenliyini, ərazi bütövlüyünü və xalqını qorumaq hər bir hərbçinin arzusudur. Biz bunun üçün hərbi andı, yəni şərəf andı içmişik. Biz istəyirdik ki, şəhid olsaq da, eybi yox, şərəfdir, amma qalib gələk.



Orxan oktyabrın 1-dən 2-ə keçən gecə təyin olunmuş istiqamətdə hərəkət elədi. Biz gecə havadan və kamera vasitəsi ilə müşahidələr aparırdıq. Onların hərəkəti düşmən tərəfindən aşkarlanmışdı və bu səbəbdən mühasirəyə düşdülər. Orxan düşmənə xeyli təzyiq göstərdi. Onunla bir yerdə olan hərbi hissənin qərargah rəisi Azər Mikayılovun öz dilindən mənə dediyi sözləri sizə də çatdırıram: "Mən komandirə yaxınlaşdım. Onun gözlərinin içi əsəbdən qıpqırmızı idi. Mənə dedi ki, Azər, neçə şəhidimiz var? Dedim, komandir müəyyən qədər şəhidimiz və yaralımız var. Qayıtdı ki, biz burada qalsaq, hamımız məhv olacağıq. Öz qüvvələrimizdən 10-15 km irəlidəyik. Bizə tezliklə kömək gələ bilməyəcək, mərmimiz də bitmək üzrədir. Yanımda olan heyətlə düşmənin sağ səngərini yaracağam. Oranı dağıtdıqdan sonra, sən deyən istiqamətə yola düşərək, bütün şəxsi heyəti çıxardacam. Dedik, komandir siz getməyin, bir qrup göndərək. Dedi, yox! Oradan çıxma ehtimalı sıfıra bərabərdir. Bunu bilə-bilə sizi ora göndərə bilmərəm. Burada oturmaqla isə, bu qədər əsgəri qırdıra bilərik. Ordan sağ çıxsam belə, mən başımı qaldırıb o qədər şəhid anasının üzünə baxa bilmərəm".

Qardaşımdır deyə, demirəm. Orxanın çox özünəməxsus xüsusiyyətləri var idi. Orxan üçün şəhidlik, Vətənə sevgi elə bil hiss idi ki, onu sözlə ifadə etmək qeyri-mümkündür. Mənə dedi ki, ora girəndə sən mənim ora girməyimi izlə. Orxan altı nəfərlə mühasirəni yarmaq üçün qeyri-bərabər döyüşə atılır. Düşmənin mühasirə səngərini yarıb, müəyyən qədər irəliləyir və ermənilərin xeyli canlı qüvvəsini məhv edirlər. Bu zaman düşmən pərən-pərən olur və baş qarışmasından istifadə edərək,

qalan 150-200 nəfərə yaxın şəxsi heyət Orxanla danışdıqları kimi, o biri istiqamətdən çıxmağa müvəffəq olub. Şəhid olduqdan sonra gedib gördüm ki, Orxan altı nəfərlə birlikdə, hətta bir az irəliləyə bilib. Bir az irəlilədikdən sonra düşmənin güclü atəşinə məruz qalaraq altı nəfərlə birlikdə şəhid olub. Bu, əsl qəhrəmanlıqdır. Öz həyatı bahasına başqalarını xilas edib. Belə halları biz əvvəllər müharibə kinolarında görərdik. İndi isə bizim tanıdığımız insanlar gözümüzün qabağında böyük qəhrəmanlıqlar göstərirlər.

– Bəs Orxanın Şəhid olduğu xəbərini nə vaxt və hansı şəraitdə eşitdiniz?

– Mən oktyabrın 2-də Cocuq Mərcanlı istiqamətində idim. Araz qırağı gedən əsas istiqamətə havadan nəzarət edirdik. Bizim təyyarəmiz oradan qalxırdı. Həmin günü saat 08:00, ya da 08:30 radələri idi. Orxanın yaxın dostu Toğrul müəllim mənə zəng edib şəhid olma xəbərini, ağlayaraq bildirdi. Sonra Toğrulla görüşdüm. Düşündük ki, şəhidlərimizi gətirirlər. Əvvəlcə hadisənin təfərrüatından xəbərimiz yox idi. Elə oldu ki, gəlmədilər. Zirehli döyüş maşınları ilə istədik gedək, yenə gedə bilmədik. Düşmən atəşinə məruz qaldıq. Oktyabrın 6-da, Orxanın hərbi hissəsindən ayrılmış qrupla hərəkət edərək həmin yerdən şəhidlərimizin meyitlərini götürdük. 17 nəfərlik qrupun tərkibində mən də var idim. O qrupla birlikdə gedib altı nəfərin nəşini gətirdik.

– Eşitdik siz də yaralanmısınız. Bu necə baş verib?

– Elə güclü yaralanmamışdım. Mən onu yaralanma kimi qiymətləndirmirəm.

– Dedilər hospitalda da yatmısınız...

– Bəli, bu, düzdür. Amma güllə yarası deyildi. Məndə iqlimlə bağlı idi. 44 günlük döyüş zamanı soyuqlarda çox qalmışdıq deyə, böyrəklərimdə problem yaranmışdı.

Birtəhər dözürdüm və işi yarımçıq qoymaq istəmirdim. Döyüşü qələbə ilə başa vurandan sonra 5-6 ay hospitalda yatdım. Həkim komissiyası tərəfindən tərxis edilirdim. Tərxis olunmaq istəmədim. Bizim hələ bitməyən tapşırıqlarımız var. Cənab Ali Baş Komandanın və cənab nazirin göstərişinə əsasən biz Qarabağın qalan hissəsini də tamamilə işğaldan azad edərək şəhidlərimizin intiqamını almalıyıq. Dədə-baba torpaqlarımızı qaytaraq, gələcək nəsillərimiz xoşbəxt-firavan, təhlükəsiz həyat yaşasın.

Orxanla söhbət edəndə deyirdim ki, müharibə bizim dövrdə başlasın. Balalarımız əziyyət çəkməsin. Alçaq, şərəfsiz, mənfur düşmənin gülləsinə bizim balalarımız məruz qalmasın. Allah Orxana və bütün şəhidlərimizə rəhmət etsin. Şəhid qardaşımın bir oğlu, bir qızı var. Bütün balaların xoşbəxt, firavan, təhlükəsiz həyat yaşadığını görmək istəyirəm. İnşallah, o günlərə az qalıb. Tezliklə Xankəndi, Xocalı, Əsgəran və digər yerlər də tam bizim nəzarətimizə keçəcək. Ondan sonra tərxis olunmaq barədə fikirləşmək olar.

– Cənab mayor, tezliklə sizə bu arzulara qovuşmağı arzu edirik. Allah qardaşınız, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant şəhid Orxan Əkbərova və bütün şəhidlərimizə rəhmət eləsin!

– Amin! Sizə də şəhidlərimizi yada saldığınıza görə təşəkkür edirəm!

Elçin Məmmədli



Şahmar Məmmədov,
"N" saylı hərbi hissənin korpus komandirinin hüquq işləri üzrə müavini, ədliyyə mayoru:

– Orxan Əkbərovla Beyləqanda hərbi xidmətdə tanış olmuşdum. Çox yaxın dost olduq. Hətta uzun müddət xidmət vaxtı hərbi hissədəki zabit kazarmasında bir otaqda yaşamışıq. Çox mehriban, həm də sərt xasiyyəti var idi. Əsl hərbçiyə xas olan xarakter vardı Orxanda. Bizim onunla yaddaqalan günlərimiz çox olub. O, dar günün dostu, ləyaqətli, qeyrətli oğul, peşəkar hərbiçi idi.

Fərqli ixtisaslar üzrə, fərqli vəzifələrdə çalışırdıq. Sonradan işimizlə əlaqədar ayrıldıq, ayrı-ayrı yerlərdə xidmət etməli olduq. Vətən müharibəsində eşitdim ki, Orxan Şəhid olub. Çox pis oldum. Çünki Azərbaycan Ordusu savadlı, peşəkar bir hərbiçisini itirmişdi. Oğul

var evdən gedər, oğul var eldən gedər. Orxan Şəhidliyilə eldən getdi, Azərbaycan ordusu üçün bu böyük bir itki idi… Şəhidlər vurulanda yox, unudulanda ölər. Sağ olun ki, siz də belə bir qəhrəman oğulun xatirəsini əbədiləşdirirsiz. Orxanı tanıyan dostları adından kollektivinizə təşəkkürümü bildirirəm…

Sevinc Muradxanlı





Yaşar Bağırov,
Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı,
"Azərbaycan bayrağı" ordenli Vətən müharibəsi qazisi:

– Orxan Əkbərovla tanışlığımız H. Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldığımız vaxtdan başlandı. Mən əslən Naxçıvandanam, Orxan Əkbərov isə bildiyiniz kimi, Saatlı şəhərində anadan olsa da, sonradan Biləsuvara köçüb, orada yaşayıblar. Təsadüf elə gətirib ki, ikimiz də orta məktəbi bitirdikdən sonra – 2000-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşuq. Orxan Əkbərovla tanışlığımız məktəbin idman zalında oldu. İdman zalında turniklərdə məşq edən zaman onun bəzi idman hərəkətləri diqqətimi çəkdi. Ondan həmin hərəkətlərin icra texnikasını soruşdum. O, maraqlandığım idman hərəkətlərinin icra texnikasını ətraflı izah etdi. Elə ordaca Orxanla maraqlı söhbətimiz

alındı. Sonra onunla aramızdakı davamlı ünsiyyət sayəsində bir-birimizi tanıdıq. Mütəmadi söhbətlər nəticəsində bizim dostluğumuz yarandı…

Onu da deyim ki, iki il Orxan Əkbərovla Ali Hərbi Məktəbdə ayrı-ayrı siniflərdə oxumuşuq. Sonrakı iki ili ixtisasımıza görə eyni qrupda oxuduq. Yəni, ikimiz də Qoşun kəşfiyyatı ixtisasını seçdik və bir sinfə düşdük. Məktəbin yataqxanasında bölgü zamanı da bir otaqda qalası olduq. Məktəbi bitirənədək onunla bir otaqda qaldıq. Mən idim, rəhmətlik Orxan Əkbərov, Famil Əliyev, Qabil Qaybaliyev və bir də Mobil Muradxanov… Dərsdən sonra, demək olar ki, həmişə bir yerdə olurduq. Orxan Əkbərov çox səmimi və sakit təbiətli idi. Mehriban dostluğu vardı. Eyni zamanda, şən, gülərüz və zarafatcıl idi. Həm də çox maraqlı insan idi. Onunla bağlı çoxlu xatirələrim var.

Bir gün onunla bərabər şəhərə gəzməyə çıxırdıq. İşimiz tələsik idi. Bizi dostlarımız gözləyirdi. Orxana dedim ki, qapıdan getsək, yol uzanacaq, gecikəcəyik, yaxşısı budur hasardan aşaq. Orxan razılaşdı. Dedi, hə, nə olar, lap yaxşı. Birdən qayıtdı ki, bəs komendant yaxalasa, necə olacaq? Dedim, heç nə olmaz. Hasardan aşıb bir az getmişdik ki, arxadan komendantın səsi gəldi: kursantlar, hara gedirsiniz? Biz geriyə baxmadan hardasa iki kilometr yolu qaçıb, komendantın gözündən yayındıq. Amma o qədər tərləmişdik ki, yenidən yataqxanaya qayıdıb paltarımızı dəyişmək məcburiyyətində qaldıq...

Orxan tək bizimlə deyil, hamı ilə mehriban davranırdı, çox şən insan idi. Dərsdən sonra vaxtının çox hissəsini idman məşqlərinə sərf edərdi. O, istər təhsil aldığımız məktəbdə çoxsaylı tələbə və müəllim kollektivinin,

istərsə də ətrafdakı digər insanların həmişə hörmətini qazanıb...

2005-ci ildə ali təhsili başa vurduqdan sonra hər kəs ixtisası üzrə xidmətə yollandı... Mən Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etməyə başladım. Orxan isə N saylı kəşfiyyat bölüyündə kəşfiyyat tağım komandiri kimi xidmətə başladı. Bildiyiniz kimi, Orxan Əkbərov 2007-ci ildən kəşfiyyat bölük komandiri, 2012-ci ildən 2020-ci ilədək N saylı hərbi hissənin kəşfiyyat bölməsinin rəisi vəzifəsində çalışıb. 2020-ci ilin yanvar ayından şəhid olduğu günədək N saylı hərbi hissənin komandiri vəzifəsində xidmət edib. Ancaq buna baxmayaraq, biz mütəmadi olaraq görüşürdük. 2020-ci ilin əvvəlləri idi. Orxan məzuniyyət götürüb rayona – Biləsuvara gəlmişdi. Mən də həmin vaxt Cəlilabadda xidmət edirdim. Bir gün hərbi hissəmizə gəlib mənimlə görüşdü. Sən demə, bu, bizim Orxanla son görüşümüz imiş... Xeyli söhbət etdik, sonra görüşüb ayrıldıq. O, maşına oturanda məni geri çağırdı və biz yenidən görüşdük. Məni qucaqlayıb bərk-bərk özünə sıxdı. Heç vaxt belə etməmişdi, sanki sonuncu dəfə görüşdüyümüzü hiss etmişdi...

Lakin müharibə başlayana qədər tez-tez telefon əlaqəsi saxlayıb hal-əhval tuturduq. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq ordumuz əks-hücum əməliyyatına başlayanda Orxan Əkbərov Füzuli, mən isə Kəlbəcər istiqamətində gedən döyüşlərə qatıldıq. Mən yaralanmamışdan bir neçə gün əvvəl, daha doğrusu, oktyabrın 2-də dostumuz Tofiq Muradov zəng edib dedi ki, Yaşar, Orxan şəhid olub. Həmin vaxt mən Xüsusi Təyinatlı Qü-

vvələrin dəstə komandiri kimi Cəbrayılın işğaldan azad edilməsi istiqamətində gedən döyüşlərdə iştirak edirdim. Oktyabrın 4-də Cəbrayılı işğaldan azad etdik. Oktyabrın 6-da isə Cəbrayılın ətrafında olan hakim yüksəkliklərdə düşmənin əks-həmləsinin qarşısını alarkən Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə məruz qaldıq. Həmin vaxt mən yaralandım, bir müavinim və rabitəçim şəhid oldu.

Demək istəyirəm ki, Orxanın şəhidlik xəbərin alandan dörd gün sonra mən yaralandım. Çox təəssüf ki, Orxanın dəfn mərasimində iştirak edə bilmədim, çünki qeyd etdiyim kimi, ağır yaralanmışdım. Həmin ərəfədə yeddi qazimizlə birgə "YAŞAT" Fondu tərəfindən müalicə üçün Türkiyəyə göndərildik. Bu səbəbdən də Orxanın il mərasimində iştirak edə bildim. Ailəsinə başsağlığı verdim, həm də məzarını ziyarət elədim... Deyərdim ki, daxilində olan vətən sevgisi, bayraq sevgisi Orxan üçün hər şeydən dəyərli idi. O, şəhidliyinə qədər hərbi xidmətini layiqincə yerinə yetirdi.

Qürurverici haldır ki, Orxan Əkbərov hərbidə qulluq etdiyi müddətdə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medal, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medal, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı ilə təltif edilib. Orxan Əkbərov 2016-cı ildə Aprel döyüşlərində və 2020-ci ildə Tovuz istiqamətində gedən döyüşlərdə də iştirak edib. 2020-ci ilin sentyabr ayında torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaətlər göstərib, düşmənin 200-dən çox əsgərini və bir neçə silah dolu maşınını məhv edib.

Polkovnik-leytenant Orxan Əkbərov 2 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşdə qəhrəmancasına şəhid olub. Oktyabrın 6-da isə şəhidin nəşi götürülərək Biləsuvar rayonunda uğrunda canını verdiyi torpağa tapşırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Orxan Əkbərova ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adı verilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Orxan Əkbərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi. Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən, Orxan Əkbərov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olundu.

Orxan Əkbərov ailəsinin, dostlarının, onu tanıyanların yaddaşında gözəl əməlləri, qüsursuz əxlaqi ilə silinməz iz qoyub getdi. Orxan hər bir valideynin arzu etdiyi gözəl bir övlad, sədaqətli dost, onu tanıyan ətrafı üçün xoşrəftar, alicənab, mehriban, saf, təmiz insan olaraq xatirələrə həkk olundu. Bu gün Orxanı fəxrlə yad edir, onunla qürur duyuruq. Orxan elə bir zirvəyə ucalıb ki, o hər kəsə qismət olmur. Orxan Azərbaycanımızın əvəzsiz qəhrəmanıdır. Biz onunla hər zaman fəxr edəcəyik, onun əziz xatirəsini qəlbimizdə yaşadacağıq...

Qələmə aldı: Elbar Şirinov



Famil Əliyev,
Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində Qoşun Xidmətinin rəisi, polkovnik-leytenant

– Cənab polkovnik-leytenant, bildiyimizə görə, Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Orxan Əkbərovla çox yaxın dost olmusunuz, hətta deyirlər, uşaqlıqdan bir-birinizi tanımısınız. Famil Əliyev Orxan Əkbərov üçün necə önəmli bir dost idi?

– Bəli, biz Orxanla uşaqlıq dostu olmuşuq. Dostluğumuz kursant illərindən başlayıb. Bir-birimizi oradan tanımışıq. Bizim kursantlıq vaxtından başlayan dostluğumuz, sonradan şəxsi həyatımıza, daha sonra ailələrimizə, uşaqlarımıza çatıb. Xüsusilə də kursant dövründə oturuşumuz-duruşumuz da bir idi. Dərsimizi, hər fikrimizi, dərdimizi bir-birimizlə bölüşürdük. Sanki belə deyim, mənəvi cəhətdən bir-birimizdən qidalanırdıq. Hədsiz dərəcədə

yaxın dost və qardaş olmuşuq, Hər sirrimizi, hər dərdimizi bir-birimizlə bölüşürdük. Nə çətinliyimiz olardısa, bir-birimizin yanına gələrdik. Orxan həqiqətən də, necə deyərlər, doğuluşdan hərtərəfli bir istedad idi. Görürdük ki, hər şeydə bacarıqlıdır, bütün elmlərdən xəbəri var. Məsələn, götürək idmanı, elə bir idman növü yox idi ki, Orxan onun normativini yüz faiz yerinə yetirməsin. Yəqin bilirsiniz ki, o, boksla məşğul olmuşdu. Bütün günü boks və idmanın digər növləri ilə məşğul olurdu və mütləq bizi də buna cəlb edirdi. Bütün boş vaxtımızı xoş və səmərəli istifadə edirdik. O, bizə kömək edirdi. Məzuniyyətə çıxanda, yaxud da ki, digər vaxtlarda, necə deyərlər, yaxşı günlərimizdə, pis günlərimizdə həmişə Orxanla bir yerdə olardıq.

– Kursant olduğunuz illərdə Orxanla maraqlı, hansısa hadisələrlə qarşılaşmısınızmı, hansısa elə bir hadisə olubmu ki, Orxan orada gözəl bir ideya irəli sürsün və bu hamıya xoş gəlsin?

– Orxan həmişə ağıllı təkliflər verərdi və gələcək planlarından danışardı. Hərbi məktəbi bitirəndən sonra da biz Təlim-Tədris Mərkəzində birillik zabit ixtisas kursunda bir yerdə oxuduq. Oturardıq burda, boş vaxtımızda kursantlarla müxtəlif mövzuda müzakirələr aparardıq və hərə öz fikrini bildirərdi ki, məsələn, mən filan yerdə xidmət etmək istərdim və s. Orxan həmişə deyərdi ki, mən cəbhə bölgəsində xidmət etməyi arzulayıram. Elə bil onun ürəyinə dammışdı ki, məhz cəbhə bölgəsində xidmət edəcək. Bölgü olmamışdan əvvəl də özünü hazırlamışdı ki, cəbhə bölgəsində xidmət edəcək. Doğrudan, qismət elə gətirdi ki, elə bölgüdə də cəbhə bölgəsinə düşdü. Bütün xidməti boyu da, siz yəqin özünüz də bilirsiniz, leytenant rütbəsindən polkovnik-leytenant rütbəsinə

qədər həmin cəbhə bölgəsində oldu. Necə ki, kursant illərindən arzulayırdı və inamla deyirdi ki, "Gələcəkdə mən komandir olacağam, görəcəksiniz, siz də mənim tabeliyimdə xidmət edəcəksiniz. Onda sizə necə komandir olduğumu göstərəcəm..."

Necə deyərlər, o, bütün arzuladığı mərhələlərə ucaldı. Leytenant olandan həmin yerlərdə xidmət elədi, digər rütbələrini də elə orada aldı, çox çətin yollar keçdi. Arzuladığı kimi ən sonda da gəldi hərbi hissənin komandiri oldu. Hərbi hissə komandiri kimi də şəhadətə ucaldı... Cəbhə bölgəsində tez-tez yerdəyişmələr olur, müxtəlif tapşırıqlar yerinə yetirmək üçün gedirsən və s. Ona görə də ailə qurandan sonra necə olacağını biz bir yerdə müzakirə edərdik.

Ailə qurandan sonra ailəsini götürüb ora aparmaq lazımdırmı, yoxsa aparmasın? Özünüz də bilirsiz ailə qurdu, bir qız, bir oğlan övladı var. Sonuncu dəfə – 2019-cu ildə ikimiz də eyni vaxtda məzuniyyətə çıxmışdıq. Ailəsi, uşaqlarıyla birlikdə gəldilər bizim rayona, bizim evdə qonağımız oldular. Sonra mütəmadi olaraq telefonla əlaqə saxlayardıq.

Orxan mənim də toyumda iştirak edib. Orxan, necə deyim, çox danışan adam deyildi. Ümumiyyətlə, məclislərdə də çox danışmaqla arası yox idi. Deyərdi də, gülərdi də o, öz tanıdıqları, yaxın bildikləri içərisində də həmişə şən, zarafatcıl olub. Orxan öz toyunda da ciddiyyətini qorumuşdu və toy şəkillərindən də görünür ki, toyda bəy kimi yox, bir hərbçi kimi oturub. Yəni, bilirsiniz də, insan yaranışdan hansısa bir sahədə formalaşır, Orxan da belə deyək ki, anadangəlmə bir hərbiçi idi.

– Bəs müharibə başlayanda Orxanın döyüşdə olmağını necə eşitdiniz?

– Orxanın döyüşdə olduğunu mən bilirdim. Sözsüz, Orxan elə bir vəzifədəydi, özü də bilirdi ki, döyüş başlayanda ilk gedənlərdən biri olacaq. Axı Orxan həmişə bu arzu ilə yaşayırdı ki, torpaqlarımızın işğaldan azad edilməsində iştirak etsin. Mənim qardaşım Elçin də zabitdir, hərbi qulluqçudur, mayor rütbəsindədir və o da II Qarabağ döyüşlərinin iştirakçısıdır. İnandırım sizi ki, mən qardaşımdan çox Orxanla maraqlanırdım. Bilirdim ki, Orxan kəşfiyyatçıdır və birbaşa düşmənin arxasındadır. Ona görə mən zəng edəndə də ona zəng çatmırdı... Döyüş vaxtı çox təəssüf ki, danışa bilmədim. Bir-iki dəfə mesaj yazdım. Görünür yəqin ki, o şəraitdə mesajı cavablandırmağa imkanı olmayıb. Hər dəqiqə gözləyirdim ki, bir cavab versin, özüm də bir az rahat olum. O da qismət olmadı. Şəhid olma xəbərini hərbçi qardaşım mənə dedi. Qardaşım zəng elədi ki, bəs xəbərin var Orxandan? Dedim, yox. O, artıq bilirmiş şəhid olduğunu. Sadəcə mənə telefonla dedi ki, bəs maraqlan, gör haradadır? Maraqlandım, o da ki, yaxşı bir xəbər almadım, şəhid olma xəbərini aldım. İnsanın ən yaxınını, ən əzizini, ondan sonra dostunu, sirdaşını itirməsi bilirsiniz də nə deməkdir? Mənə bu barədə danışmaq çox çətindir *(kövrəlir)*.

– Allah bütün şəhidlərimizə rəhmət eləsin. Sizin Təlim-Tədris Mərkəzində dərslər keçirilir. Tanıdığınız, ordumuzun şəhidləri haqqında, Orxan Əkbərov, kəşfiyyatçılar haqqında gənc zabitlərə nəsə danışılırmı, öyrədilirmi, həyat yolu izah olunurmu?

– Əlbəttə ki, burda nəinki izahetmə, bizim burda klubumuz var. Mütəmadi olaraq tədbirlər, şəhidlərin anım günləri keçirilir, onların qəhrəmanlığından, yazdıqları 44 günlük dastandan bəhs olunur... Ondan əlavə, bilirsiniz

də, burada zabitlər yetişdirilir, gizirlər, müddətdən artıq xidmət edən hərbi qulluqçular yetişdirilir. Onların hamısına vətənpərvərlik hissi aşılanır, şəhidlərimizin, qazilərimizin, veteranlarımızın şücaətindən, onların göstərdiyi qəhrəmanlıqlardan, mərdliklərdən, torpaqları necə azad etmələrindən ətraflı danışılır, sənədli filmlər göstərilir. Bundan əlavə, onların o döyüşdə bir hərbçi kimi işlətdiyi bütün bu taktika və strategiyalarının hamısı gənc hərbi qulluqçulara aşılanır.

Sizə təşəkkür edirəm ki, bizim bu qəhrəmanları gələcək nəsillərə çatdırmaq üçün belə müqəddəs bir iş görürsünüz...

– Təşəkkür edirəm, bizə vaxt ayırdığınıza görə çox sağ olun. Sizə də işinizdə, peşənizdə uğurlar arzulayıram.

Elçin Məmmədli





"QÜRUR DUYURAM Kİ, QƏHRƏMAN ANASIYAM"

Azərbaycan 30 ildən çoxdur öz müstəqilliyini bərpa edib və müstəqil dövlət kimi tanınır. Təbii ki, müstəqilliyimizin bərpasında o zamankı gənclərimizin rolunu təkzib etmək mümkünsüzdür. Hansı ki, hər zaman o gənclərimizlə fəxr edirik.

Müasir dövrdə Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə daxil olan şəxsiyyətlərin keçdiyi yol da gənclərimizin mənəviyyatına müsbət təsir göstərir. Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Orxan Əkbərovun keçdiyi mübarizlik yolu kimi. Azərbaycan xalqının

igid oğlu türk dünyasına qənim kəsilmiş mənfur qonşu ermənilərlə savaşda böyük cəsurluq, mərdlik göstərərək şəhid olub...

"Təzadlar" qəzetinin layihəsi əsasında Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Orxan Əkbərovun keçdiyi həyat və döyüş yolundan bəhs edən kitabın hazırlanmasına qərar veriləndə şəhidin ən yaxın dostları, tələbə yoldaşları və anası ilə görüşüb söhbət etmək mənə həvalə olundu.

Doğrusu, bir qədər tərəddüd içində qaldım. Çünki müharibə mövzusunda yazmaq, o ağır günləri yenidən xatırlamaq çətindir. Müharibə haqqında yazanda, kiminləsə söhbət edəndə ilk olaraq şəhidlərimizi xatırlayıram. Üstəlik, yadıma ön cəbhədə döyüşlərin getdiyi vaxt arxa cəbhədəki vəziyyət, kəndimizin ilk dəfə ermənilər tərəfindən bombalanması düşür. O anlar hələ də gözümün qabağından getmir... Şəhidlərimiz haqqında danışmaq, yazmaq nə qədər qürurverici və şərəfli olsa da, ailələri, əzizləri ilə söhbət etmək qeyd etdiyim kimi, bir o qədər çətindir. İllah da şəhid anası ilə söhbət etmək lap ağırdır...

* * *

...Öyrəndim ki, Orxan Əkbərovun anası Sevil Abdullayeva Biləsuvar şəhərində yaşayır. Sevil xanımla telefon əlaqəsi saxladım. Özümü təqdim edəndən sonra zəngimin məqsədini söylədim. Sevil xanım bizi səmimiyyətlə Biləsuvara – evlərinə dəvət etdi. Həmin günün səhəri Biləsuvara yollandıq. Biləsuvarda hansı küçə ilə gedirdiksə igid şəhidlərimizin fotoşəkilləri ilə qarşılaşırdıq. Orxan Əkbərovun vaxtilə yaşadığı evin qarşısında isə böyük xatirə kompleksi vardı. Xatirə kompleksində Orxan Əkbərovla yanaşı, Qarabağ müharibəsində şəhid

olan biləsuvarlı igidlərimizin fotoları yer alıb. Abidə kompleksinin önündən keçərkən bu fotolardakı məsum baxışlar və onların başı üzərində dalğalanan bayrağımız adamı bir anlıq ayaq saxlayıb düşünməyə sövq edir. Məhz bu igidlərin canları bahasına bu gün Şuşamızda, Qarabağımızın hər yerində dövlət bayrağımız dalğalanır. Ona görə də qəhrəman şəhidlərimizin ruhunu uca tutmaq, xatirəsini yaşatmaq hər birimizin mənəvi borcudur...

* * *

...Orxangilin evlərinin qarşısında bizi kiçik qardaşı Elnur qarşıladı. Görüşüb həyətə keçdik. "Xoş gəlmisiniz" deyib bizi evə dəvət etdi. Qapını açıb içəri daxil oluruq. Burda hər şey Orxanı xatırladır, divarlardakı böyük həcmli portretlər, mebel əşyalarının üzərindəki şəhid qəhrəmanımızın həyat və döyüş yolunu əks etdirən fotoşəkillər, şəxsi əşyaları, təltiflər, rəsmi sənədlər... hər şey özündə onun izlərini qoruyub saxlayır...

Şəhid ailəsində olmaq, şəhid anası ilə danışmaq həm də çox böyük mənəvi güc tələb edir. Hansı sualdan, necə başlayacağımı bilmirəm... Nə deyim ki, Sevil ananın qəlbini, hələ də qaysaq bağlamayan yarasını təzələməyim... Özümü toplayıb söhbətə başlayıram.

– Sevil xanım, biz polkovnik-leytenant Orxan Əkbərovu Vətən Müharibəsi Qəhrəmanı kimi tanıyırıq. Ancaq övladınız olaraq onu hamıdan ən yaxşı siz tanıyırsınız. O, necə övlad idi?

– Orxan ailəmizin üçüncü övladı idi. Bu gün onun haqqında danışmaq mənə çətin gəlir. O, dünyaya gəlişindən ömrünün sonuna qədər ailədə hamıdan fərqli idi. Çox danışan deyildi. Beş sualın birinə cavab verərdi. Hər

şeyə diqqətlə nəzər yetirərdi. Heç vaxt öz işini, üzləşdiyi problemi başqası ilə bölüşməzdi. Düşdüyü çətinliklərdən xəbərimiz olmazdı. O, dünyaya gələndə biz işimizlə əlaqədar Saatlıda yaşayırdıq. 1982-ci il dekabrın 12-si, gecə saat 23 radələri idi. Üzrlü sayın, doğum yaxınlaşdığı üçün məni gətirdilər öz işlədiyim Saatlı Rayon Mərkəzi Xəstəxanasına. Bu an rayonda işıqlar söndü. Lampa, şam işığında dünyaya gəldi Orxan. Doğuşu, çəkisi, qidalanması normal olsa da, amma daim ağlayırdı. On-on bir ayına qədər onu rəhmətlik atası Nadirlə növbəli qucağımızda saxlayırdıq ki, ağlamasın. Çünki qucaqdan yatağa qoyan kimi ağlamağa başlayırdı.



Demək olar ki, gecəli-gündüzlü ağlayırdı. Onu bütün günü evdə, həyətdə qucağımızda gəzdirirdik. Məəttəl qalırdıq ki, bu uşaq niyə belədir? Hətta onu iki dəfə indiki Elmi-Tədqiqat Pediatriya İnstitutuna apardıq. Bütün müayinələrdən keçirdik. Dedilər, bu uşağın heç nəyi yoxdur, hər şey normaldır. Ancaq o, bir yaşına qədər ağladı.

Sizə deyim ki, qeyri-adiliyi də vardı. Oğlan uşağı olmasına baxmayaraq, çox gözəl idi. Ağappaq, yupyumru sifəti, uzun kipriklәri, mənalı baxışları vardı. Kiçik yaşlarından ən çox döyüş filmlərinə baxırdı. Sonra da evdə, həyətdə əlinə nə keçirdisə, götürüb onunla avtomat silah kimi davranırdı. Bağçaya gedəndən məktəb yaşına kimi günü ancaq vurmaq-yıxmaq, dağıtmaq, yıxılıb-durmaqla keçirdi. "Voyennıy" deyə bilmirdi. Deyirdi, böyüyəndə "voynı" olacam. Ancaq onu da deyim ki, Orxan heç nəyə, heç kimə zərər verməzdi, kimisə incitməzdi. Hamı ondan razılıq edərdi.

Sentyabrda orta məktəbdə dərslər başlayanda pal-paltarını da mənim zövqümə buraxırdı. Deməzdi ki, mənə mütləq bunu alın. Ailə həyatı quranda da elə oldu. Qızı mən bəyəndim. Adı Nuranə idi, Saatlı xəstəxanasında mənimlə bir yerdə işləyirdi. Onu oğluma məsləhət gördüm, Orxanın da xoşu gəldi və Nuranə ilə ailə qurdu...

Sevil xanım danışdıqca nəfəs ala bilmir, içini göynədən qəhərdən boğulurdu...

– Orxan orta məktəbdə oxuduğu illərdə idmanla da məşğul olmağa başladı. O, 1989-1997-ci illərdə Saatlı şəhəri 3 nömrəli tam orta məktəbdə oxudu. Sonra biz Biləsuvarda yaşamalı olduq. Ona görə də Orxan 1997-1999-cu illərdə Biləsuvar şəhəri 1 nömrəli tam orta məktəbdə təhsil aldı. Orta məktəbdə oxuya-oxuya Biləsuvar rayonunun "Səməd Vurğun" kolxozunda fəaliyyət

göstərən Uşaq-Gənclər İdman Məktəbinin boks müəllimi, SSRİ idman ustası İmaməli Muradovun sinfində boksla məşğul olmağa başladı. Orxan hələ kiçik yaşlarından atasını – polis mayoru Nadir Əkbərovu xüsusi geyimdə görmüşdü. Atası 90-cı ilin əvvəllərində mənfur ermənilərin törətdiyi qətliamlardan danışarkən 10 yaşlı Orxan ona diqqətlə qulaq asardı. Düşmənə nifrətlə böyüyən Orxanın, dediyim kimi, idmana böyük marağı vardı. Hər dəfə yarışlarda qazandığı qələbələr onun vətən, torpaq sevgisini artırırdı. Əslində, mən Orxanın gələcəkdə atası kimi hüquq-mühafizə orqanlarında çalışmasını istəyirdim. Ancaq o, hərbçi olacağını söyləyirdi. Elə də oldu, 2000-2004-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini Qoşun kəşfiyyatı ixtisası üzrə bitirib, 2004-2005-ci illərdə Təlim-Tədris Mərkəzində ixtisası üzrə təhsil aldı. Sonra Füzuli rayonundakı hərbi hissədə bölük komandiri kimi fəaliyyətə başladı. 20 ilə yaxın uğurlu xidməti komandanlıq tərəfindən yüksək dəyərləndirildi və polkovnik-leytenant Orxan Əkbərov kəşfiyyat hərbi hissəsinin komandiri vəzifəsinədək yüksəldi. Kiçik qardaşı mayor Ənvər Əkbərovun da hərbçi olmasında Orxanın zəhməti böyükdür.

Orxan xidməti dövründə məzuniyyətə də gəlməzdi. Arada gəlib iki-üç gün qalırdı. Zəng gələn kimi deyirdi, "mama, mən getdim". Bax xidməti dövründə onun üzünü belə görürdük.

Sevil xanım deyir ki, Orxan evə sonuncu dəfə sentyabrın 25-də gəlib:

– Mən özüm məzuniyyətdə idim. Oktyabrın 6-da işə çıxacaqdım. Sentyabrın 25-i axşamüstü idi, uşaqlar qışqı-

rışdı ki, atamız gəldi. Bir də gördüm Orxan qapını açıb girdi içəri. Halbuki həmişə gələndə əvvəlcədən zəng edib bildirərdi. Dedim, Orxan, mama qurban, niyə xəbər eləmirdin ki, gəlirəm, biz də bir hazırlıq görərdik. Güldü, sonra da dedi ki, noolar, bu dəfə də hazırlıqsız qarşılayın məni...

Sevil xanım göz yaşını saxlaya bilmir... O, hər dəfə ah çəkəndə, göz yaşına boğulanda sanki ürəyimdən bir tel qırılırdı. Sevil xanım nə qədər məğrur dayansa da, Orxan barədə danışdıqca qəhər onu boğur...

– Tez soyuducudan ət, toyuq çıxardıb yemək hazırlamağa başladıq. Orxan dedi, mama, siz yemək hazırlayana kimi mən uşaqlarla, dost-tanışlarla görüşüb gəlirəm. Sonradan rayondakı bütün qohum-əqrəba, dostları, tanıdıqları insanlar mənə dedilər ki, Orxan gedib onlarla görüşüb. Evə gecəyarısı qayıtdı. Süfrəyə oturub bir tikə yemək yedi. Onu da deyim ki, Orxanın əlindəki telefonun zəngləri susmurdu. Oğluma bir zəng gəldi, tələsik həyətə çıxdı, danışıb qayıtdı. Qayıdan kimi dedi ki, gedirəm. Dedim, ay oğul, axı sənin üzünü düz-əməlli görə bilmədim. Dedi, mama, təcili getməliyəm, narahat olma, tez qayıdacam. Həyətdən yola çıxmamış ayaq saxladı. Böyrü üstə çevrilib gülümsəyən baxışlarını gözlərimə zilləyib "Mama, vətən sağ olsun!" deyib gəldiyi maşına minib getdi. Hardan biləydim ki, son sözü ilə nə demək istəyir? Müharibə söhbətini də bilmirdik axı...

Sevil xanım yenə də göz yaşlarına hakim ola bilmir.

– Müharibə xəbərini nə vaxt eşitdiniz?

– İşdə olanda yenə hərə bir şey danışır, eşidirsən. Məzuniyyətdə olduğum üçün həyətdən bayıra çıxmırdım. Qulağı kar kimi evdə otururdum. Heç nədən xəbərim yox idi. Orxan gedəndən bir neçə gün sonra Nuranə ilə marketə uşaqlara şey-şüy almağa getmişdik. Gördüm marketdə danışırlar ki, müharibə başlayıb. Soruşdum ki, ay oğul, nə müharibə, harda başlayıb? Dedi, sentyabrın 27-də ermənilər Qarabağda təxribat törədiblər, bizim ordumuz da cavab olaraq əks-hücum əməliyyatına başlayıb. Elə bil məni tok vurdu, ayaq üstə dayanmağa taqətim qalmadı. Tez taksiyə minib evə qayıtdıq. Birtəhər içəri keçdim. Orxana zəng etdim. Dedim, ay oğul, burda camaat danışır ki, müharibə başlayıb. Qayıtdı ki, yox, nə müharibə, elə bir şey yoxdu, narahat olma. Ondan sonra bir az toxtadım, ürəyim sakitləşdi. Sentyabrın 27-dən oktyabrın 2-nə qədər hər gün Orxanla zəngləşib hal-əhval tuturdum.



Oktyabrın 2-nə keçən gecə heç yata bilmirdim, elə bil yerimə qor dolmuşdu. Evin ikinci mərtəbəsində tək yatırdım. Təzəcə yuxuya getmişdim ki, taqqıltı səsinə oyandım. Nəsə pəncərəni döyəcləyirdi. Pəncərəyə yaxınlaşıb həyətə boylandım. Gördüm ki, güclü yağış yağır. Göy guruldayır, ildırım çaxırdı. Külək əsdiyi üçün də yağış pəncərəni döyəcləyirdi... Bu yağışdan yaman qorxdum. Dərhal Nuranəni, uşaqları səsləyib oyatdım. Dedim, bu yağışdan, havanın bu xasiyyətindən heç xoşum gəlmir. Nuranə dedi, ay mama, yağışdı da yağır, get yat, heç nə olmaz. Nə qədər elədim, yata bilmədim, dirigözlü açdım səhəri.

Səhər obaşdan Orxana zəng etməyə də ürəyim gəlmədi. Dedim, qoy, saat 8 olsun, yığaram. Saat 8-də Orxana zəng etdim. Nə qədər zəng eləyirəm, telefon çağırır, amma açmır... Saat 9 oldu, 10 oldu, 11 oldu, telefon çağırır, amma Orxan telefonu açmır. Az qala ürəyim partlasın. Əlim də heç yana, heç yerə çatmır. Günortadan sonra, təxminən saat 3-də Ənvərə zəng elədim, dedim, hardasan? Ənvər cavab verdi ki, Qubadlıdayam. Dedim, Orxana zəng edirəm, amma cavab vermir... Sonralar bunu Ənvər mənə danışdı. Sən demə, müharibə başlayanda Orxanla Ənvər aralarında belə qərara gəliblər ki, hansımız şəhid olsaq, mamama xəbər verilməsin. Sağ qalan şəhid olanı yarım saatlıq həyətimizə gətirib, sonra da aparıb dəfn etsinlər.

Onlar mənim xəstə olduğumu nəzərə alıb belə qərara gəliblər... Amma iki il keçdi, anaları ölmədi... Ənvər dedi ki, mama, narahat olma, salamatlıqdır. Qışqırdım ki, Ənvər, dayana bilmirəm, ürəyim partlayır, Orxana de, mənə zəng eləsin. Dedi, yaxşı, xəbər verərəm, səninlə danışar... Nə danışmaq, elə həmin gün dron vasitəsilə tapıb görürlər ki, Orxanla birlikdə neçə döyüşçümüz hamısı şəhid olub... Ancaq hələ də mənə heç nə demirlər.

Dəli kimi həyətdə o tərəf-bu tərəfə qaçıram. Telefonu da əlimdən yerə qoymuram ki, birdən Orxan zəng edər, bilmərəm. Nə qədər gözlədim, Orxan zəng eləmədi. Allaha yalvarıram ki, Orxan bircə dəfə zəng eləsin ki, ay mama, narahat olma, yaxşıyam. Yox, yox... telefonuma zəng gəlmədi. Demə, heç Orxanım həyatda yox imiş...

Danışdıqca göz yaşlarına boğulan Sevil xanım şəhid olmuş Orxanın və silahdaşlarının dron vasitəsilə çəkilmiş fotoşəkillərini və videolarını bizə göstərir... Düşmən snayperi ilə şəhid edilən Orxan və silahdaşlarının qanlar içərisində torpağa sərilmiş cansız bədənləri ürəkparçalayan mənzərə idi. Tökülən qanları ilə uğrunda can verdikləri torpağı vətənləşdirən qəhrəmanlarımızın şəhidlik məqamını əks etdirən görüntüləri izlədikcə ananın keçirdiyi anları sözlə ifadə etmək mümkün deyil...

– ...Can bala... Bəziləri də mənə deyir ki, səbr elə... Bu şəkillərə, videolara hər gün dəfələrlə baxıram... Məndə səbr qalar?... Oktyabrın 5-də səhər tezdən Nuranə otağın qapısını döyərək "mama, ay mama" deyə məni çağırdı. Səsə yuxudan dik atıldım. Telefona baxdım, gördüm saat 7-nin yarısıdır. Qapını açıb koridora çıxanda gördüm Nuranə yoxdur. Nuranə! – deyə çağırdım, cavab vermədi. Birinci mərtəbəyə enəndə mətbəxdən səslər eşitdim. Mətbəxin qapısını açanda gördüm ki, Nuranənin anası ilə bacısı içəridə oturublar. Görüşdükdən sonra soruşdum ki, sən Allah, xeyirdirmi səhərin gözü açılmamış gəlməkdə? Onlar susduqca içimdəki narahatlıqdan az qala ürəyim yerindən qopacaqdı. Əl çəkmədim ki, yox e, nəsə olub. Çox isrardan sonra dedilər ki, Orxanın yaralandığını eşidib gəliblər...

Bunu eşitcək, "nəə, Orxan yaralanıb?!" Bir haray, qıyya çəkdim ki, uşaqlar səsimə gəldilər. Məni sakitləşdir-

məyə çalışırdılar. İnanın, dəli kimi həyətdə qaçıb qışqırırdım ki, Orxan harda yaralanıb, hansı xəstəxanadadır, məni onun yanına aparın, əgər yaralansaydı, Ənvər mənə deyərdi. Demə, bütün qohum-əqrəba gəlib həyətin o başında, atamgilin köhnə evi vardı, ora yığışıb. Dost-tanış, rayonun camaatı həyətimizin ətrafına, yola toplaşıblar, mənim də heç nədən xəbərim yox. Mənim qışqırığımdan sonra bir də gördüm həyət-baca, ev-eşik adamla doldu. Oğluma, qızıma deyirəm ki, tez olun camaatın bura yığışmasının səbəbini doğru-dürüst anladın, görüm nə baş verib, yoxsa Orxan şəhid olub?! Kimsə mənə olanları demir. Ənvərə zəng etdim ki, Orxandan nə xəbər var? Dedi, mama, narahat olma, gedirəm Orxanın yanına, ora çatan kimi səni onunla danışdıracam.

Vaxt keçdikcə Orxandan xəbər yox... Saçımı-başımı yoldum... Kimsə bir söz deməsə də, hamının baxışlarından hiss edirdim ki, Orxan balamın başında nəsə var. Kiçik oğlum Elnur mənə dedi ki, mama, Ənvərlə danışdım, Orxanın yarası yüngüldür, vəziyyəti yaxşıdır, qorxulu heç nə yoxdur... Həmin gecəni də səhərəcən gözümü yummadım. Gah evə girirəm, gah həyətə düşüb o baş-bu başa gedib-gəlirəm. Allaha yalvarıram, nəzir-niyaz deyirəm ki, balamı məndən almasın. Oktyabrın 6-na sabah açıldı. Durdum çıxdım çölə. Get-gedə həyət, darvazanın ağzı insanlarla yenə dolmağa başladı. Küçəyə çıxanda baxdım ki, orada da adam əlindən iynə atsan, yerə düşməzdi. Ürəyimə şübhələr dolmağa başladı. Evdə uşaqlar qərar tuta bilmirdi. Gah içəri girir, gah bayıra çıxır, gözləri yollarda qalmışdı. Hiss edirdim ki, hamısının ürəyindən qara qanlar axır. Lakin heç kəs büruzə vermirdi, özlərini təmkinli aparırdılar.

Mətbəxdə süfrə açdılar, səhər yeməyi yedilər. Süfrə yığışılandan sonra kimi həyətə çıxdı, kimi otağa keçdi.

Qaynım arvadları da dedi, biz evə gedirik. Onların da heç nədən xəbəri yox imiş. Beləcə, hərə bir tərəfə çəkildi. Ancaq qızım pəncərənin qarşısından əl çəkmir, gözlərini darvazadan ayırmırdı. Mən də divanda oturmuşdum. Hava qaralmağa başlayırdı. Saata baxdım, 6-ya işləmişdi. Bir də gördüm qızım qışqıra-qışqıra ikinci mərtəbədən pilləkənlə aşağı endi. Oturduğum divandan dik qalxdım ayağa. Dedim, qızım, nə oldu? Dedi, bəs darvazamızdan Azərbaycan bayrağını asırlar. Dizlərim əsdi, addım atmağa taqətim olmadı. Hətta ayaq üstə dayana bilmədim. Birtəhər sürünə-sürünə evdən bayıra çıxdım. Həyətdə adam əlindən tərpənmək olmurdu. Darvaza taybatay açılmışdı. Həyətin içinə yerləşməyənlər küçədə toplaşmışdılar. Hər tərəf adam idi, millət tökülüb gəlmişdi. Dəli kimi qışqırırdım: Aytən! Aytən! Ölən hansıdı, Orxandı, yoxsa Ənvərdi? Özümü göyə atıb-yerə çırpırdım, başımı qapıya-divara vururdum...

Bir də gördüm qapının ağzında təcili yardım maşını dayandı. Tabutu maşından həyətə endirdilər. Yenə də fəryad qoparıb haray salıram ki, bu, kimin tabutudur? Gördüm Ənvər maşından düşdü və mənə tərəf gəldi. Üstü-başı pis gündə, dizəcən tamam zığa-palçığa bulaşmışdı. Üzünü tük basmışdı. Dedim, Ənvər, bu, Orxanın tabutudur?... Cavabı gözləmədən sürünə-sürünə tabuta yaxınlaşmağa çalışdım. Ənvər qışqırdı ki, mamamı tabuta yaxın buraxmayın. Çox yalvardım ki, sən Allah, dəyməyin mənə, qoyun son dəfə Orxanımın üzünü görüm. Dedim, onu bircə gecəliyinə mənə verin, qoynumda yatırdım.

Qoymadılar... Orxanın tabutunu açıb oğlumla son dəfə görüşə bilmədim. Necə çığırıb özümdən getmişəmsə, bir də onda ayıldım ki, ətrafımda gözüyaşlı adamlar toplaşıb.

Gördüm ki, darvazanın ağzında mübahisə gedir. Yaxınlaşıb soruşdum ki, nə olub? Qızımın həyat yoldaşı dedi, bizə tapşırıq verilib ki, Orxan Bakıda Şəhidlər Xiyabanında dəfn olunmalıdır. Qoymadım. Dedim, yox, olmaz, atası da illərdir həsrət qalıb balasına, Orxan Nadirin yanında dəfn olunacaq. Orxanın harada dəfn olunması ilə bağlı bəlkə də bir saat mübahisə getdi. Axırda Ənvər dedi ki, mamam nə məsləhət bilir, elə də olacaq. Mənə "balamı aparmayın, gətirin mənə!!!", – deyə fəryad etdim. Əlimlə başıma-gözümə döydüm, qiyyə çəkib Orxanın həyətdən çıxarılan tabutunun arxasınca qaçdım. Havalı olmuşdum. Orxanımı oktyabrın 6-da Biləsuvar şəhər qəbiristanında dəfn etdilər...



Bir gün sonra uşaqlarıma yalvardım ki, məni aparın Orxanıma. Getdim, Orxanımı görmədim, qara torpağın altında uyuyurdu. Üstünə Azərbaycan bayrağını sərmişdilər. Diz çökərək oğlumun uyuduğu torpağı, məzarının üstündəki bayrağı öpdüm... Hələ də onun ölümünə inanmıram. Sağlığında oğlumun üzünə həsrət qalmışdım. İndi heç dözə bilmirəm yoxluğuna. Fələk məni yaman yerdə haqladı... Hər gün gedib məzarını ziyarət edirəm Orxanımın.

– Sevil xanım, Orxanın azad etdiyi torpaqlara, şəhid olduğu yerə də getmək istərdinizmi?

– Əlbəttə, istəyirəm. Orxan Füzuli rayonundakı İlanlı dağda gedən döyüşlər zamanı şəhid olub. Nə qədər yalvarıram ki, məni onun şəhid olduğu yerə aparın. Ancaq aparmırlar, deyirlər, həmin ərazilər minalıdır, ora getmək indi təhlükəlidir.


– Sonda nə demək istərdiniz?

– Orxanın itkisi bütün varlığımı, həyatımı alt-üst edib. Bütün sevinclərim onunla gedib. Orxanın itkisi məni nə qədər göynədib və ağrıdırsa, bir tərəfdən də onun şəhidlik zirvəsinə yüksəlməsi qəlbimi qürur və iftixar hissi ilə doldurur. Orxan torpaq, vətən, xalq uğrunda şəhid olub. İndi o, təkcə mənim oğlum deyil, bütün millətin, xalqın oğludur. Təsəllim bir odur ki, hamı Orxanı özünə oğul, qardaş, ən yaxın və doğma adam kimi qəbul edir. Bu gün hamı onun qəhrəmanlığından danışır. Sağ olsun Prezidentimiz, Ali Baş Komandanımız, Orxanı Vətən Müharibəsi Qəhrəmanı adı ilə təltif edib. Qürur duyuram ki, qəhrəman anasıyam.

...Çünki Ulu Tanrı onu belə yaratmışdı – mərd, cəsur, qorxmaz, vətənpərvər. Bəli, vətənimizin bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələnlər qeyrət simvolu, mərdlik məktəbidir. Vətənpərvər olmaq üçün, sadəcə, Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərov, Milli Qəhrəmanlar – Asif Məhərrəmov (Fred Asif), Allahverdi Bağırov, Əliyar Əliyev, Mübariz İbrahimov, Polad Həşimov və İlqar Mirzəyev kimi olmaq yetər. Belə oğullar qanı ilə, canı ilə vətənə bağlı olur. Vətənpərvərlik, torpaq qeyrəti belə oğulların qanına, iliyinə hopur. Vətən məhz belə qəhrəmanlara oğul deyir.

Elbar Şirinov





Orxan Əkbərovun
həyat yoldaşı Nuranə Əkbərova:

"ATA, MƏNƏ ƏRTOĞRULUN QILINCINI GƏTİRƏRSƏN..." – ŞƏHİD QƏHRƏMAN ORXAN ƏKBƏROVUN OĞLU ÇİNGİZ...

2020-ci il oktyabrın 1-də Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Orxan Əkbərovun oğlu, 6 yaşlı Çingizin atasının ölümündən bir gün əvvəl ondan son xahişi belə olub...

2020-ci il sentyabrın 27-də, Ali Baş Komandan, Prezident İlham Əliyevin düşmənin getdikcə artan təxribatlarının qarşısını almaq məqsədilə verdiyi əks-hücum əmri ilə minlərlə igidimiz silaha sarıldı. Və 44 günlük müharibədə 30 il işğalda olan torpaqlarımız ermənilərdən təmizləndi. Qarabağımız öz əbədi və əzəli sahibinə qovuşdu. Bu yolda təbii ki, 3 min nəfərə yaxın igidimiz şəhidlik zirvəsinə ucaldı, minlərlə övladımız qazi və veteran oldu. Bizə tarixi qələbə yaşadan, başımızı ucaldan, alnımızdakı qara ləkəni təmizləyərək, igidlikləri ilə dünyaya səs salan bu qəhrəmanların özləri də, ailələri də daima dövlətimizin və xalqımızın diqqət mərkəzindədir.

Belə igid oğullarımızdan biri də Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovdur.

Orxan Əkbərov ailəli idi. 2 övladı – 9 yaşında Sevil və 8 yaşında Çingiz bizlərə yadigar qalıb. Polkovnik-leytenant Orxan Əkbərov oktyabrın 2-də Füzuli uğrunda gedən döyüşlər zamanı şəhid olub. Lakin qəhrəmanın meyitini oktyabrın 6-da götürmək mümkün olub və elə həmin gün də Biləsuvar şəhərində böyük izdihamla dəfn olunub.

* * *

Belə bir qürur mənbəyimiz olan qəhrəmanın ailəsi və övladları ilə görüşüb söhbətləşmək, Orxansız keçən günlərdə nə düşündükləri, necə yaşadıqları bərədə maraqlanmaq istədik. Qəhrəmanın həyat yoldaşı Nuranə xanım dəvətimizi qəbul edib, 8 yaşlı oğlu Çingizlə qonağımız oldu. Nuranə xanımla olan maraqlı söhbətimizi oxucuların diqqətinə təqdim edirəm və bu müsahibə inanıram ki, hər kəsin ailəyə, vətənə olan sevgisini bir az da artıracaq.

İndidən bircə onu deyə bilərəm ki, Nuranə xanım qəhrəmana layiq ƏSL həyat yoldaşıdır...

– Nuranə xanım, dəvətimizi qəbul edib, gəldiyinizə görə sizə təşəkkür edirəm. Bir şəhid xanımı kimi sizi salamlamaq, görüşüb həmsöhbət olmaq xoşdur. Ancaq gəlin hələlik, həyat yoldaşınız, şəhid polkovnik-leytenant Orxan Əkbərovdan yox, sizdən danışaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Hərbçi xanımının necə çətin bir həyat keçdiyini eşidirik, görürük. Məsələn, polislər də, hərbçilər də elədir. Güc strukturlarının xanımları olmaq olduqca çətindir və siz bu çətinliyə neçə illər sinə gərərək, Orxan Əkbərovla birgə ömür sürmüsünüz? Mən istərdim ki, birgə yaşadığınız o ömürdən danışasınız...

– Orxan Əkbərov elə bir həyat yoldaşı olub ki, onun nə qədər çətinlikləri olsa da, mən ona dözmüşəm və dözərdim. Onunla keçirdiyim o çətin günlər də mənim üçün xoş olub. Mən o çətinlikləri hiss etməmişəm.

– Təbii ki, arada səmimiyyət, istək, sevgi varsa, əlbəttə, bu çətinlikləri də aşmaq asan olur.

– Bəli, xoşbəxtçiliyimizə o çətinlikləri qurban vermişik.

– Maraqlıdır, tez-tez yerdəyişmələr, şəxsi evinizin olmaması, normal şəraitdən uzaq düşməyiniz sizi narahat edirdimi?

– Narahatçılıq bilinmirdi. Onunla özümü heç vaxt narahat hiss etməmişəm. Orxan var idisə, mən özümü xoşbəxt hiss edirdim.

– Görürəm, Orxan bəydən çox sevgi və istəklə danışırsınız. Bəlkə onunla necə tanış olmağınızı yada salasınız.

– Bizim tanışlığımızın çox maraqlı tarixçəsi var. Orxan Əkbərovun anası Sevil Abdullazadə həkimdir. Bir yerdə, səhiyyədə işləmişik. İlk dəfə Orxan anasını işə gətirərkən,

həmin gün də mən iş yoldaşımın toyu idi deyə, onların idarəsinə getmişdim. İş yoldaşımın qardaşı əsgər idi və o da ora gəlmişdi. Gördüm qardaşının paltarı üstündə mazut ləkəsi var... O da toya gəlmişdi. Sonra gəldim işdə danışanda, dedim ki, ora bir əsgər gəlmişdi, paltarında mazut ləkəsi vardı, təmizləməmişdi, çirkli idi. Bu söhbət Orxanın anasına, sonra da özünə çatmışdı. Bir gün Orxan da soyuq aylar idi deyə, anasını işə gətirmişdi. Birdən anasının tibb bacısı gəldi ki, Nuranə, doktor Sevil xanım səni çağırır. Getdim otağına, gedəndə gördüm yanında bir hərbçi də var, bilmirdim oğludur. Anası dedi ki, Orxan, bu qız sənə paltarı mazutlu deyir… Orxan da məndən sakit tərzdə, bir az da maraqla soruşdu ki, doktor, doğrudan siz hərbçilərə paltarı mazutlu-çirkli demisiniz?

Mən də anasına üzümü tutub dedim:

– Doktor, mən sizin oğlunuzu birinci dəfədir görürəm. Ona elə deməmişəm axı…

Anası gülümsəyərək dedi:

– Bəs eşitdim demisən ki, hərbçilərin üst-başı çirkli olur.

Dedim:

– Xeyr, doktor, mən onu sizin oğlunuza deməmişəm. Başqa bir əsgər gəlmişdi, həqiqətən də üstü mazutlu idi, onun haqqında söyləmişdim.

Bu yerdə Orxan müdaxilə elədi: "Xanım düz deyir, əsgərlər təlimdə olanda texnika ilə də işləyirlər, sürünürlər, üst-başları toz-torpaqlı ola bilir… Baxır o əsgərin təmizliyinə fikir verməyinə. Amma bu gün nə mənim, nə də əsgərlərimin paltarında mazut, toz-torpaq var. Vaxtı ilə mənim əsgərlərimdən də eləsi olurdu. Çünki çöldə, Laçında, Füzulidə quru torpaqda, palatkada qalırdıq, təlimlərə gedirdik..."

Mənim sözümün üstündə durmağım Orxanın xoşuna gəlmişdi. Sonra da anasından mənim haqqımda maraqlanıb, o da "məsləhətdir" – deyib... Bir gün də anası məni bir dükana dəvət etdi ki, gəl birlikdə gedək. Getdik. Orxan anasının maşında qalmış telefonunu gətirdi ki, doktor, sizə zəng gəldi. Orxan anasına "doktor" deyə müraciət edərdi. Sonralar mənə deyirdi ki, o zaman səni ona görə çox bəyəndim ki, gördüm içəri adam girir, amma heç reaksiya vermirdin. Onda fikirləşdim ki, bu qızla mənimki tutar, alınar. Başını qaldırıb, dönüb mən tərəfə heç baxmırdın da. Elə bil ki, mən orda yoxam... Mən də o mağazaya girmədim. Onda dedim ki, yox, bu qızla uzun bir yol getmək olar.

– Doğrudan tanışlığınızın çox maraqlı tarixçəsi varmış. Nəhayət, ailə qurdunuz və sizin demək olar gəzintiləriniz, yəni, bu bölgədən o bölgəyə, o bölgədən bu bölgəyə getməyiniz başladı. Bunlar barədə danışaq. Haralarda oldu Orxan sizinlə, hansı bölgələrdə?



– İlk dəfə Beyləqandakı hərbi hissədə işləyirdi. Mən də rayon mərkəzində qalırdım. Ev tutmuşdu kirayədə. Sonra həmin hərbi hissəyə yaxın kənddə ev kirayələdi və biz ora köçdük. Daha sonra xidmət yerini 181-ə dəyişdilər. Ona görə də Füzuli qəsəbəsində qalırdım. Sonra da Ağdama – 190 saylı hərbi hissəyə göndərdilər. 2015-ci ilə kimi orda olduq. Daha sonra yenidən 181-ə dəyişdilər. Ardınca da 218 saylı hərbi hissənin komandiri, kəşfiyyat hərbi hissəsinə komandir oldu...

– Deməli, hərbi hissədə, kəşfiyyat bölməsinin rəisi olub?

– Rəisi olmuşdu. Sonuncu dəfə də hərbi hissənin komandiri idi.

– Bəs ondan əvvəl harda idi?

– 181-də hərbi hissənin kəşfiyyat rəisi olub.

– Bəs neçə ildi xidmət edirdi hərbidə?

– 20 il tamam olmuşdu.

– Yəqin təqaüdə çıxmaq istəyirdi?

– Bəli, pensiya vaxtı çatmışdı. Hələ ki, ehtiyac olduğu üçün saxlamışdılar.

– Görünür, qismətinə şəhid olmaq taleyi yazılıbmış. Gəlin indi də sentyabrın 27-də başlayan Vətən müharibəsindən danışaq. O müharibə ki, qələbəmizlə başa çatan bir Vətən müharibəsi idi. Bir hərbçi ailəsi kimi maraqlıdı bilmək ki, Orxanın döyüşə getməyini necə bildiniz?

– Sentyabrın 26-sı Orxan bizə zəng vurdu. Birdən anası ağladı ki, Orxan, deyirlər müharibə başlayır. Mən bilirəm sən arxada qalmazsan, qabaqda olacaqsan... Orxan da qayıtdı ki, "Doktor, narahat olma, müharibə-zad yoxdur". Sonra mən danışdım, dedim Orxan, müharibə olsa, qabağa getmə. Dedi ki, narahat olmayın, otaqdayam, sakitlikdir. Bir də "ya qismət" dedi. Bu, hələ ki sonuncu da zəngi oldu. Sentyabrın 27-də müharibə başladı, əlaqə

saxlaya bilmədik. Bir də oktyabrın 1-də axşam saat 10-a qalmış zəng vurdu. Gördüm səsi çox zəif gəlir. Dedim ki, müharibədəsən, nədir, səsin niyə zəifdir? Dedi ki, mən aşağıda, "padvalda"yam, yox, müharibədə deyiləm. Səsim də soyuq su içmişəm deyə bir az tutulub. Sən demə, döyüşün ən qaynar yerində imiş. O qədər yüksəkdən komanda verib, əsgər və zabitləri döyüşə səsləyib ki, səsi də batmışdı. Birdən qayıtdı ki: "Uşaqlara yaxşı bax, onları incitmə". Hə, belə dedi. Sonra uşaqlarla danışdı. Qızın da 21 oktyabrda ad günü idi.

Qızı dedi: "Ata, ad günümə gələcəksən?"

Orxan: "Qızım, söz vermirəm. İşim bitsə gələcəm".

Qızı dedi: "Ata, bir tort var, gələndə onu mənə alarsan".

Sonra Orxan mənə dedi:



– Gəlsəm özüm alacağam, gəlməsəm uşağa mütləq o dediyi tortu alarsan. Nə qədər çəkəcəyini mən hələ bilmirəm...

Bu zaman Çingiz televizorda Ərtoğrulun kinosuna baxırdı deyə dedi:

– Ata, mənə qılınc alarsan? Ərtoğrulun qılıncından gətirəcəksən mənə?

Orxan güldü:

– Oğlum, sən Çingiz xansan. İş otağımda o qılıncdan var. Mənə onu türklər hədiyyə edib. Onu sənə göndərərəm. Amma onu bil ki, sən Çingiz xansan. Sən əsas Çingiz xana bax...

Beləcə, bizimlə sağollaşdı. Sonra anası ilə danışdı. Oktyabrın 2-də isə şəhid oldu...

– Həmin gün eşitdiz şəhid olduğunu?




– Xeyr, qardaşı bilmişdi, biz bilməmişdik... Oktyabrın 4-də əmimin ildönümü idi, mən də orda idim. Orda olanda atam məni evimizə gətirdi. Gətirəndə bizim qapının ağzında gördüm ki, xeyli adam yığışıb. Bizim maşın dayananda aralaşdılar. Sonra mən düşəndə həyətə girirdim, gördüm ki, Orxanın Rəşad adlı rayonda bir dostu var, o gəlib atamı qucaqladı, onun qulağına nəsə dedi. Atam da mənə "Siz içəri keçin", – dedi.


Dedim ki, Rəşad nə deyir?

Dedi ki, apar uşaqları içəri, gözləyin. Heç nə, işi vardı mənimlə.

Dedim ki, Rəşadın burda nə işi var bu vaxtı? Gecə saat 12-yə işləyir.




1989
Biləsuvar Şəhər Nizami adına I saylı
orta məktəbin buraxılışı
1999
Direktor


Unutmarıq o illəri!
Gərək yeri hər il xəritə
25 saat 12-ci məktəbə

Bir-iki maşın da var idi. Onlar da qaynımgil idi. Onlar da biliblər. Gəldim evdə dedim ki, məhlədə nəsə olub, Orxanın dostları, sonra Tofiqin qardaşı Ramingil... hamısı buraya yığılmışdı. Sonra anam zəng elədi qaynıma ki, Elnur, uşaqlardan soruş gör məhləmizdə nə olub? Dedi ki, əşi, soruşdum, heç nə olmayıb, "avariya" var imiş, ona görə gəliblər...

Ardınca mənə zəng gəldi ki, bəs qaynım Ənvər yaralanıb. Mən də Orxanı yığdım, gördüm zəng çatmır, Ənvəri də yığdım, gördüm ona da zəng çatmırdı. Bacımı yığdım ki, bəs ataya Orxanın dostu nə deyirmiş, dedi ki, heç nə deməyib, bilmirəm, ata rayonda iclasdadı. Deməli, atama xəbər çatıb, atam gedib. Gələn qonaqlar da hamısı – əmiləri, bibiləri – rayonda bibisinin evi var, yığılıblar onlara. Bəs deyiblər ki, dəqiq məlumat bilinmir, onlar neytraldadır. Ona görə də sağdı, yaralıdı, şəhiddi, bilinmir. Onu görməyincə nəsə demək olmaz. Ona tapşırıq gəlib deyə, özündən başqa beş nəfər də götürüb, gedib. Sonradan Orxan əsgərləri geri qaytarıb ki, mən bu qədər əsgər analarını gözü yaşlı qoya bilmərəm. Onlar bu işi bacarmaz. Ona görə də özü gedib və orda da şəhid olub *(kövrəlir)*.

– Nuranə xanım, Allah bütün şəhidlərimizə rəhmət eləsin!

– Səhər oldu... Mən gecəni fikir içində keçirtdim. Bir dəqiqə də olsun yata bilmədim. Səhər xəstəxanaya zəng elədim, maraqlandım ki, bəs deyirlər Ənvər yaralıdı, ora gətirməyiblər? Dedilər ki, yox, gəlməyib bizim rayona, amma eşitmişik elə bir söz. Qızlar da elə Orxanın şəhid olmağını biliblər, mənə deməyiblər. Axşam oturmuşdum, bir anlıq məni yuxu apardı, yuxuda gördüm ki, Orxan ayağı yaralı gəlib və anası ağlayır ki, mən sənə dedim ki, qabağa getmə. O da anasına sərt cavab verir. Heç vaxt

anasına sərt cavab verməzdi. Cavab verir ki, sən müharibə başlamamış ağlayırsan da, niyə ağlayırsan? Ağlama, heç nə yoxdu. Mən də deyirəm ki, gətir yaranı bağlayım, deyir ki, ehtiyac yoxdu, get uşağa tort al. Uşağı incitmə... Ayıldım, yenə qaynıma zəng vurdum. Ənvər açdı, dedim ki, bəs eşitmişəm ki, yaralısan. Dedi, hə, ayağımdan yaralanmışam, Gəncədəyəm.

– Orxanın qardaşı da döyüşürdü?

– Bəli, pilot idi qardaşı...

– Təyyarə, qırıcı, yoxsa vertolyot?

– Dronları idarə edirdi. Onlar gözləyirmişlər ki, qruplar getsin bunları götürsün. Mühasirəyə düşüblər. Neytralda çətin yerdə olublar.

– Ənvərgil istəyib Orxangili götürsün?

– Artıq oktyabrın 5-i idi, gedə bilmirlər, mən Ənvərlə 5-də danışmışam. Mən də məktəbdə müəllimlər günü idi, dedim ki, uşaqları məktəbə aparım, müəllimlərə hədiyyə alım. Qonşu gəlin də mənə zəng elədi ki, necəsiz? Dedim sağlıqdı, soruşdu ki, bəs Orxandan nə xəbər? Dedim onlardan xəbər yoxdur. O da qayıtdı ki, onda uşaqları sən çıxarma, yoldaşım aparar. Oğlum Çingizlə Sevil bir sinifdə oxuyurdu. Dedim yox, özüm apararam, dedi, yox, sən çıxma, mən də çıxmıram, yoldaşım aparar elə. Uşaqlar da elə onunla getdi. İndi bunlar düşünüb ki, mən çıxaram, məhlədə eşidərəm. Heç olmasa, qoy küçədə eşitməyim...

Bir də onda gəldilər ki, yox, Orxan sağdı. Yoldaşları hərbçi olan tanıdığım gəlinlər var idi, onlarla əlaqə saxladım. Xəbər gəldi ki, Orxan sağdı, anası anamla getdilər məscidə, ziyarətgahlara nəzir apardılar. Qonaq da çox idi. Onda bir də eşitdim ki, qışqırtı çıxdı. Çölə çıxdım ki, bayraqlar, güllər gətirirlər bizim həyətə...

– Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ağır itkidir. Amma vətən yolunda, torpaq yolunda gedən itkimiz-

dir. Biz bunu həmişə baş ucalığı ilə deyirik. Yəqin ki, döyüş yoldaşlarından eşitmisiz hansı qəhrəmanlıqları, fədakarlıqları göstərib. Onlar barədə nəsə eşitmisizmi dostlarından?

– Dostları gələndə, qaynım danışarkən eşitmişəm. Bütün tapşırıqların hamısını qəhrəmancasına yerinə yetirib, ermənilərə çox böyük zərbələr vurub.

– Yəqin yaxşı kəşfiyyat məlumatları əldə edib ki, bu da düşmənə ağır zərbələr endirilməsinə səbəb olub.

– Bəli, hərbi qənimətlərin əldə olunmasında rolu çox olub...

– Nuranə xanım, bilirik ki, Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla, dövlət tərəfindən şəhidlərə çox böyük qayğı və diqqət göstərirlər. Bunlar barədə də sizin fikrinizi bilmək istəyirik. Orxanın o qədər qəhrəmanlıqları olub ki, ona Vətən Müharibəsi Qəhrəmanı adı verilib. Fəxrimizdir, qürur mənbəyimizdir. Bir şəhid və qəhrəman xanımı kimi siz dövlət tərəfindən hansı qayğıları görmüşünüz?

– Öncə Prezidentinə təşəkkürümü bildirirəm, bir qəhrəman ailəsi olaraq. Onun xidməti dövrünün çətinliklərini, zəhmətini, müharibədəki igidliyini qiymətləndirərək Vətən Müharibəsi Qəhrəmanı adı verildi. Dövlətimiz Qəhrəman ailəsi kimi bizi üçotaqlı mənzillə təmin edib. Maraqlıdır ki, püşk yolu ilə verilən mənzilin nömrəsi də Orxan xidmət edib şəhid olduğu 218 nömrəli hərbi hissə ilə eyni idi. Mənzilin də nömrəsi 218-dir. Püşkü Çingiz götürmüşdü. Mən ilk dəfə sənədləri götürməyə gedəndə komunalda, ev nömrəsi 218, deyiləndə çox kədərli oldum. Bu da bir tale qismətidir...

– Dövlətimiz doğrudan da Şəhid ailələrinə çox böyük qayğı və diqqət göstərir. Çingizin adını çəkdiniz. Qoy bir

Çingizi də danışdıraq: Çingiz bala, atanı necə xatırlayırsan, deyir ayın 1-də axşam danışmısan atanla?

– Danışmışdıq. Dedim ki, mənə Ərtoğrulun qılıncını gətirərsən. Dedi işdə var, gələndə gətirərəm. Dedim ki, nə vaxt gələcəksən? Dedi ki, gec gələcəm.

– Məktəbə gedirsən yəqin ki, bir şəhid övladı kimi hamı sənə hörmətlə yanaşırmı?

– Bəli.

– Məktəbdəki tədbirlərdə şeir demisənmi şəhidlər haqqında?

– Xeyr, mən şeir deyə bilmirəm.

– Dediyin qılınc gəlib çatdımı sənə?

– Bəli.

– Gün o gün olsun ki, əliniz qılınc, silah tutub döyüşməyə sizlərin ehtiyacı olmasın. Olmayacaq da heç. Atan, qəhrəmanlarımız bu yolda şəhid oldular ki, sizlər azad, firavan yaşayasınız.

Nuranə xanım:

– Çingizin ad günü noyabrın 7-dədir. Atasının döyüş dostları 8 noyabrda Zəfər Gününü Çingizə hədiyyə ediblər. Mən hər zaman deyirəm ki, onu sənə hədiyyə eləyiblər. Atanın qisası alındı.

– Bağışlayın, Nuranə xanım, sizi köhnə xatirələrə, Orxanlı günlərə qaytardıq. Bizim də borcumuzdur ki, şəhidləri, onların etdikləri fədakarlıqları, qəhrəmanlıqları ictimaiyyətə çatdıraq. Hamı tanısın. Düzdü, döyüşdə iştirak edən hər bir əsgər, zabit qəhrəmandır. Amma seçilmişlər də var. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Elçin Məmmədli



Yusif Əkbərov,
Orxan Əkbərovun əmisi, tarix müəllimi:
Orxan Əkbərov: "Ana, Vətən sağ olsun!"

Orxan Əkbərovun əsgərlərinə dedikləri: "Ölüm onsuz da hamı üçün gec-tez var. Ya elə, ya belə. Xoş o adamın halına ki, şəhid ola, bayrağa bükülə gedə, kəfənə yox".

– Yusif müəllim, siz Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Orxan Əkbərovun əmisisiniz. Əmi həmişə, mən öz təcrübəmdən bilirəm ki, qardaş oğlu üçün şirin olur. Ona görə də Orxan Əkbərovun uşaqlığı barədə bir az danışmağınızı istəyirəm ki, şəhidimiz haqqında daha məlumat öyrənək. Uşaqlığı necə keçib? Dəcəlmi, sakitmi olub? Ətrafındakı dostlarıyla münasibətləri necə olub? Gözünüzün qabağında böyüdüyü üçün yəqin siz daha çox məlumatlı olarsınız.

– Çox sağ olun ki, Orxanı yada salırsınız. Orxan uşaqlıqdan çox ağıllı, dərrakəli olub. Çox yol-yolağı bilən idi. Düzdür təbii ki, bu da uşaqların çoxusunda olan xarakterdir. Elə bu dəcəlliyinin nəticəsidir ki, uşaq vaxtı onu bir dəfə tok vurmuşdu. Amma Allahın qismətindən bir şey olmadı. Tok onun belindən vurub çıxmışdı. Şükür Allaha ki, yaxşı qurtardı. Elə bil Allah onu şəhidliyə hazırlayırmış. Orxan böyüdü, atası da həmin vaxtlar insult keçirmişdi, xəstə idi. Bu səbəbdən daha çox çalışırdı, yəni həyatı görən, ailəni düşünən biri idi.

Atası polis rəisi olub. Yəqin buna görə də, böyüyəndə hərbçi olacağam, deyirdi. Ona görə də atası onu uşaqlıqdan hərbiyə hazırlayırdı. Onu beləcə hazırlaşdırdı və indiki kimi yadımdadı, getdi qəbul oldu Ali Hərbi Məktəbə. Mən Sabunçu qəsəbəsində yaşayıram. Bizə qardaşı Ənvərlə tez-tez gələrdi. İkisi də çox əxlaqlı, sakit uşaqlar idi. Orxan heç vaxt artıq kəlmə işlətməzdi, nə düşündüyünü, planlaşdırdığını bilmək olmazdı. Bir az irəli gedib bunu deyim ki, bu qədər vaxt hərbi xidmətdə oldu, bir kəlmə də olsa, hərbi hissəylə bağlı, nə iş gördüyü barədə

heç vaxt danışmazdı. Elə bil bu uşaq anadan olandan Allah belə yaratmışdı.

Bir də onu deyim ki, Orxan inanclı və imanlı uşaq idi. Mən özüm Türkiyədə oxuyanda öz xoşuma, bizim zona bir az dindar olduğu üçün, Qurani-Kərim oxumağı öyrəndim. Orxan mənim Quran oxuduğumu biləndə dedi ki, əmi, mən də öyrənmək istəyirəm. Deməli, Orxan bir-iki kəlmə məndən öyrəndi, sonra getdi Quran dərsinə, orada başladı Quranı öyrənməyə. Onun iki dənə Quran kitabı var idi və onlar indi də durur. Quranı beləcə öyrəndi.

Qoy bir az da irəli gedərək deyim ki, şəhid olandan sonra mən Biləsuvardakı evlərinə getdim. Dedim, Orxanın Quran dərsinə gedəndə oxuduğu Quran kitabını gətirin, yasin oxuyum. İki ədəd Quran kitabı gətirdilər. Biri uşaq vaxtı dərsə getdiyi Quran kitabı idi, o birini də iş otağından gətirmişdilər. Deməli, iş otağından gətirdikləri Quranı açdım. Bilirsiniz qarşıma nə çıxdı? İnanmazsınız, Bəqərə 154-cü surə – şəhidlik haqqında surədir. Yazılıb: "Şəhidlərə ölü deməyin, onlar Allah yanında ruzilənirlər". Yəni, Orxan şəhidliyi göz altına almışdı. Allah da elə bil bunu şəhidliyə hazırlamışdı. Hətta son günü evdən gedərkən anasına dönüb deyib ki, ana, Vətən sağ olsun! Yəni, onu gözə almışdı.

Əsgərlərin dediyinə görə, Orxan həmişə onlara xüsusi olaraq deyirmiş ki, "Ölüm onsuz da hamı üçün gec-tez var. Ya elə, ya belə. Xoş o adamın halına ki, şəhid ola, bayrağa bükülə gedə, kəfənə yox". Orxanın vətənpərvərliyi həddindən artıq yüksək idi və əsgərlər də ondan çox razılıq edirdilər. Mən Youtube-da şərhləri oxuyuram, deyir ki, Orxanın hərbi hissəsində olan əsgərlər ondan çox razı idilər. Hətta bizim yerlilərdən biri var idi, deyir ki, təzə gələn əsgərlər oranın yeməklərini yeyə bilmirdilər, deyir çıxarıb cibindən pul verirdi, deyirdi, get istədiyini

al ye. Anası danışırdı ki, aldığı maaşı hərbi hissədə əsgərlərə yaxşı şərait yaratmaq üçün xərcləyirdi.

– Yusif müəllim, bax bu uşaqlığını, sonrakı hadisələri danışdınız. Hərbi məktəbə daxil olmağından və necə bir döyüşçü, əsgərlərini sevən komandir olmağından, şəhid olmağa hazırlaşdığından söhbət açdınız. Bildiyimiz kimi, sentyabrın 27-si 2-ci Qarabağ döyüşü başladı. Maraqlıdır, siz nə vaxt bildiniz ki, Orxan döyüşdədir?

– Mən onsuz da bilirdim ki, Orxan belə bir döyüşü çoxdan gözləyirdi və o döyüşdən qalan deyildi. Məlumat üçün deyim ki, Orxanın pensiya vaxtı çatmışdı. Bundan əlavə, müharibə başlayan ərəfədə Orxanı Müdafiə Nazirliyinin xarici kəşfiyyat idarəsinə işə götürmüşdülər. Orxan dedi ki, vətənin bu halında mən o işə getmirəm. Müharibə qurtarar, inşallah, ondan sonra gedərəm.

– Bəs döyüş fəaliyyəti barədə nəsə eşidib, bilirsinizmi?

– Tam səmimi deyirəm ki, Orxan heç vaxt, heç bir məlumat verməzdi. Danışanda belə "necəsən, sağ ol əmi"dən ayrı söz eşitməzdim. Orxan, dediyim kimi, anadangəlmə kəşfiyyatçı idi elə bil. O adam deməzdi ki, mən hardayam, nə iş görürəm, erməni vurdum, neynədim, nə silah işlətdim və s. Belə söhbətlər ola bilməzdi.

– Bəs şəhid olma xəbərini necə eşitdiniz?

– Oktyabrın 2-si idi. Evdəydim, axşamçağı idi. Kiçik qardaşım zəng elədi və dedi ki, Orxan şəhid olub. Özümdən getdim *(Bu yerdə Yusif müəllim kövrəlir, danışmağa bir xeyli pauza verir – E.M.)*. Çox çətindi danışmaq. Allah şahiddi ki, o halı yaşamaq çox çətin oldu bizə. Birincisi, yüksək qanacaq-qabiliyyətinə görə hamımız onu çox istəyirdik, ikincisi, doğmamızdı, qanımızdı, üçüncüsü də Vətən uğrunda getmişdi. Bu da həm qürurludu, həm də kədərlidi. Elə həmin gecəylə maşın tutub getdik. Yağış da yağırdı. Biz ailəlikcə Biləsuvara getdik.

Bacımgil də Biləsuvarda olur. Bütün kənd bacımgilin həyətinə yığışmışdı. Biz əslən cəlilabadlıyıq. Qardaşım Cəlilabaddandı, xanımı Biləsuvardan. Evin tək qızı olduğu üçün elə qardaşım da köçüb orda yaşadı. Deməli, getdik bacımgilin həyətinə, kənddə 15 min əhali varsa, bəlkə də 5 mini bizim qohum-əqrəbadı. Hamı gəldi yığışdı. Orada gözlədik. Mən dedim gözləməyin nə mənası var, camaat dağılışdı.

Dörd maşınla meyiti gətirmək üçün getdik. Orda hospital var, gözlədik. Qardaşı Ənvər də orda idi. Təcili yardım maşınlarının biri gedib-biri gəlirdi. Orxanı nə vaxt gətirəcəklərini gözləyirdik. Dedilər ki, heç cürə meyiti götürmək mümkün deyil. Hətta general Mais Bərxudarov xüsusi maşın göndərmişdi, ermənilər onu da vurmuşdular. Həmin yer atəş altında idi deyə Orxanın meyitini heç cürə götürmək mümkün deyildi. Dörd gün meyiti götürmək mümkün olmadı. Axırı mən Ənvərə dedim ki, üstünə çox getməyin, çünki ermənilər də Orxanın meyitini götürmək istəyirdilər. Ermənilər Orxanın başına pul qoymuşdular. Axırı Ənvərə dedim ki, onu necə olsa, çıxardacaqlar, sən getmə. Amma bilirdim ki, Ənvər qalan deyil. Ənvər getdi. Dörd gün sonra nə zülmlə, böyük risk altında meyiti çıxartdılar.

Sizə bir söz deyim. Heç bir ana oğlunun ölüsünə qurban deməz. Anası oğlunun gətirilməyinə qurban dedi və meyiti gələndə qurban kəsib payladı.

– Yusif müəllim, çox ətraflı danışdınız, kövrəldiniz də, təbii ki, şəhidlər bir evin, bir ailənin deyil, bütöv bir xalqındır. Amma mənə çox maraqlıdır, siz tarix müəllimisiniz, şagirdlərə tarixdən dərs deyirsiniz. Elə haqlı olaraq deyirlər ki, tarixdən "2" qiymət alanlar Vətən sa-

vaşında qanları ilə tarix yazdılar. Siz indi bu tarix yazanlar haqqında şagirdlərinizə nəsə söhbətlər edirsinizmi və onlara necə təsir edir?

– Bəli, mən xüsusən "Zəfər tarixi"ndən dərs deyirəm. Özüm direktordan xahiş etdim ki, "Zəfər tarixi" dərsini mənə versin. Şagirdlərə deyirəm ki, baxın, neçə əsr əvvəl, lap min il əvvəl olan qəhrəmanlarımız bu gün tarixdə anılır. Yüz illər keçəcək, indi Vətən uğrunda canını verən qəhrəmanlarımız da anılacaq. Tarix boyu dünya durduqca, tarix yazıldıqca onların qəhrəmanlığından danışılacaq, gənc nəsillərə nümunə olacaqlar... Məsələn, sıravi bir insan öləndə bir müddət sonra unudulur, yalnız doğmalarının yaddaşında qalır. Amma Vətən uğrunda göstərilən bu qəhrəmanlıqlar həmişə yaşayacaq. Allahın kitabı olan Qurani-Kərimdə yazılıb ki, şəhidlər ölmür, onlar diridir, Allah yanında ruzilənirlər. Həm də biz görürük ki, tarixdə neçə min il əvvəl olan qəhrəmanlar bu gün də yaşayır. Xoşbəxt o insanlardır ki, onlar tarix boyu yaşayacaqlar.

– Yusif müəllim, çox sağ olun, qardaşınızın şəhid balası haqqında hərtərəfli məlumat verdiniz. Təbii ki, biz Orxan və digər şəhidlərimiz haqqında qısa müddətə danışmaqla, onların qəhrəmanlığı barədə xatirələr qurtarası deyil. Çox gözəl qeyd etdiniz ki, tarix boyu danışılacaq. Azərbaycan durduqca şəhidlərimiz də yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət etsin, sizə də can sağlığı, uzun ömür versin ki, onların qəhrəmanlığı haqqında hələ neçə-neçə nəsillərə danışasınız.

– Mən də sizə Orxanın əmisi kimi təşəkkür edirəm!

Elçin Məmmədli



Elnur Əkbərov

(Şəhid Orxan Əkbərovun qardaşı):

"Uşaqlıq illərində çox vaxt davada mən olurdum, amma sonradan məni Orxana oxşadıb onun qarşısını kəsib aydınlaşma aparırdılar"

– Elnur bəy, sizinlə görüşmək bizə xoşdur. Həqiqətən elimizin adətiylə bir eloğlu kimi bizi sizin evə, Biləsuvara gətirən bir səbəb var. Şəhid, Vətən Müharibəsi Qəhrəmanı qardaşınız Orxan Əkbərovun evindəyik. Siz qəhrəmanın ən kiçik qardaşısınız. Əlbəttə, qardaşlar bir-birinə həmişə öz sirrini deyirlər. Uşaqlıqda adamın həmişə güvəndiyi bir yer olur. Xüsusilə də balaca qardaş həmişə böyük qardaşa çox güvənir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ona görə də bizi Orxanın uşaqlığı da maraqlandırır. Yəni, böyük qardaşınız olub. Necə keçib uşaqlığı, necə qardaş olub sizə?

– Orxan yaxşı qardaş olub, sakit uşaq olub, hamının hörmətini saxlayıb. Mehriban insan olub, heç kimlə işi olmazdı, vətənpərvər oğlan olub. Uşaqlıqdan hərbiyə marağı çox olub, istədiyinə də nail olub hərbçi oldu...

– Böyük qardaşınız Ənvər bəy bizimlə söhbətində dedi ki, Orxan hərbi məktəbdə oxuyanda hərdən formada evə gəlirdi və onda da maraq oyanırdı ki, həmin formanı geyinsin. Səndə də belə bir hiss olurdumu?

– Bəli, məndə də belə bir maraq olub. Mən də 8-ci sinifdə oxuyarkən Naxçıvanski adına hərbi məktəbə sənəd vermişdim. Qəbul olmağıma Orxan icazə vermədi. Çünki atam xəstə idi. Evdə onun qulluğunda durmağa bir adam lazım idi. O da fikirləşirdi ki, böyük qardaşımız Rusiyada idi. Ənvər də oxuyurdu, Orxan da oxuyub deyə məni qoymadı.

– Deməli, sənin də ürəyindən keçib ki, hərbçi olasan.

– Dediyim kimi, mən 8-ci sinifdən hərbi məktəbə sənəd vermişəm. Qabiliyyət imtahanından da keçmişdim. Sonra sənədlərimi götürüb qayıtmışam.

– Orxanın məktəbdə oxuduğu illər yadındadırmı? Onun məktəbdəki sinif yoldaşlarıyla davranışları, məhəllə və qonşu uşaqlarla rəftarı necə olub?

– Ondan çox kiçik olsam da, yadımdadır ki, həmişə belə bir xasiyyəti vardı, xırda bir şeylə hamını sevindirə bilirdi və yaxud da, həmişə uşaqların içində lider, öndə olan bir uşaq olub. Orxan belə bir oğlan idi. Bir də görürsən küçədə nə isə oyun oynayaq, adi bir xırda şey olsun, hamı ondan məsləhət alardı, soruşardı bunu necə eləyək, bu işin dalınca necə gedək ki, bizə xeyirli olsun? Elə əvvəldən onda liderlik qabiliyyəti vardı.

– Orxanı nə vaxtsa davaya sürükləmisiniz ki, gedək filankəslə dava edək?

– O qədər olub, mənə görə çox əziyyətlər çəkib. Evin ən kiçiyi olduğuma görə, ərköyün olmuşam, mən həmişə elə dalaşırdım. Bir maraqlı məqamı deyim ki, bizim bir-birimizə bənzərliyimiz daha çox idi. Çox adam bizi səhv salırdı. Çox qardaş olanda təbii ki, belə şeylər mütləq olmalıdır. Mən qəssab işləyirəm. Bir dəfə birinə quzu söz vermişdim. Bu ərəfələrdə də Orxan evə gəlmişdi. Kəndə çıxanda həmin adam Orxanın qarşısını kəsib demişdi ki, bəs nə oldu, mənə quzu söz vermişdin? Orxan əvvəlcə təəccüblənib, sonra başa düşüb ki, həmin adam mənimlə onu səhv salıb. Yəni, biz bir-birimizə çox oxşayırdıq. Orxan sakit təbiətli, mən isə dəcəl olmuşam. Uşaqlıq illərində çox vaxt davada mən olurdum, amma sonradan Orxanın qarşısını kəsib aydınlaşma aparırdılar. Mənimlə onu səhv saldıqları üçün, deyilənlərə görə, çox əziyyətimi çəkib.

– Belə başa düşdüm ki, davalardan həmişə qalib çıxırdınız.

– Bəli, həmişə biz qalib gəlirdik. Orxan çox güclü idi və dalaşmağı da yaxşı bacarırdı... Nə isə... Allah rəhmət eləsin, Allah qalanlara can sağlığı versin. Bizim dayağımız idi.

– Orxanın 20 illik hərbi xidmət dövrü sizin üçün necə keçib? Deyəsən, hərbidə 20 ildən çox xidmət edib və o müddət ərzində tez-tez görüşə bilirdinizmi? Görüşəndə onun işiylə bağlı hansısa mövzudan söhbət açırdınız, yoxsa ayda-ildə bir dəfə rastlaşdığınız üçün tamam başqa məsələlərdən söhbət edirdiniz?

– Orxan hərb işinə çox bağlı idi. Evə çox da gəlməzdi. Yəni öz hərbi hissəsini, öz əsgərini, belə deyim, kiməsə etibar eləməzdi. Həmişə işinin üstündə olardı. Elə olurdu

ki, ildə bir dəfə, o da bir-iki günlük anamızı görməyə gələrdi və onda imkan olanda görüşərdik. Vallah, elə olub ki, üç il görməmişik bir-birimi. Öz işinə o qədər bağlı insan olub ki, evə gələ bilmirdi. Həmişə xidmət yerində, əsgərlərinin yanında olardı... Rastlaşanda da, həmişə deyirdi ki, hərbidə əziyyət çəkən oğlanlar var, siz burada deyirsiniz ki, çətinliyimiz var. Oradakı əziyyətləri, çətinlikləri görsəniz, belə danışmazsınız.

– Həqiqətən də əsl hərbçi olub və işini, əsgərlərini qoyub tez-tez evə gələnlərdən olmayıb.

– Öz əsgərlərini dəhşətli dərəcədə çox istəyirdi.

– Elnur bəy, keçək indi də zəfərlə başa çatan 44 günlük müharibəyə. Heç hələ bilmirdiniz ki, Orxan döyüşə gedib-getməyib. Sentyabrın 27-də müharibə başlayanda bunu necə qarşıladınız? Nə fikirləşdiniz həmin anda?

– Onsuz da mən, bunu dostlarım da bilir, elə müharibə başlamamışdan getdim, özümə lazım olan hərbi paltar aldım. Uşaqlar dedi ki, bunları neyləyirsən? Dedim ki, bilirəm də, mənim qardaşlarım hərbçidir. Onlar da elə bir uşaqlardır ki, mütləq döyüşün ən qızğın yerində olacaqlar və onlara nə isə olacaq. Hamı dedi, elə şeyi adam fikirləşərmi? Dedim vallah, mənim qardaşlarım elə bir qeyrət sahibidirlər ki, heç vaxt nə arxada qalar, nə də yanındakıları qoyub qaçarlar. Müharibədə də elə insanların başı həmişə bəlada olur. Özləri də ya qazi olur, ya şəhid. Çünki döyüşdən qaçmaq nə bizim qanımızda, nə milli ruhumuzda var.

– Bəs Orxanın döyüşdə olmağını necə eşitdiniz?

– Biz bilirdik ki, komandir də insandır. O mütləq bu döyüşlərdə iştirak edəcək və özü də öndə olacaq. Belə də oldu. Döyüşdə çox böyük şücaətlə iştirak edib.

Məsələn, üzr istəyirəm, həyat yoldaşı Nuranə xanım bizimlə söhbət edəndə dedi ki, anasına heç vaxt deməyib ön cəbhədədir, deyirmiş arxa cəbhədəyəm. Anam da həmişə deyirdi ki, qabağa getmə ha, arxada dayan. Onsuz da o həmişə elə deyirdi. Özü də həmişə anam deyib ki, sənin xasiyyətini bilirəm, sən arxada dayanan deyilsən... Biz qardaşlar həmişə belə olmuşuq. Hər hansı bir çətinlik olanda, bunu anamıza deməzdik. İstəməzdik valideynlərimizə əziyyət verək. Çünki onlar bizə görə vaxtında çox əziyyətlər çəkiblər. Nə qədər çalışsaq da, nə qədər çiynimizdə gəzdirsək də, onların əziyyətini, halallığını qaytarıb verə bilmərik. Ona görə bundan sonra da istəməzdik ki, hansısa bizim lap kiçik də olsa, əziyyətimizi görüb dərd çəksinlər. Orxan da elə bir oğul idi ki, heç kimə deməzdi mən qabaqda döyüşürəm. Elə hamını arxayın salırdı ki, komandir adamam, mən arxadayam, qabaqda nə işim var? Sən demə, elə ən qabaqda gedən özü olurmuş.

– Bəs onun şəhid olma xəbərini necə eşitdiniz?

– Mən şəhid olma xəbərini o biri qardaşım Ənvərdən eşitdim. Oktyabr ayının 2-si idi, Ənvər mənə zəng vurdu ki, Orxan vurulub, gəl Füzuliyə. Gəldik, dörd gün sonra, ayın 6-sı nəşini götürdülər və apardıq Biləsuvara.

– Onun indiyə qədər və həmin ərəfədə döyüş dostlarıyla söhbət eləmək imkanınız olubmu və nələr eşitdiniz, nələr dedilər Orxan haqqında?

– Orxan haqqında, sağ olsunlar, hamı onun qəhrəmanlığından danışıb, yaxşı insan olmağından ürək dolusu söhbət açır. Həqiqətən də Orxan elə bir qəhrəman qardaş idi.

– Konkret hansısa epizodlardan danışıblarmı ki, necə qəhrəmanlıq edib?


– Vallah, onlar elə bir ixtisas sahibidir ki, çətin nəsə deyəydilər. Kəşfiyyatçılar hərbi sirri qorumağı bacarırlar. Heç Orxanın özü də nə bizə, nə də ətrafındakılara heç nə deməzdi... Doğrudur, döyüşə-döyüşə düşmənin içərilərinə doğru 15 kilometr gediblər və mühasirəyə düşüblər. Altı nəfərlə mühasirədə şir kimi döyüşübdür. Eşitdiyimə görə, həmin çətin məqamda mühasirəni yarıb, hamının çıxa bilməsi üçün Orxan özü ilə körpə uşağı, ailəsi olanları götürməyib ki, başlarına bir hadisə gələrsə, arxada gözü qalan olmasın. Beləcə, subay uşaqları yanında aparıb... Bu da, nəinki vətənpərvərlik, həm də bir insani duyğudur, insani keyfiyyətdir. Orxan ən çətin məqamda da özünü yox, başqasını fikirləşib.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

– Amin!

Elçin Məmmədli





Bəhruz İbrahimov
(Orxan Əkbərovun uşaqlıq dostu,
Milli Qəhrəman Mübariz İbrahimovun qardaşı)

"Siz taleyin hökmünə baxın, Ənvər də bir qardaş itirib, mən də..."

– Bəhruz bəy, bizim bura gəlişimiz, məqsədimiz Vətən Müharibəsi Qəhrəmanı, II Qarabağ döyüşündə şəhid olmuş Orxan Əkbərovla bağlı xatirələrinizi eşitməkdir. Orxanla uşaqlıq dostu olmusunuz. Sizin fikirləriniz bir də ona görə maraqlıdır ki, Azərbaycan xalqının qürur mənbəyi olan, Azərbaycan xalqının həmişə qəhrəmanlıq ünvanı kimi bir istinadgahı olan Mübariz İbrahimov kimi bir Milli Qəhrəmanın qardaşısınız. Necə xatırlayırsız uşaqlıq illərinizi Orxanla?

– Orxan uşaqlıqdan cüssəli, əzmkar, prinsipial idi, idmana, hərbiyə həvəsi elə o uşaqlıq illərindən var idi.

Bizim uşaqlığımız bir yerdə keçib. Bizdə Heydər Əliyev parkı var, uşaqlığımız orda məşq eləməklə keçirdi. Orda da o özünü göstərirdi ki, bu gələcəyin qəhrəmanıdır, gələcəyin şərəfli zabitidir. Demək olar, həmişə qardaşım Mübariz, mən, Orxan və qardaşı Ənvər bir yerdə məşq edərdik.

– Bəs o hansı xüsusiyyətiylə yaşıdlarından, sizin kimi dostlarından fərqlənirdi? Orxanda hansı bacarıq var idi ki, onu siz edə bilmirdiniz? Yaxud da, eşitmişəm ki, o yaman hazırcavab olub...

– İdmanda onun elədiyi cəld hərəkətləri biz edə bilmirdik. Hə, düzdür, həm də çox hazırcavab idi. Qabaqcadan bilirdi ki, sən ona nəsə demək istəyirsən və dərhal da cavabını verirdi. Vallah, Orxan haqqında o qədər xoş sözlər demək olar ki.

– Davakar olubmu?

– Yox. Yox, davakar olmayıb, sakit təbiətli olub.

– Hamımız görmüşük ki, uşaqlıqda müxtəlif səpgili davalar, mübahisələr olur.

– Yox, yox, elə şeylərə meyilli deyildi. Çox sakit, amma içində alov olduğunu hiss edirdik ki, böyük enerji var. Amma çox sakit, təmkinli, mədəni idi.

– Qarabağdan söhbət düşəndə nə deyirdi? Yəqin Qarabağ söhbəti aranızda mütləq olub. Sən axı Milli Qəhrəman, şəhid Mübariz İbrahimovun qardaşısan. Təbii ki, Orxan bu barədə ola bilməzdi ki, maraqlanmasın ki, necə olub, nə təhər olub və s.

– O vaxt onun arzusuydu hərbçi olmaq. Şərəfli hərbiçi olmaq, zabit olmaq arzusu ilə yaşayırdı. Hətta demək olar ki, biz üçümüz: mən, Mübariz və Orxan bir yerdə hərbçi olmağa hazırlaşırdıq... 11-ci sinfi bitirəndə müəy-

yən səbəblərdən məndə alınmadı. Amma həkim komissiyasından da keçmişdik. Sözün açığı, mənim atam icazə vermədi. İcazə vermədi, dedi bala, sən davakarsan, sənin dalınca türmələrdə sürünəsi halım yoxdur. Mən də dedim ki, oxumağa gedirəm, hərbçi zabit olmaq istəyirəm. Nə isə... İcazə vermədi. Valideyn icazə verməsə getmək olmaz axı. Mən də ona görə hərbçi ola bilmədim. Amma Orxangilə Allah-taala qismət elədi, onlar hərbçi oldular.

– Hərbçi ola bilməsəniz də polis ola bildiniz. Bu şərəfli işinizdə sizə uğurlar arzu edirəm.

– Çox sağ olun, təşəkkür edirəm.

– Bəhruz bəy, Orxanın döyüşə getməyi barədə nə vaxt eşitdiniz ki, döyüşdədir?

– Sözün açığı, mən Orxanla mütəmadi olaraq, Mübarizin sağlığında da, ondan sonra da əlaqə saxlayırdım. 2010-cu ildə Mübariz şəhid olanda Orxan dəfələrlə bizə gəlib-getmişdi. Həmişə əlaqədə olmuşuq. Müharibə başlayanda biz bilirdik ki, Orxan da öz hərbçiləriylə, öz əsgərləri ilə döyüşə qatılıb.

– Bəs şəhid olmağını necə eşitdiniz?

– Şəhid olmağını birinci internetdə oxudum, sonra Orxanla bir yerdə uşaqlıqdan dostluq etdiyimiz Tofiq telefonla dedi.

– Yəqin ki, dəfndə də iştirak eləmisiniz, mərasimi yaxından izləmisiniz. Bu səbəbdən mənim üçün maraqlıdır, döyüş dostlarının onun haqqında nə dedikləri, necə söhbət elədikləri, döyüş fəaliyyəti barədə nə danışdıqları. Orxan hansı şəraitdə şəhid olub və s.

– Təbii ki, hərbi sirr olduğu üçün çox şey danışılmır, amma mənim bildiyim qədər, danışılanlara görə, Orxanla birlikdə altı kəşfiyyatçı olub. Özləri də ermənilərin

içinə doğru çox irəli gediblər. Bu altı kəşfiyyatçı, Orxan başda olmaqla, ermənilərin 200-dən çox canlı qüvvəsini məhv edib. Silah-sursat dolu altı "UAZ"larını partladıblar. Çox olub. Yəni, bildiyim bu qədərdir... Sizə bir məqamı demək istəyirəm. Bölgələrə ayırmaq bir az yaxşı çıxmır. Amma bizim Biləsuvar rayonu, sanki qəhrəmanlar yurdudur.

Onu da qeyd etmək lazımdır ki, bizim ustadımız var, İmaməli müəllim, boks müəllimimiz İmaməli Muradov. Bizi bir yerə yığan, bir yerdə məşq elətdirən və belə qəhrəmanları yetişdirən müəllimimizdir. O, Mübarizə də, Orxana da, Ənvərə də, Tofiqə də, mənə də həm müəllim, həm də dost olub. İmaməli müəllim bizə psixoloji dərslər də keçib. Məşqdən sonra başlayırdı bizimlə maraqlı söhbətlər eləməyə. Bizə deyirdi ki, "Sizinlə digər uşaqlar eyni deyil. Sizin fiziki qüvvəniz onlardan qat-qat çoxdur. Davaya meyilli olmayın. Davadan uzaq olun ki, siz ona nəsə əl vurarsınız, nəsə vurub eləyərsiz, başqa xoşagəlməz şeylər olar, hadisə baş verər". Bizə əsl həyat dərsi keçirdi. Hamımız da oturub, çox böyük həvəslə ona qulaq asırdıq. Elə o qəhrəmanlığın yetişməsində İmaməli müəllimin böyük rolu olub. Onun tələbələri Mübariz, Orxan, Tofiq, Ənvər, Sahil, mən... Hamısı seçilmişlərdir. Elə bil ki, Allah-taala bizim hamımızı yığmışdı ora, bizi hazırlayırdı ki, bunlar vətən üçün qurban olsunlar.

Bu söhbət 1998-2000-ci illərə təsadüf edir. Hələ o vaxtdan Allah-taala bizi bu günlər üçün hazırlayırmış. Həm də İmaməli müəllim bizi hazırlayaraq deyirdi: "Siz bu xalq üçün, millət üçün lazım olacaqsınız. Sizin itkiniz də olacaq. Buna hazır olun". Siz onun uzaqgörənliyə baxın, Ənvər də bir qardaş itirib, mən də... Bizi 20 il


bundan qabaq bu günlər üçün hazırlayırdı. Qəhrəmanların yetişməsində də mən belə fikirləşirəm, mənim şəxsi fikrimdir, kollektivin çox böyük rolu var. İnsan düşdüyü mühitdə formalaşır. Mənim idmançı dostlarımın hamısı sözündə möhkəm, bütöv, davranışında, əməlində öz səviyyəsini gözləyəndir. Əlbəttə ki, biz bütün şəhidlərimizlə fəxr edirik. Çünki Allah-taala onlara belə şərəfli ölümü, şəhadəti qismət eləyib. Onlar Allahın ən sevilən bəndələridir. Bütün şəhidlərimizlə bərabər Orxanla, Mübarizlə, Poladla və bütün qəhrəmanlarımızla fəxr edirik. Onlar bizim qürur mənbəyimiz, qürur yerimizdir.

– Siz fəxr edin ki, Mübariz kimi qəhrəmanın qardaşısınız, Orxan kimi qəhrəman dostunuz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Çox sağ olun ki, razılaşdınız, görüşdünüz bizimlə...

– Sağ olun, var olun, təşəkkür edirəm.

Elçin Məmmədli





Xudaverdi Mahmudov
(Orxan Əkbərovun qayınatası)

"Orxanın da alnına şəhidlik yazılıbmış..."

– Xudaverdi kişi, Sizin kürəkəniniz II Qarabağ savaşında Şəhid olmuş, Azərbaycanın qəhrəman oğullarından biri, Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərov şanlı bir ad qoyaraq gedib. Hamımızın qürur mənbəyinə çevrilib. İgiddir, qəhrəmandır, 44 günlük döyüşün adlı-sanlı oğullarından biridir. Bilmək istəyirəm, bir-birinizlə qayınata-kürəkən münasibətiniz necə olub, tanışlığınız necə baş verib?

– Bizim Orxanla tanışlığımız nişan ərəfəsindən sonra oldu. Tanımamışıq bir-birimizi. O vaxtı elçilər gəlib-eləyəndən sonra bildik ki, onlar bizimlə qohum ol-

maq istəyir. İlk tanışlığımız belə oldu. Çox mədəni insan idi. Böyüyü böyük, kiçiyi kiçik bilirdi. Heç vaxt ədəb çərçivəsindən çıxmırdı.

– Adətən kürəkəni yad oğul kimi qəbul edirlər. Təsəvvür edin, Orxan heç şəhid olmayıb, sağdır. Hərbçi kimi xidmətini davam edir və mən də soruşuram ki, Orxan necə kürəkəndir?

– Mən də səmimi deyirəm ki, çox gözəl insan idi, mənə oğuldan da üstün idi. Otağa mən daxil olanda ayağa qalxardı, oturmazdı, ayaq üstə durardı, ta mən ona deməyincə ki, a bala, əyləş.

– Orxanla qayınata-kürəkən kimi ayrıca söhbətləriniz, dərdləşməyiniz olurdumu? Adətən deyirlər, yaxşı kürəkən bir oğul qazanmaqdır, pis kürəkən isə qızını da itirmək deməkdir. Amma görünür Orxanın timsalında bir oğul da qazanmısınız. Bu səbəbdən də qayınata-kürəkən kimi təklikdə hansısa məsələ barədə məsləhətləşməyiniz olurdumu?

– Əlbəttə, olurdu belə məsləhətləşməyimiz. Gələcək planlar haqqında danışırdı. Deyirdi ki, "Hərbi xidmət dövrünü qurtarandan sonra şəhərdə özüm üçün, Allah qoysa, ev alacağam. Dövlət xidməti başa vurandan sonra bizə ev verir. Uşaqları da, anamı da özümlə aparacağam və biz şəhərdə bir yerdə yaşayacağıq. Övladlarımı da Vətənə layiqli övlad kimi böyüdəcəyəm. Atası prokurorluqda müstəntiq olub, Orxanı hərbçi kimi görmək istəyib. Onu başqa sahəyə də yönəldə bilərdi. Özü istəyib ki, Orxan hərbçi kimi Vətəni qorusun, Vətənə layiq övlad olsun.

– Orxan hərbçi adam idi, bir gün burda, beş gün rayondadır. Bəs heç ürəyinizdən keçirdimi ki, oturub bir dəfə söhbət edəydiniz ki, a bala, nə vaxt yığışacaqsan evinə, eşiyinə? Bu uşaqlar da yollardadır. Olurdumu belə söhbət?

– Əlbəttə, belə söhbətlər olurdu. Hansı valideyn istəməz ki, övladının ailəsi həmişə bir yerdə yaşasın, tez-tez ev dəyişməsin. Ancaq Orxan deyirdi ki, "Mənim işim, həyatım budur. Mən hərbçiyəmsə, belə də yaşamalıyam. Vətənin borcunu yerinə yetirməliyəm. Vətənin əsgəriyəm mən, hara desələr, ora getməliyəm". Ailə quranda da qızımla söhbətləri oldu ki, mən hərbçiyəm, həyatım çöllərdə olacaq. Məni belə qəbul edirsənsə, evlənib ailə quraq... Qızım da onu olduğu kimi qəbul edib. Tam səmimi deyirəm, bu illər ərzində rayondan-rayona dəfələrlə yaşayış yerini dəyişiblər. Amma qızım bir dəfə də olsun həyatından gileylənməyib. Qızım da həkimdir. Orxanın anası Sevil xanım həkimdir və qızımla bir yerdə işləyib. Və qızım Nuranə də onun seçdiyi yolu qəbul elədi, onunla ailə qurdu və Orxan hara, bu da ora getdi.

– Doğrudur, Nuranə xanım çox razılıq edir və əsl qəhrəman xanımı kimi çətinliyə dözərək, yaşayıbdır. Bəs bu döyüşün necə başlaması və Orxanın da orda döyüşməsi barədə haradan eşitdiniz, necə bildiniz?

– Döyüşdən əvvəl gəlmişdi bura. Düzdür, müxtəlif səbəbdən mən onu görə bilmədim. Yəni, işlə əlaqədar evdə olmamışam... Allah rəhmət eləsin... Xalqımızın hamısının başına gələn bu bir işdir, yəni bu, döyüşdür, bu yolda şəhid olurlar, qazi olurlar, veteran olurlar. Orxanın da alnına şəhidlik yazılıbmış. 2016-cı ilin Aprel döyüşlərində də iştirak elədi. O vaxt Ali Baş Komandan icazə versəydi, ordumuz Ermənistana qədər gedəcəkdi. Ordumuz buna hazır idi. Getmişdilər də, amma Rusiya, Fransa qarışdı, yoldan qaytardılar. Eşitmişik, dövlətin özünün siyasəti var. Məqam var da, yetişmək məqamı. Deməli, Aprel döyüşlərində məqam yetişməmişdi. Zaman o zaman deyilmiş və ona görə o zaman saxladılar. Ermənistanın içərilərinə qədər gedərək, hərbi vəzifəsini

yerinə yetiribdir Orxan... Heç vaxt o haqda danışmırdı əvvəllər. Kəşfiyyatçı idi axı...

– Bəs döyüşdə olduğunu hardan bildiniz və eşitdiniz ki, artıq döyüşdədir?

– Gəlmişdi evə, demişdi ki, "Artıq hazırlıq gedir, tarixini bilmirəm. Ali Baş Komandan nə vaxt əmr versə, o vaxt döyüşə hazır olacağıq". Tək hərbçilər yox, camaat da artıq hiss edirdi ki, iş gedir, ordu yığılır...

– Sentyabrın 27-də döyüş başladı. Hamı bildi ki, döyüş gedir. Onda nə eşitdiniz, nə bildiniz Orxan barədə?

– Elə arada zəngləşirdik, deyirdi hər şey yaxşıdır, narahat olmayın.

– Sonuncu zəngi nə vaxt olub?

– Sonuncu zəngi mənə eləməyib, öz anası ilə, qızımla, uşaqları ilə danışıb. Şəhid olma xəbərini oktyabrın 4-də eşitdim. Nuranə də burada idi. Onu apardım evlərinə, Orxanın dostu mənə dedi ki, şəhid olub.

– Allah bütün şəhidlərimizə rəhmət eləsin. Təbii ki, itki hamımızın itkisidir, tək bir evin itkisi deyil, elin itkisidir. İndi onun iki yadigarı qalıb, bir qızı və bir oğlu var. İstəyərdinizmi ki, oğlu Çingiz də onun yolunu davam elətdirsin, hərbçi olsun?

– Bəli, bəli, fəxr eləyərəm. Övladının da arzusudur atasının yolunu davam etdirmək. İndi o hələ balacadır, fikirləri dəyişə bilər. Gələcəkdə fikirləşər. Məsələn, böyüdükcə uşağın dünyagörüşü də artacaq, öz fikirləri olacaq. Ancaq elə indidən deyir ki, mən atamın yolunu davam etdirəcəyəm. Allah saxlasın. İndidən elə dəcəlliyi ilə göstərir ki, o, qəhrəman olacaq. Təki müharibə qismət olmasın. İnşallah, müharibə onsuz da qurtardı. Allah qa-


lanlara can sağlığı versin. Biz də istəyirik, çalışırıq ki, bir valideyn kimi dəstək olaq onlara.

– Kürəkəniniz şəhid, Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Orxan Əkbərov haqqında söylədiyiniz fikirlərə görə çox sağ olun, təşəkkür edərəm.

Bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Elçin Məmmədli





İmaməli Muradov
(Orxan Əkbərovun boks müəllimi)

... 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu 44 günlük Zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Silahlı Qüvvələrimiz hər bir kənd, qəsəbə, şəhər, yüksəkliyin düşməndən təmizlənməsi uğrunda rəşadətlə mübarizə apardı, böyük tarixi nailiyyətə imza atdı. Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, müzəffər Ordumuzun cəsurluğu, qəhrəmanlığı nəticəsində zəfərlə başa çatdı. Bu tarixi Qələbə əbədiyaşar şəhidlərimizin qanı, xalqımızın birliyi

hesabına qazanıldı və Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazıldı.

... Qəhrəmanımız Orxan Əkbərovun uşaq yaşlarında hərbçi olmaq haqqında arzusu baş qaldıranda idman sahəsində peşəkar boksçu kimi dəfələrlə çempion adını qazanıb. Hərbçilər arasında peşəkar boks üzrə keçirilən yarışların qaliblərindən olub.

Bu uğurların qazanılmasında sovet dönəmində Biləsuvar rayonundakı Səməd Vurğun adına kolxozda fəaliyyət göstərən Uşaq-Gənclər İdman Məktəbinin boks müəllimi, SSRİ idman ustası İmaməli Muradovun zəhməti olduqca böyükdür. Bu məlumatı eşitdikdən sonra İmaməli Muradovun sorağı ilə Biləsuvar rayonuna yollandıq. Qocaman idman ustası ilə elə Orxan Əkbərovun atası evində görüşdük... İmaməli müəllim məqsədimizi biləndə dərin fikrə daldı. Qarşısındakı divardan asılmış gözləri gülümsəyən Orxanın portretinə xeyli baxdı. Kövrəldi. Dərindən ah çəkdi. Asta, həzin səslə "Ailəsi, övladları, vətəni, xalqı üçün çox dəyərli, əvəzsiz idi Orxan...", – dedi və susdu... Xəyalı onu uzaqlara, haradasa 20 il əvvələ apardı.

– ... Qazaxıstan Respublikasından Azərbaycana 20 yaşımda SSRİ idman ustası kimi gəlmişəm. Bura gələndən sonra ictimai əsaslarla boks kursu təşkil etdim. Həmin illərdə Krasnodara yarışa apardığım yeddi gənc boksçudan beşi qızıl medala layiq görüldü, biri ikinci yeri tutdu, biri isə uduzdu. Bir müddətdən sonra Səməd Vurğun adına kolxozda fəaliyyət göstərən idman zalında Uşaq-Gənclər İdman Məktəbi açdıq. Orxan Əkbərov həmin məktəbin ilk şagirdlərindən oldu.

Orxanı kiçik yaşlarından tanıyıram. O, boksla məşğul olmağa elə uşaq yaşlarından başlayıb. Biz nəsillikcə boksçu ailəsi olduğumuz üçün bu sahə ilə bağlı söhbətlərimizdə hərdən Orxan da iştirak edir, bizə qulaq asırdı. Görünür, o vaxtdan onda idmana maraq yaranıb. Dediyim kimi, uşaq çağlarından idmana böyük həvəsi olan Orxan 14 yaşından Uşaq-Gənclər İdman Məktəbində boksla məşğul olmağa başladı. O, bir dəfə də olsun məşqi buraxmırdı. Bir dəfə Orxandan soruşdum ki, niyə məhz bu idman növünü seçmisən, uşaqlarla dalaşmaq üçün? Dedi, xeyr. Mən də ona başa saldım ki, boksçu olmaq yarışlarda ölkəmizin idman şərəfini layiqincə qorumaq deməkdir.

Orxan nizam-intizamlı uşaq idi. Çox döyüşkən, cəsur, həm də etibarlı idi. Gələcəkdə onun vətənə, millətə layiqli, vətənpərvər övlad olacağı hiss olunurdu. İlk vaxtlardan ölkə daxili müxtəlif turnirlərdə və zona birinciliklərində yüksək nəticələr göstərməyə başladı...

Orxan Əkbərov müəlliminə çox sadiq idi. Hərbi xidmətdə olduğu dövrlərdə rayona gələndə həmişə mənə baş çəkirdi. Mənimlə söhbət edəndə xidmətlə bağlı heç nə demirdi. Nə soruşurdum, deyirdi, hər şey yaxşıdır, inşallah, əla olacaq. Hətta müharibənin başlayacağı barədə bir kəlmə də dilinə gətirmirdi. Ondan söz almaq o qədər də asan deyildi. Hiss edirdim ki, ordu ilə bağlı bildiyi gizli məlumatları sirr olaraq qoruyur... Orxanın şəhid olmasını məndən bir gün gizlətdilər. Sonra həyat yoldaşım dedi. Özümü çox pis hiss etdim. Allah ona və bütün şəhidlərimizə rəhmət eləsin!

İmaməli müəllim yenə ah çəkdi, gözləri yaşla doldu. Əlinin tərsi ilə gözlərini sildi... Onu bu vəziyyətdən çıxarmaq üçün söhbətin məcrasını bir az başqa səmtə yönəltdim:

– İmaməli müəllim, peşəkar idmançıların yetişməsində təbii ki, məşqçi-müəllimlərin rolu danılmazdır. Siz danışdıqca hardasa oxuduğum məşhur bir idmançının fikri yadıma düşdü. Deyirdi ki, "mən məşqçini idmançının bələdçisi kimi görürəm, həmin bələdçi idmançını düz yolla aparanda uğur, səhv yolla aparanda uğursuzluq meydana çıxır". Belə olduqda, məşqçi-müəllimlərin çiyinlərinə böyük yük düşür desəm, yanılmaram. Bildiyimiz qədər, Orxan Əkbərovun uşaq yaşlarında hərbçi olmaq haqqında arzusu baş qaldıranda idman sahəsində peşəkar boksçu kimi dəfələrlə çempion adını qazanıb. Hətta hərbçilər arasında peşəkar boks üzrə keçirilən yarışların qaliblərindən olub. Bu uğurların qazanılmasında təbii ki, sizin zəhmətiniz böyükdür.

– Bir məqamı diqqətinizə çatdırım ki, işğalda olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə fərqlənənlərin əksəriyyətinin idmançı olması heç də təsadüf deyil. Çünki onlar bayrağın, dövlət himninin xiffətini çəkməyə vərdiş edir, bunu həyat tərzinə çevirirlər. Əlbəttə, Orxanın igid oğul kimi böyüməsində idmanın müstəsna təsiri olub. Ona görə ki, idman insanda müsbət əxlaqi keyfiyyətlər, vətənə məhəbbət, ailəyə bağlılıq, özünəinam, səbr, mətanət, dözüm və s. formalaşdırır. Bundan başqa, idmanın köməyi ilə digər tərbiyə növləri – əmək tərbiyəsi, şəxsi gigiyena tərbiyəsi, iqtisadi tərbiyə, estetik tərbiyə, hüquq tərbiyəsi daha da inkişaf edir. Bununla yanaşı, unutmaq olmaz ki, yuxarıda qeyd olunanlar ölkəmizin çətin vəziyyətində, işğala məruz qaldığı bir vaxtda, onun müdafiə qüdrətinin güclənməsi ilə də birbaşa bağlıdır. Eyni zamanda, sağlam və güclü gənc nəsil gələcəyin etibarlı təminatıdır.

Bu baxımdan, idmanın kütləviliyini təmin etmək daim günümüzün vacib məsələlərindən olub. Çünki id-

manın kütləviliyi gənc nəslin mənəvi və fiziki inkişafı üçün vacibdir.

Vaxtilə ümummilli lider Heydər Əliyev də fiziki tərbiyə və idmanın inkişafına çox böyük diqqət ayırmış və öz çıxışlarının birində bu haqda belə demişdir: "İdmanın və bədən tərbiyəsinin inkişafı üçün görülən işlər, gələcəkdə görəcəyimiz işlər, dövlətin və hökumətin siyasətinin əsas istiqamətlərindən biridir".

Sovet dönəmində Səməd Vurğun adına kolxozun Uşaq-Gənclər İdman Məktəbində boks müəllimi işləyərkən də məqsədim uşaq, yeniyetmə və gənclərin idman vasitəsilə sağlamlığını, fiziki hazırlığını möhkəmləndirmək, yüksək səviyyəli idmançılar hazırlamaq idi.

Onu da deyim ki, uşaq yaşlarından idman məktəbinə gələnlərin hamısı idmançı olmur. Ancaq onların arasında Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərov, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov, qardaşım oğlu Rafiq Muradov, oğlum Tofiq Muradov, həmçinin Paşaxan Əliyev, İqor Maxalkov, Vaqif Mirzəyev, Qurbanxan Məhərrəmov kimi qürur duyduğum yetirmələrim olub.

Təkcə Şuşanın işğaldan azad olunmasında 15-dək yetirməm iştirak edib. Onların tarixə yazılan qələbəsinə sevindiyim kimi, Qarabağda tarix yazaraq şəhid olan yetirmələrimdən rayonumuzun Xırmandalı kəndindən Bəhruz Qurbanovu, eləcə də Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovu, Milli Qəhrəman Mübariz İbrahimovu, Babək Mahmudlunu, İqbal Astanlını ehtiramla anıram.

Yetişdirdiyim idmançılar həmişə mənim başımı uca ediblər. Məlumdur ki, neçə il əvvəl Azərbaycan torpaq-

ları hələ işğaldan tam azad edilməmişdi, ermənilər qadağan olunmuş silahlarla dinc əhalimizi hədəfə alırdı. Tarixin bu dönüş nöqtəsində xalqımız kimi biz də dövlətimizin yanında olduq. Yetirmələrim bir çox mötəbər yarışlarda ölkəmizin idman şərəfini ləyaqətlə qoruduqları kimi, Azərbaycanın haqlı davasını, haqq səsini dünyaya çatdırmağa çalışırdılar.

Onu da deyim ki, idman sahəsində rayon bizim ailənin adı ilə bağlıdır. Qeyd etdiyim kimi, biz nəsillikcə boksçuyuq. Dörd qardaş SSRİ idman ustasıyıq. Böyük qardaşım İmamverdi Muradov, İsmayıl Muradov və Xalıq Muradovun da gənclərimizin idmançı kimi yetişməsində böyük əməyi olub. Xüsusilə, Xalıq Muradovun vaxtilə döyüşən ordumuzun ərzaq və isti geyimlə təchizatında xidməti danılmazdır. Sonda demək istəyirəm ki, şəhidlər, qazilər bizim üçün müqəddəsdir, o qəhrəmanlıq, şəhidlik zirvəsinə ucalan oğullarımızla təkcə onların valideynləri deyil, hamımız fəxr edirik.

Elbar Şirinov





Cəmşid Mürsəlov
(Biləsuvar şəhər Nizami Gəncəvi adına
1 nömrəli tam orta məktəbin təşkilatçısı):

– Sentyabrın 27-də işğalçı Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan Müzəffər Ordumuz 44 günlük müharibədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qələbə qazandı. Vətən müharibəsində qazanılan qələbə Azərbaycan tarixinin möhtəşəm səhifələrindən biri oldu. İgid oğullarımız dəmir yumruq kimi birləşib illərin səbrini, intiqamını əldə silah edib yağıların, ölümün üstünə mərdanəliklə, qorxmazcasına atıldılar. İllərdir işğal altında

inləyən torpaqlarımızın qisasını aldılar. 30 ildir gözüyaşlı qalan ana-bacıların, qız-gəlinlərin, yetim qalmış uşaqların, bir milyondan çox qaçqın və məcburi köçkünün hayıfını aldılar 44 günlük Vətən müharibəsində. Hər bir əsgərimiz sinəsini sipər etdi ana vətən uğrunda. Şəhid, qazi oldular, amma düşmənə baş əymədilər, qəlblərində yurd sevgisi, gözlərində intiqam alovu, fikirlərində ata-analarının öyüd-nəsihəti ölümün gözünə dik baxdılar… Qəhrəmanımız Orxan Əkbərovun əziz xatirəsi onun vaxtilə təhsil aldığı Nizami Gəncəvi adına 1 nömrəli tam orta məktəbdə hər zaman ehtiramla yad olunur. Onu da qeyd etmək istəyirəm ki, təhsil müəssisəmizin Vətən müharibəsində şəhid olan beş məzunu var. Həmin şəhid məzunlarımız – Orxan Nadir oğlu Əkbərov, Namiq Abış oğlu Mayılov, Babək Süleyman oğlu Mahmudlu, İqbal İlqar oğlu Astanlı və İsmayıl Elçin oğlu Qədirlinin məktəbimizdə xatirə lövhəsi var, qəhrəmanların şəkillərindən ibarət xüsusi stend qoyulub. Bundan başqa, 1-ci siniflərə beş şəhid igidimizin adı verilərək, onların keçdiyi şərəfli həyat yolunu əks etdirən lövhələr tərtib edilib, divardan fotoşəkilləri asılıb. Biz şagirdlərə şəhid məzunlardan fəxr hissi ilə bəhs edirik. Qəhrəmanlara həsr olunan anım tədbirlərində onların şücaətindən, göstərdiyi igidliklərdən danışılır.

Şagirdlərin milli vətənpərvərlik ruhunda tərbiyəsində qəhrəmanlıq salnaməmizi öz qanı ilə yazan şəhid məzunların əziz xatirəsinin anılmasının böyük əhəmiyyəti var. Bunu diqqətdə saxlayan müəllim və şagird kollektivi şəhidlərin məzarlarını ziyarət edir, məktəbdə keçirilən tədbirlərə Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun, eləcə də digər şəhidlərimizin ailə-

sini və yaxınlarını, döyüş yoldaşlarını dəvət edərək onlarla görüşürlər.

Görüşlər zamanı qəhrəmanımız Orxan Əkbərova və digər şəhid məzunlara vaxtilə dərs demiş müəllimlər onların hələ məktəb illərindən necə vətənpərvər, mübariz, qorxmaz olduqlarını qeyd edərək, belə qəhrəmanlarla daim qürur duyduqlarını bildirirlər. Çıxış edənlər Orxan Əkbərovla bağlı xatirələrindən danışaraq məhz bu cür qəhrəmanların şəxsi nümunəsinin böyüməkdə olan gənc nəslin əsl vətənpərvər kimi yetişməsində böyük rol oynadığını xüsusi vurğulayırlar.

Elə bu yaxınlarda məktəbimizin şəhid məzunu, Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun xatirəsinə həsr olunan idman yarışı keçirildi.

Yeri gəlmişkən bir məqamı da qeyd edim ki, bu yaxınlarda məktəbimizin direktoru Xanımgül Abıyeva Şuşa şəhərinə getmişdi. O, Şuşadan torpaq gətirərək bizə verdi və məsləhət gördü ki, ruhları şad olsun deyə, onu rayonumuzun bütün şəhidlərinin məzarına səpək. Bilsinlər ki, torpaqlarımız işğaldan azad olunub, onların qisası alınıb.

Fikrimi onunla yekunlaşdırmaq istəyirəm ki, şəhidlər haqqında yazılanlar gənc nəsil üçün təkcə qəhrəmanlıq nümunəsi deyil, həm də vətənə sədaqətdir. Ona görə də şəhidlərimizdən həmişə qürurla, sevgilərlə, kövrəkliklə danışırıq. Bu xatırlamalar mənəvi borc ödəmədir. Müharibə tariximizin bir səhifəsi də 44 günlük İkinci Qarabağ müharibəsidir, bu döyüşlərin qəhrəmanlarıdır, qalibləridir, şəhidləridir.

Şəhidlərimiz unudulmayacaq. Şəhid polkovnik-leytenant Orxan Əkbərov da heç zaman unudulmayacaq.

Qələmə aldı: Elbar Şirinov



Rəşad Əliyev
(Ehtiyatda olan kapitan):
ORXAN ŞƏHİD OLMAYA DA BİLƏRDİ...

"Orxan Əkbərov çox səmimi insan idi. Deyim ki, dəli-dolu bir gəncliyi vardı, xeyr, çox sakit təbiətli idi. Yaxşı, mehriban dostluğu vardı. Şən, gülərüz, çox zarafatcıl idi. Amma mənimlə dəhşətli dərəcədə zarafat edərdi..."

Bunu ehtiyatda olan kapitan "Təzadlar" qəzetinin layihəsi əsasında nəşrə hazırlanan Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Orxan Əkbərovun keçdiyi

həyat və döyüş yolundan bəhs edən kitab üçün verdiyi müsahibəsində dedi.

R. Əliyev bildirdi ki, Orxan Əkbərovla Nizami Gəncəvi adına 1 nömrəli tam orta məktəbdə paralel siniflərdə oxuyublar: "Orxan Azərbaycan, mən rus bölməsində oxuyurdum. Onunla daha yaxından tanışlığımız və dostluğumuz Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə sənəd verdiyimiz vaxtdan başlandı. Bir-birimizi tanıyırdıq, ancaq dostluğumuz Ali Hərbi Məktəbdən başladı. İki il Orxan Əkbərovla bir qrupda oxumuşuq. Onunla tələbəlik illərində yaxın münasibətimiz olub. Sonrakı iki ili ixtisasımıza görə ayrı qruplarda oxuduq, O, Qoşun kəşfiyyatı ixtisasını, mən isə rabitəçiliyi seçdim. Ancaq dərsdən çıxandan sonra, demək olar ki, həmişə bir yerdə olurduq.

Hərbi məktəbi bitirəndən sonra, 2004-2005-ci illərdə Təlim-Tədris Mərkəzində ixtisasımız üzrə dinləyici kimi kurs keçəndə də bir yerdə olduq. Həmin bir ili beş nəfər Biləsuvar uşaqları artıq zabit kimi maddi imkanımız olduğuna görə İnqilab-17-də (Həsən Əliyev küçəsi) ikiotaqlı mənzildə kirayə qaldıq. Hamımız eyni məktəbin məzunları idi. Mən idim, rəhmətlik Orxan Əkbərov, dayım oğlu Tofiq Muradov, Niyaməddin Əsgərov və bir də Bəhruz Əhmədov. Bir ildən sonra isə hər kəs ixtisası üzrə xidmətə başladı...

Orxan Əkbərov çox səmimi insan idi. Deyim ki, dəli-dolu bir gəncliyi vardı, xeyr, çox sakit təbiətli idi. Yaxşı, mehriban dostluğu vardı. Şən, gülərüz, çox zarafatcıl idi. Amma mənimlə dəhşətli dərəcədə zarafat edərdi...

R.Əliyev müsahibəsində H.Əliyev adına Ali Hərbi Məktəbdə oxuduqları vaxt baş verən maraqlı bir hadisəni xatırladı: "Təxminən, 2002-ci il olardı. Ali Hərbi Məktəbin həyətində böyük bir bina vardı. Binanın içərisindəki

zalın hər küncündə bir televizor otağı var idi. Mən də boş vaxtlarımda televizora baxmağı xoşlayırdım. Günlərin birində Orxanla Tofiq mənimlə zarafat etmək fikrinə düşürlər. Götürüb atamın adından mənə məktub yazırlar. Mən də otaqda oturub televizora baxırdım. Gəldilər ki, atamdan məktub var. Məktubu mənə verib, hərəsi bir tərəfimdə oturdu. Mən də tez-tələsik məktubu açıb oxumağa başladım. Atam yazır ki, ay bala, məndən incimə, bundan sonra ta evdən pul gözləmə. Daha sənə pul göndərməyəcəm... Bunu oxuyanda halım dəyişdi, çox pis oldum ki, niyə birdən-birə atam belə bir məktub yazsın. Çox dilxor, pərt vəziyyətdə Orxanla Tofiqdən aralanıb, düşdüyüm vəziyyəti onlara bildirməməyə çalışdım. Öz-özlüyümdə götür-qoy edərək, məsələnin ciddiliyinə inana bilmirdim ki, axı atam mənə niyə belə məktub yazsın? Beynimdəki bu və digər çalpaşıq fikirlərlə Orxangil tərəfə dönəndə onların kənardan məni gülə-gülə izlədiklərini gördüm. Onda barmağımı dişlədim və başa düşdüm ki, bu məktub məsələsi Orxanla Tofiqin əməlidir... Orxanın bax belə zarafatları vardı..."

R.Əliyevin sözlərinə görə, Orxan Əkbərovun maşınlara böyük marağı olub: "Maşınlara böyük marağı olduğundan müxtəlif markalı avtomobillərin struktur quruluşu, istismarı barədə vacib bilgiləri bizimlə bölüşürdü. Onların hansı texniki xüsusiyyətlərinə görə bir-birindən fərqləndiyini həvəslə izah edərdi".

R.Əliyev bildirdi ki, Orxan İkinci Qarabağ müharibəsi başlamamışdan rayona gəlib: "Görüşüb, xeyli söhbətləşdik. Ancaq döyüş barədə bir kəlmə də demədi. O, xidmətə qayıdandan bir həftə sonra, sentyabrın 27-də Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatı başladı. Döyüşlər başlayandan sonra mən Orxanla əlaqə saxlaya bilmədim. Məcbur

olub qardaşı Ənvərlə telefonda danışırdım. O da Orxanın yaxşı olduğunu deyirdi. Oktyabrın 2-də Ənvərə zəng edəndə telefonda ağladığını eşitdim. Dedi ki, neçə gündür Orxanla əlaqə saxlaya bilmir. Ənvərdən dəqiq məlumat öyrənə bilmədiyim üçün Orxangilin ata evinə tərəf gələndə həyətin ətrafına çoxlu adam toplandığını gördüm. Ancaq adamların həyətin ətrafına toplanmasından Orxanın anasının, ailəsinin xəbəri yox idi. Heç kim də ürək edib darvazanı açıb içəri girmirdi. Çünki cəbhədən, Orxandan dəqiq məlumat yox idi. Ancaq hamı Orxanın sağ-salamat dönəcəyini ümidlə gözləyirdi. Oktyabrın 6-da Ənvər mənə zəng etdi ki, Orxan şəhid olub, onu gətirməyə gedir..."

Ehtiyatda olan kapitan müsahibəsində hərbçi kimi bir gerçəkliyi də açıqladı: "Orxan Əkbərov hərbi hissə komandiri idi. Bu, çox məsuliyyətli vəzifədir. Əslində Orxan Əkbərov şəhid olmaya da bilərdi. Çünki o, hərbi hissə komandiri kimi döyüşü təhlükəsiz bir məntəqədən də idarə edə bilərdi. Ancaq o, əsl komandir kimi həmişə öndə gedirdi. Öndə getmək isə 99 faiz şəhidlik deməkdir".

R. Əliyev Orxan Əkbərovla bağlı xatirələrini belə tamamladı: "Torpaqlarımızın işğaldan azad olunması Orxanın ən böyük arzusu idi. Deyirdi ki, müharibədə döyüş də var, şəhidlik də. Ancaq vətənə görə döyüşmək, torpaqlarımız üçün döyüşmək, ölümdən qorxmadan döyüşmək lazımdır... Deməli, Orxan şəhidliyi özü seçib. Orxanın və bütün şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirəm! Allah şəhidlərimizə rəhmət eləsin!"

Elbar Şirinov



Cavidan Mahmudov
(Orxan Əkbərovun qaynı)

– Biz Orxanla kürəkən-qayın yox, dost, tay-tuş, sirdaş olmuşuq. Qardaş kimi doğma münasibətimiz var idi. Bu gün onun yoxluğu haqda danışmaq mənə çox ağırdır. Elə bil Orxan bizim evin oğlu idi. Ailəmiz onu çox istəyirdi. Orxan nümunəvi ailə başçısı, vətənpərvər oğul, savadlı hərbçi, mehriban insan idi. O, mənim bacımın həyat yoldaşı olmamışdan əvvəl də hərbçi idi. Evə gec-gec gələrdi. İşini, sənətini sevən hərbçi idi. Harasa başqa yerə təyinat alanda ailəsini rayona, öz ata evinə gətirərdi. Ayaqüstü olsa da, gəlib bizimlə görüşərdi…

Orxanın itkisi bizə, şəxsən mənə çox pis təsir etdi. Mən uzun müddət bu xəbərə ürəyimdə inanmadım. Düzünü deyim ki, hələ də bu xəbəri qəbul edə bilmirik. Sanki o hələ də Vətənə xidmətdədir... Orxan ölməyib, Şəhid olub – insanların, əzizlərinin ürəyinə köçüb.

Sevinc Muradxanlı





Şəfəqqət Zəkiyeva,
N. Gəncəvi adına 1 saylı tam
orta məktəbin direktor müavini:

– Orxanın ailəsini mən hələ özüm tələbə olduğum vaxtdan tanıyırdım. Onun anası Sevil xanım rayonda tanınmış həkimdir. Atası Nadir müəllim uzun müddət polis orqanlarında çalışıb. Orxan nümunəvi, ziyalı bir ailənin övladı olub. Təbii ki, o gələcəkdə qəhrəman olmalı idi… İnsanlar anadan qəhrəman doğulmurlar, sonradan qəhrəman olurlar. Hələ məktəb illərindən Orxanı tanıyırdım, həm müəllimi, həm qonşusu, həm qohumu olmuşam. O, qorxmaz, kişi xarakterli, ağır təbiətli, ciddi oğlan idi. Onun simasında artıq qəhrəmanlıq obrazı hiss olunurdu.

Hər kəslə öz dilində danışmağı bacaran, böyüklə böyük, kiçiklə kiçik idi. Əsl qəhrəmana xas olan xasiyyəti vardı.

Orxan şəhid olana qədər qızı Sevil və oğlu Çingiz bizim məktəbdə rus bölməsində təhsil alırdılar. Hətta Çingizin məktəbə qəbul komissiyasında mən də imtahan götürmüşəm. Amma Orxan şəhid olandan sonra ailəsi Bakıya köçdü və uşaqlar indi təhsillərini Bakıda alırlar.

Orxan imkan olduqca məktəbə gələr, uşaqlarının davamiyyəti və təhsili ilə maraqlanırdı. O, tam başqa bir xarakterdə oğlan idi. Onun həyat yoldaşı Nuranə xanımı da gözəl tanıyırdım. O, sanki şəhid yoldaşı olmaq üçün doğulmuşdu. Nuranə xanım o qədər ağır təbiətli, təmkinli, mədəni, ağıllı, tərbiyəli bir xanımdı ki... Əsl şəhid xanımı olmağa layiq bir xanımdır...

Və Orxan gətirilməmişdən iki gün əvvəl rayonda xəbər yayıldı ki, Sevil həkimin oğlu şəhid olub. Lakin sonra dedilər ki, xəbər yalandı. Biz qonşuyuq, eyni küçədə yaşayırıq. Orxan şəhid olan gün küçədə böyük bir izdiham var idi. Bəlkə 100-dən çox maşın, saya gəlməyəcək qədər insan yığılmışdı. Kənardan da eşidib-bilənlər gəlmişdi. İnanın, o xəbəri alanda dünyam dağıldı, elə bildim öz balamı itirdim, şəhid olan mənim oğlumdu. Çox pis təsir etdi mənə. Təsəvvür edin ki, illərlə gözümün önündə böyüyən bir uşaq şəhid olub evinə, elinə dönürdü.

Biz dünənə qədər necə ki, Həzi Aslanovu, Qafur Məmmədovu, Mehdi Hüseynzadəni… unutmadıq, eləcə də Qarabağ şəhidlərimizi həmişə yad etməliyik, onları unutmamalıyıq. Hamımız əlimizdən gələni etməliyik ki, Şəhidlərimiz unudulmasın. Onlar Vətən qarşısında borclarını alnıaçıq, üzüağ ödədilər. Biz də onların qarşısında vətəndaş borcumuzu ödəməliyik. Məktəbimizin direktoru Xanımgül Abıyevanın şəxsi təşəbbüsü nəticəsində birinci siniflərimizə rayon şəhidlərinin adı verilib. Məktəbdə onların şəkillərindən ibarət foto-stend hazırlanıb.

Bütün əlamətdar günlərdə, bayramlarda Şəhid ailələrini ziyarət edir, onlarla görüşlər təşkil edirik.

Mübariz İbrahimov, Orxan Əkbərov, İqbal Aslanov, Babək Mahmudov, Orxan Mirzəyev və digərləri bizim rayonun şəhidləridir. Onların bizə əmanət ailələri, övladları qalıb. Biz çalışmalıyıq ki, onlar özlərini tək hiss etməsinlər. Əksinə, onlar hiss etməlidir ki, onların oğulları, ataları, qardaşları qəhrəmandır. Axı onlar bizə dünyalara sığmayacaq bir qürur verdilər. Bu gün dünyanın harasında olursa-olsun, Azərbaycanı hamı tanıyır. Hətta kiçik bir cənub rayonu olan Biləsuvar Mübariz İbrahimovun qəhrəmanlığıyla tanındı... Biz də çalışmalıyıq ki, öz qəhrəman Şəhidlərimizi tanıdaq!!!

Sevinc Muradxanlı





Loğman Mirzəyev
(Orxan Əkbərovun əsgəri, hazırda polis zabiti)

– Loğman müəllim, biz Sizinlə, II Qarabağ savaşının iştirakçısı, Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Orxan Əkbərovun əsgəri kimi gö-

rüşürük. Əvvəlcə istəyərdik ki, onun bir komandir kimi keyfiyyətləri barədə bir neçə kəlmə deyəsiniz.
– Çox sağ olun, əvvəla, bu gördüyünüz xeyirxah bir işdir. Bizim Qarabağ müharibəsi iştirakçıları, Milli Qəhrəmanları, 44 günlük Vətən müharibəsi qəhrəmanlarının həyatını belə işıqlandırmağınız, onlar haqqında yazmağınız bizim üçün qürurverici hisslərdir. Allah Orxan Əkbərova rəhmət eləsin!

2010-cu ilin iyul ayında mən hərbi xidmətə yola düşmüşəm. Əvvəlcə Təlim-Tədris Mərkəzində ehtiyat zabit kursunda olduq, sonradan isə əsgər kimi 2-ci ordu korpusunda xidmət etmişəm. Orada hərbi hissənin kəşfiyyat bölüyünə rəhmətlik məni özü seçdi. O, bizim hərbi hissənin kəşfiyyat bölüyünün komandiri idi. Və elə həmin bölüyə düşdüyüm gündən bizim münasibətimiz yarandı. O, yaxşı idmançı idi, boksçu idi. Çox döyüşkən, həddindən artıq enerjili bir insan idi. Yəni, fiziki göstəriciləri çox yüksək idi. Mən də idmanla məşğul olmuşdum, əsgərliyə gedənə qədər üç dəfə respublika çempionu, dünya üçüncüsü olmuşdum.

– İdmanın hansı növü ilə məşğul omusunuz?

– Karatenin kontakt növü üzrə. Bundan sonra aramızda çox gözəl bir münasibət yarandı. Mən ali təhsilli idim deyə, xidmətim bir illik oldu. Ona görə komandir mənə bildirdi ki, istəyirəm səni bölükdə çavuş təyin edim. Sənin kimi idmançılara ehtiyac var. Ondan sonra məni bir ayın içində çavuş təyin elədi. Demək hərbi hissə Füzulidə, yəni döyüş zonasında yerləşdiyi üçün bizim xidmətimiz bütün postlara bölünürdü. Düzdür, indi bir az hərbi sirri də təşkil edir, ancaq o, postlara gecə-gündüz qayğı və diqqət göstərirdi. Məsələn, gəlib otağında rahatlıq tapa bilmirdi ki, birdən hansısa postda hadisə ola bilər, təzədən otururduq maşına və postları yoxlamağa gedir-

dik. Nə özü yatırdı, nə də məni yatmağa qoyurdu. Çox vətənpərvər, məsuliyyətli insan idi.

Mən açıq deyim, Kəlbəcər rayonundan məcburi köçkün olmuşuq. Bizdə də, ümumiyyətlə, vətənpərvərlik hamının qanındadır. Vətənpərvərliyin miqdarını ölçmək mümkün olsaydı, bizdə ikiqat olardı. Orxan Əkbərovda isə, vətənpərvərlik olduqca çox idi. Allah sanki ona vətənpərvərliyi xüsusi bir fitri istedad kimi bəxş etmişdi. Bu insan elə bil sırf vətənə xidmət etmək üçün doğulmuşdu, vətən üçün yaranmışdı. Fikri-amalı ancaq Vətən idi.

– Xidmət öz yerində, bəs şəxsi zəmində necə idi? Deyib-gülməyi, müxtəlif zarafatları da yəqin ki, olub.

– Bəli, belə şeylər olurdu. Amma xidmətdə subardinasiya qaydaları var. Mən həmişə şəxsi heyətin səhər və axşam düzülüşü barədə ona məruzə edirdim. Yəni, xidmət vaxtı nizamnaməyə uyğun olaraq komandir-əsgər münasibətində idik. Ancaq xidmətdən sonra olurduq qardaş. Məsələn, onda belə bir gözəl xasiyyət var idi: bəzən harasa xidməti yoxlamağa gedirdik. Bizdə postlar batalyonlara bölünürdü. Yoxlamadan qayıdan vaxtı çörək yeməyə dönürdük. Görürdü ki, mən bir az çəkinirəm, dərhal gülə-gülə deyirdi ki, Loğman, xidmət daha orda qaldı, biz burada indi qardaşıq. Bundan sonra özümü çox rahat, güvənli hiss edirdim.

Demək, bizim Cocuq Mərcanlı deyilən istiqamətdə batalyonumuz vardı. Kənd özü o vaxt çox uçqun vəziyyətdə, xarabalığa oxşayırdı. Bu da təbii ki, müharibə şəraiti ilə bağlı olan bir məsələ idi. Araz çayı tərəfdən erməni diversantları sudan, çaydan daha çox istifadə edirdilər. Ümumiyyətlə, minaya görə sudan, çaydan daha çox istifadə etməyə məcbur idilər. Çünki çayda mina

qalmır, onu yuyur aparır. Deməli, bizim ən təhlükəli hissəmiz Araz çayı istiqamətində idi və göstəriş gəlmişdi ki, ora hardasa bir ay gücləndirilmiş rejimdə olsun. Bölük komandiri sağ olsun, onunla birlikdə ora getdik. Orada post qurulmuşdu və gecə-gündüz bizim əsgərlər həmin yerdə xidmətdə idi. Piyada bölüyündən başqa kəşfiyyat bölüyünün əsgərləri orada olurdu.

Gecənin birində atışma oldu. Həmin vaxt rəhmətlik Orxan, mən və bir də piyada bölüyünün tağım komandiri birlikdə çörək yeyirdik. Orxan birdən durdu ki, getdik... İrəliyə qaçdıq. Hamı qaçaqaçda idi, qabaqda da özü qaçırdı. Sərhəd tərəfə çatıb özünü səngərə atdı və dedi: "Çay tərəfdə bizim piyada bölüyünün əsgəri var, atışma səsləri oradan gəlir, birdən əsgəri vurarlar". Bu zaman mən çox riskli bir mənzərənin şahidi oldum. Orxan bir ayağını səngərin bir tərəfinə, digər ayağını da səngərin o biri tərəfinə qoydu və qalxdı yuxarı... Ermənilər tərəfə atırdı, sonra cəld düşürdü aşağı. Sonra dəfələrlə belə qalxırdı yuxarı, atıb cəld də səngərə düşürdü. Mən də hər dəfə tuturdum ki, komandir, belə risk eləmə, qalxma yuxarı, birdən vurarlar. Bu zaman gülərək dedi: "Bura sənin tatamin deyil... Bura mənim tatamimdi, ağıllı ol".

O, döyüş vəziyyətində də zarafatından qalmırdı və belə zarafatlarımız çox olurdu... Orxan həm də çox maraqlı, hazırcavab insan idi. O, əsgərlərinin valideynləri ilə də maraqlanırdı ki, kimdir, nəçidir? Hansı peşənin sahibidir? Uşaqlarının tərbiyəsi ilə necə, hansı şəraitdə məşğul olublar? Şəxsən, xidmətdən də sonra, hər məzuniyyətdə mənim atamla görüşürdü. Münasibətləri yaxın idi. Mən hərbi xidməti başa vurandan sonra da dostluğumuz davam edirdi.

Onun hər məzuniyyət dövründə mən zəng edib soruşurdum, görüm məzuniyyətə çıxıb-çıxmayıb? Məzuniyyətə çıxıbsa, gəlirdi, köhnə dostlar kimi görüşürdük. Çörək yeyirdik, söhbətləşirdik, ötən günləri yada salırdıq. Vətənpərvərlik onun qanında, canında və bütün ruhunda idi. Onun atası da dövlət işçisi olmuşdu. Allah rəhmət eləsin. Daxili işlər orqanında müstəntiq işləmişdi. Ümumiyyətlə, mən vətəni necə sevməyi, necə vətənpərvər olmağı Orxan Əkbərovdan öyrənmişəm. Allah ona rəhmət eləsin!

– Əsgər olsanız da, ali təhsilli olmusunuz. Elə ona görə də sizə münasibətdə həm zabit, həm də bir dost kimi yanaşıblar. Siz torpaqlarımızın işğalı dövründə əsgəri xidmətdə olmusunuz. Maraqlıdır, o vaxt Orxan Əkbərov torpaqlarımızın işğalından, ermənilərə qarşı münasibətdən söhbətlər edirdimi? Bir təəssüf hissi keçirirdimi ki, müharibə olsaydı, bu alçaqlardan qisasımızı alardıq?

– Bəli, bəli, əlbəttə! İnanın, ürəyimə dammışdı ki, müharibə başlasa, o şəhid olacaq. Dəfələrlə bu barədə söhbətlərimiz olurdu. Torpaqlarımızın işğalını həzm edə bilmirdi. Milli Qəhrəman Mübariz İbrahimovla uşaqlıq və gənclik dostu olublar, idmana da bir yerdə gediblər. Həmişə deyərdi ki, Mübariz kimi, Polad kimi oğulların qanı yerdə qalmamalıdır. Onu yaxşı tanıdığımdan bilirdim ki, müharibə başlayan kimi, Orxan arxada yox, düz ön cəbhədə olacaq. Həm hərbi potensialı, həm vətənpərvərliyi, tutduğu vəzifə, həm də peşəkarlığı ona imkan verməzdi ki, arxada qalsın. Ancaq mən bilirdim ki, onun başına bir iş gələcək. Çünki məndə bu hissi Orxan vətəni dəlicəsinə sevməyi ilə yaratmışdı. Güllə qabağına gedən idi…

– Orxanın şəhidlik xəbərini necə və harada eşitdiniz?

– Müharibənin üçüncü, ya dördüncü günü idi, mən ona zəng etdim ki, görüm vəziyyət necədir, cavab vermirdi mənə. Mən də düşünürdüm telefonla danışmaq olmur, yəqin vəziyyət də o tərəfdə yaxşı deyil. Sonra mən ona bir neçə dəfə zəng vurdum, nəhayət, kiçik yaşlı oğlu telefonu açıb deyəndə ki, atam şəhid olub, mən şok keçirtdim və bir müddət özümdə olmadım. Mən o vaxt Qobu Polis Bölməsində işləyirdim. Mənim iş yoldaşlarım gördü ki, nə vəziyyətə düşdüm. Bir tərəfdən bilirdim ki, Orxan özünü döyüşün ən ağır yerinə atacaq və buna görə də şəhid olacaq, digər tərəfdən də gözlərimə inana bilmirdim...

Cənnətlikdi yeri. Şəhidlərin yeri ən uca zirvədədir. Dinimizdə də şəhidlər ən yüksək mərtəbədə sayılırlar. Orxan elə oğlan idi ki, onun itkisinə heyfsilənməmək olmaz. Mən tanımışam, görmüşəm, bir yerdə olmuşuq, maraqlı günlərimiz olub. Şəhidlik, qəhrəmanlıq zirvəsi hər adama qismət olmur. Elə şeylər var ki, onun haqqında danışmaqla bitməz. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah qazilərimizə can sağlığı versin!

Qarabağ müharibəsində döyüşən, arxa cəbhədə xidmət edən hər kəsə, başda Ali Baş Komandan, Prezident cənab İlham Əliyev olmaqla, can sağlığı arzu edirəm. Biz o cəsarətimizi, qəhrəman olduğumuzu, vətənpərvərliyimizi, nəhayət, döyüşmək bacarığımızı ermənilərə göstərə bildik. Bir tərəfdən baxanda təbii ki, adam sevinir, qürurlanır. Amma üzücü tərəfləri də var ki, bu da Orxan kimi şəhidlərimizin olmasıdır. Yenə də Vətən sağ olsun. İnşallah, onun oğlu Çingiz də həyatda özünə yaxşı mövqe tutar və atasının adını həmişə doğruldar…

Elçin Məmmədli

SON SÖZ ƏVƏZİ

...Şeyx Şamil deyirdi: "Aqibətini düşünən əsgərdən igid olmaz!"

Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərov erməni təxribatlarının qarşısını almaq üçün silaha sarılanda özünün aqibətini deyil, Vətənini – Azərbaycanı, 30 il erməni işğalı altında qalmış Qarabağın viran yurdlarının azadlığını düşündü. O, elə buna görə də qəhrəman oldu!

Orxan Əkbərov şəhid olsa da, özündən sonra gələcək nəslə bir qəhrəmanlıq dastanı qoyub getdi. O, ölmədi, şəhid oldu!!! O, bu şəhidliyi ilə torpağı Vətən edən, igidliyi ilə Azərbaycanın gücünü, qüdrətini ortaya qoyan, düşmənə qan udduran, ölümdən və ölümündən qorxmayan əfsanəvi qəhrəmanımızdır! Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərov Vətən torpağını qanı ilə suvardı, canı ilə qorudu, adı ilə göylərə qaldırdı!

Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının polkovnik-leytenantı, N saylı hərbi hissənin komandiri Orxan Əkbərov şəhidliyindən əvvəl – 2016-cı ilin Aprel döyüşlərində və Tovuzda erməni təxribatının qarşısını alma əməliyyatlarında iştirak etmişdi. O, Vətən müharibəsində Füzulidə gedən ağır döyüşlər zamanı düşmənə qan uddurdu, mühasirəyə düşsə də, təslim olmadı...

Ali Baş Komandan, Prezident İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı Fəxri adına layiq görüldü. "Vətən uğrunda" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Respublikası

Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmuşdur. Bunlar igid Vətən oğlunun döyüş xidmətlərinə dövlətimiz tərəfindən verilmiş yüksək qiymətdir.

Lakin Orxan Əkbərovun şəhidliyinə verilən ən böyük qiymət bu oldu ki, Azərbaycan ordusu onun arzusunu yerinə yetirdi, qanını yerdə qoymadı, onun müqəddəs arzusu olan işğal altındakı torpaqlarımız düşməndən azad edildi, Şuşada, Laçında, Ağdamda, Xocavənddə, Kəlbəcərdə, Qubadlıda, Füzulidə, Cəbrayılda, Zəngilanda... Azərbaycanın üçrəngli bayrağı ucaldıldı! İndi onun ruhu şaddır!

Əfsanəvi kəşfiyyatçı, Vətən Müharibəsi Qəhrəmanı Orxan Əkbərovun timsalında bütün şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə can sağlığı arzulayırıq! Orxan Əkbərovun müqəddəs ruhu həmişə qəlbimizdədir, xalqımız igid oğlunun xatirəsini həmişə uca tutacaq!

Sonda: Orxan Əkbərov haqqında xatirələr söyləyən, yana-yana danışaraq onun itkisinə kövrələn, təəssüf hissi keçirən hər kəsə bu xatirələri dinləyən – qələmə alan əməkdaşlarımız adından təşəkkürümü bildirirəm.

Şəhidlər ölməz, Vətən bölünməz!

Qarabağ Azərbaycandır!



Kitabın içindəkilər

GİRİŞ 3
ÖN SÖZ 5

KÖVRƏK XATİRƏLƏR:

GENERAL MAİS BƏRXUDAROV 16
GENERAL ƏFQAN NAĞIYEV 19
GENERAL BABƏK QURBANOV 24
POLKOVNİK TELMAN HÜSEYNOV 34
POLKOVNİK TOĞRUL ŞAMXALOV 48
MAYOR ƏNVƏR ƏKBƏROV 61
MAYOR ŞAHMAR MƏMMƏDOV 70
POLKOVNİK-LEYTENANT YAŞAR BAĞIROV 72
POLKOVNİK-LEYTENANT FAMİL ƏLİYEV 77
SEVİL ABDULLAYEVA 82
NURANƏ ƏKBƏROVA 97
YUSİF ƏKBƏROV 112
ELNUR ƏKBƏROV 118
BƏHRUZ İBRAHİMOV 124
XUDAVERDİ MAHMUDOV 129
İMAMƏLİ MURADOV 134
CƏMŞİD MÜRSƏLOV 140
RƏŞAD ƏLİYEV 143
CAVİDAN MAHMUDOV 147
ŞƏFƏQQƏT ZƏKİYEVA 149
LOĞMAN MİRZƏYEV 152
SON SÖZ ƏVƏZİ 158

QARABAĞ AZƏRBAYCANDIR!



9 789952 383935

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing
www.instagram.com/qanunpublishing